AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ
UNEC

# UNEC Ekspert

ELMİ-PUBLİSİSTİK JURNAL
#1 (12) 2023



# TÜRK DÖVLƏTLƏRİ TƏŞKİLATI

## İQTİSADİ POTENSİAL VƏ GƏLƏCƏ YƏ BAXIŞ

# NİYƏ UNEC?

**QS DÜNYA UNİVERSİTETLƏR REYTİNQİNDƏ UNEC DÜNYANIN ƏN YAXŞI 1001+ UNİVERSİTETİ SIRASINDA YER ALIB.**
**AZƏRBAYCAN ÜZRƏ 2023-CÜ İLİN ÖLKƏ BİRİNCİSİ.**

Regionda iqtisad elmini dərindən öyrədən fundamental tədris mərkəzidir;
Tədris prosesi və kadr hazırlığı Amerika və Avropa təhsil sisteminə uyğundur;
İxtisaslar bakalavr, magistr və doktorantura təhsil pillələri üzrə azərbaycan, ingilis, rus və türk dillərində tədris edilir;
Auditoriyada mərkəz nöqtəsi tələbədir;
Tələbə universiteti iki və daha çox ixtisasla (dual major) bitirə bilər;
Tələbələrin müxtəlif mübadilə proqramlarında iştirak etmək imkanı vardır;
Universitetdə 13 fakültə və 17 kafedra fəaliyyət göstərir;
394 professor və dosent çalışır.

## NİYƏ TÜRK DÜNYASI İQTİSAD FAKÜLTƏSİ (TUDİFAK)?

Fakültədə təhsil tam türk dilində aparılır;
İxtisaslar: maliyyə, mühasibat, beynəlxalq ticarət və logistika, marketinq, biznesin idarə edilməsi, dövlət və bələdiyyə idarəetməsi, iqtisadiyyat;
Dərs proqramları İstanbul Universiteti nümunəsində hazırlanmışdır;
Fakültə dekanı Türkiyə Universitetlərinin müəllimləri arasından seçilir və fakültənin akademik heyəti Türkiyədə təhsil almış azərbaycanlı və türk müəllimlərdən ibarətdir;



UNEC BUSINESS SCHOOL

## NİYƏ UNEC, BEYNƏLXALQ İQTİSADİYYAT MƏKTƏBİ (İSE)?

Tam ingilis dilində təhsil;

İxtisaslar: Dünya iqtisadiyyatı, Maliyyə, Mühasibat, Biznesin idarə edilməsi, İqtisadiyyat, Beynəlxalq ticarət və logistika;

Fakültənin keçid balı – 566;

Fransa, Almaniya, Niderland, Türkiyə, Koreya, Litva universitetləri ilə mübadilə proqramları;

Qərb universitetlərinin məzunları olan müəllimlər;

London Universitetinin beynəlxalq dərəcə proqramında və Montpellier Universiteti ilə ikili diplom proqramında iştirak imkanı;

Harmon İSE tələbə yaradıcılıq klubu ilə birlikdə maraqlı tələbə həyatı.

## NİYƏ UNEC, MBA PROQRAMI?

MBA Proqramı sizi biznes mütəxəssisi kimi formalaşdırır;

Proqram üzrə bütün fənlərə aid mini kitabxana və praktik məsələlər (case study) toplusu təşkil olunmuşdur;

MBA Proqramında çalışan 100-dən artıq professor-müəllim heyətinin əksəriyyəti ABŞ, Kanada, İngiltərə, Almaniya, İtaliya, İsveç, Fransa, Türkiyə, Rusiya və digər ölkələrin ən qabaqcıl universitetlərini bitirmiş iqtisad üzrə fəlsəfə doktorları və magistrlər təşkil edir;

Fənlər dünyanın ən qabaqcıl ali təhsil ocaqlarının proqramlarına uyğun müəyyənləşdirilmişdir;

UNEC Biznes Məktəbi EFMD-nin Qlobal şəbəkəsinin üzvüdür;

UNEC-UBIS (University of Business and International Studies);

İkili Magistr Dərəcə Proqramına qoşulma imkanı

Almaniyanın Yena Fridrix Şiller Universiteti ilə mübadilə proqramı;

# REDAKSİYA HEYƏTİ

**BAŞ REDAKTOR**
i.e.d., prof. Ədalət Muradov

**BAŞ REDAKTOR MÜAVİNİ**
i.f.d., dos. Elşən Bağırzadə

**REDAKTOR**
i.f.d. Cəbrayıl Vəliyev

**KOORDİNATOR**
Zaur Əziz

**KORREKTOR**
Nuriyyə Qarayeva

**REDAKSİYANIN ÜNVANI**
AZ 1001, Bakı, Azərbaycan,
İstiqlaliyyət küçəsi 6.

Tel.: 012 437 10 86

www.unec.edu.az

expert@unec.edu.az

**MƏTBƏƏ**: ŞƏRQ-QƏRB

**TİRAJ**: 1000

**JURNAL İLDƏ İKİ DƏFƏ NƏŞR OLUNUR**

**ƏDLİYYƏ NAZİRLİYİ QEYDİYYAT NÖMRƏSİ**
#4026

## MÜNDƏRİCAT

UNECEkspert
ELMİ-PUBLİSİSTİK JURNAL
#1 (12) 2023



11
*AZİZ SANCAR:*
“BİZ ÇALIŞDIQCA, İSTEHSAL ETDİKCƏ ÜSTÜN OLACAĞIQ. ƏKS HALDA, ÜSTÜNLÜK GENETİK DEYİL. BÜTÜN İNSANLAR BİR-BİRİNƏ BƏRABƏRDİR.”



18
TÜRK DÜNYASININ TƏBİİ RESURS POTENSİALI



14
TÜRK DÜNYASINDA İQTİSADİ ƏMƏKDAŞLIQ VƏ İNKİŞAF GÜNDƏLİYİ: “TÜRK DÜNYASI 2040 VİZYONU”



22
TÜRK DÖVLƏTLƏRİNİN İNNOVASİYA POTENSİALI



26
TÜRK DÜNYASI PUL COĞRAFİYASI DİSBALANSI



30
ORTA DƏHLİZ - REGİONUN SÜRƏTLİ İNKİŞAFINA TƏKAN VERƏCƏK YENİ İQTİSADİ LAYİHƏ



34
TÜRK DÖVLƏTLƏRİNDƏ NƏQLİYYAT VƏ KOMMUNİKASİYA SEKTORUNUN İNKİŞAF PERSPEKTİVLƏRİ



38
TÜRK ÖLKƏLƏRİNDƏ ENERJİ SEKTORUNUN İNKİŞAF PERSPEKTİVLƏRİ



40
TÜRK DÖVLƏTLƏRİ ARASINDA TİCARƏT SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ: MÖVCUD VƏZİYYƏT, PROBLEMLƏR, İMKANLAR VƏ PERSPEKTİVLƏR



42
TÜRK DÖVLƏTLƏRİ ARASINDA İNVESTİSİYA ƏMƏKDAŞLIĞI

# MÜNDƏRİCAT



44
AZƏRBAYCAN İQTİSADİYYATI: ÖTƏN 30 İLƏ SƏYAHƏT



46
QAZAXISTAN İQTİSADİYYATININ MÜASİR VƏZİYYƏTİ VƏ İNKİŞAF TRENDLƏRİ



48
QIRĞIZISTAN İQTİSADİYYATINA BİR BAXIŞ



50
ÖZBƏKİSTAN İQTİSADİYYATI: DAVAMLI İNKİŞAFA DOĞRU



52
TÜRKİYE'NİN MEVCUT İKTİSADİ DURUMUNA BİR BAKIŞ



56
TÜRKMƏNİSTAN İQTİSADİYYATININ MÖVCUD VƏZİYYƏTİ VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ

AZƏRBAYCAN
DÖVLƏT
İQTİSAD
UNİVERSİTETİ

BİZİ SOSİAL ŞƏBƏKƏLƏRDƏ İZLƏYİN



ƏLAQƏ
+99412 497 71 35

# UNEC KARYERA MƏRKƏZİ

"İş həyatına hazırlıq və şəxsi inkişafa dəstək

## XİDMƏTLƏRİMİZ

- İş həyatına hazırlıq
- Bacarıqların təkmilləşdirilməsi
- İş dünyası ilə əlaqələrin gücləndirilməsi


KARYERA@UNEC.EDU.AZ
WWW.UNEC.EDU.AZ
AZ 1001, BAKI, AZƏRBAYCAN, İSTİQLALİYYƏT KÜÇƏSİ 6

# SƏMƏRQƏNDDƏ TÜRK DÖVLƏTLƏRİ TƏŞKİLATININ **TÜRK UNİVERSİTETLƏR BİRLİYİ REKTORLARININ XÜSUSİ GÖRÜŞÜ KEÇİRİLİB**



***Türk Dövlətləri Təşkilatının Türk Universitetlər Birliyi (TÜRKÜNİB) rektorlarının cari ilin iyun ayının 6-7-də Özbəkistanın Səmərqənd şəhərində Xüsusi Görüşü keçirilmişdir. Xüsusi Görüş Türk Dövlətləri Təşkilatının Katibliyi, TÜRKÜNİB-in hazırki sədrliyini həyata keçirən Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), Özbəkistanın Beynəlxalq "İpək Yolu" Turizm və Mədəni İrs Universiteti və Daşkənd Dövlət Şərqşünaslıq Universiteti ilə birgə təşkil olunmuşdur.***

***“Türk Sivilizasiyasının Paytaxtı” Səmərqənddəki görüşə Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkiyə və Özbəkistandan TÜRKÜNİB üzvü universitetlərin rektorları və yüksək səviyyəli təmsilçiləri qoşulmuşdur. Görüşdə Azərbaycan Dövlət İqtisad Universitetini (UNEC) universitetin rektoru professor Ədalət Muradov və rektorun müşaviri Elşən Bağırzadə təmsil etmişdir.***

Türk Dövlətləri Təşkilatının Baş katibinin müavini Sədi Cəfərovun moderatorluğu ilə keçirilən Xüsusi İclasın açılışında Özbəkistan Respublikasının Ali təhsil, Elm və İnnovasiya nazirinin birinci müavini Komiljon Kərimov, Özbəkistanın Beynəlxalq “İpək Yolu” Turizm və Mədəni İrs Universitetinin rektoru Aziz Abduhakimov, Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru professor Ədalət Muradov, Qırğızıstan-Türkiyə Manas Universitetinin rektoru professor Alpaslan Ceylan, Daşkənd Dövlət Şərqşünaslıq Universitetinin rektoru professor Gülçehra Rixsiyeva və Hoca Əhməd Yəsəvi Beynəlxalq Qazax-Türk Universiteti Qəyyumlar Şurasının sədri professor Muhittin Şimşek çıxış etmişlər.

Özbəkistanın Ali Təhsil, Elm və İnnovasiyalar nazirinin birinci müavini Komiljon Kərimov iştirakçılar qarşısında çıxış edərək onları salamlamış, elm və təhsil sahəsində əməkdaşlığın inkişafına töhfə verəcək bu görüşün əhəmiyyətini vurğulamışdır.

Türk Dövlətləri Təşkilatı Baş katibinin müavini Sədi Cəfərov çıxış nitqində Türk Dövlətləri Təşkilatının baş katibi səfir Kubanıçbek Ömüraliyevin salamlarını tədbir iştirakçılarına çatdıraraq, üzvlərin təhsil sahəsində imkanlarından istifadə edərək konkret nəticələrə nail olmaq üçün TÜRKÜNİB çərçivəsində əməkdaşlıqla bağlı məsələlərin müzakirəsinin vacibliyini qeyd etmişdir.









İclasın gündəliyinə uyğun olaraq, tərəflər TÜRKÜNİB-in fəaliyyət prinsiplərini, Orhun Mübadilə Proqramının mövcud imkanlarını və çağırışlarını müzakirə etmiş və TÜRKÜNİB-in 2023-2024-cü illər üçün fəaliyyətinə dair Yol Xəritəsini qəbul etmişlər. Tərəflər Birliyə üzv olmaq istəyən universitetlərin müraciətləri ilə bağlı fikir mübadiləsi də aparmışlar.

TÜRKÜNİB-ə sədrlik edən Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru professor Ədalət Muradov Xüsusi Görüşdəki çıxışında UNEC tərəfindən hazırlanan TÜRKÜNİB Yol Xəritəsi, Orhun mübadilə proqramının mövcud vəziyyəti, Türk universitetləri arasında kommunikasiyanın gücləndirilməsi, TÜRKÜNİB-in təşkilatlanmasının gücləndirilməsi kimi məsələlərə toxunmuşdur. O, Türk universitetləri arasında əməkdaşlığın səmərəliliyinin artırılması yolları haqqında fikirlərini bölüşərək Orhun Mübadilə Proqramının əhatə dairəsini, imkanlarını, cəlbediciliyini və dayanıqlılığını artırmağın, üzv universitetlərin elmi-tədqiqat və təhsil potensialından, infrastruktur və kadr imkanlarından mümkün qədər birgə istifadənin, elmi nəşrlərin keyfiyyətinin artırılması, beynəlxalq standartlara cavab verən ortaq elmi nəşrlərin hazırlanmasının, TÜRKÜNİB Tələbə Şurasının fəaliyyətinin daha da gücləndirilməsinin əhəmiyyətindən danışmışdır.

*Xüsusi Görüş çərçivəsində Hoca Əhməd Yəsəvi Beynəlxalq Qazax-Türk Universiteti tərəfindən nəşr edilən 20 cildlik "Türk Ədəbiyyatı İsimlər Lüğəti Ensiklopediyası" həmin universitetin Qəyyumlar Şurasının sədri professor Muhittin Şimşək tərəfindən tədbir iştirakçılarına təqdim edilmişdir.*

Sonra Xüsusi Görüş iştirakçıları Özbəkistan tərəfinin Türk Dövlətləri Təşkilatının Katibliyi ilə birgə təşkil etdiyi "Əfrasiyab (Alp Ər Tunqa) türk dövlətçiliyinin əsaslarını qoyan tarixi şəxsiyyət kimi" adlı elmi seminara qoşulmuşdur.



Səmərqənd şəhərində yerləşən "Əfrasiyab" Tarix Muzeyində keçirilmiş seminarda Türk ölkələrindən olan alimlər Alp Ər Tunqanın Türk Dünyasında mühüm tarixi şəxsiyyət kimi oynadığı rolla bağlı fikirlərini tədbir iştirakçılarına çatdırmışdır.

Seminardan sonra Xüsusi Görüşün fəxri məruzəçisi, Türk elm adamı, Nobel Mükafatı Laureatı professor Aziz Sancar videokonfrans vasitəsilə tədbir iştirakçılarına müraciət edərək Türk Dünyasında elmin və təhsilin inkişafı, gənc nəsillər arasında elmin təşviqi ilə bağlı fikirlərini bölüşmüşdür.



# TÜRK DÖVLƏTLƏRİ TƏŞKİLATI **TÜRK UNİVERSİTETLƏR BİRLİYİ REKTORLARININ** XÜSUSİ GÖRÜŞÜ

SƏMƏRQƏND, 7 İYUN 2023
PROFESSOR AZIZ SANCARIN
ÇIXIŞ MƏTNİ[1]





## ***AZİZ SANCAR:*** *"BİZ ÇALIŞDIQCA, İSTEHSAL ETDİKCƏ ÜSTÜN OLACAĞIQ. ƏKS HALDA, ÜSTÜNLÜK GENETİK DEYİL. BÜTÜN İNSANLAR BİR-BİRİNƏ BƏRABƏRDİR."*

[1] Mətni Türkiyə Türkcəsindən Azərbaycan Türkcəsinə uyğunlaşdırdı: iqtisad üzrə fəlsəfə doktoru, dosent Elşən Bağırzadə, elshan.bagirzadeh@unec.edu.az



***6-7 iyun 2023-cü il tarixində Özbəkistan Respublikasının Səmərqənd şəhərində Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) sədrlik etdiyi Türk Dövlətləri Təşkilatı Türk Universitetlər Birliyi Rektorlarının Xüsusi Toplantısı keçirilmişdir. Toplantı çərçivəsində Nobel Mükafatı Laureatı, UNEC-in Fəxri doktoru, professor Aziz Sancar video-çıxış etmiş və Türk Dünyasında elm, təhsil və texnologiyanın inkişafına dair fikirlərini toplantı iştirakçıları ilə bölüşmüşdür. Böyük marağa səbəb olan bu çıxışın tam mətnini diqqətinizə təqdim edirik.***

***Əziz bacı və qardaşlarım!***

İlk öncə bildirmək istəyirəm ki, Türk Dövlətləri Təşkilatına bağlı olan Türk Universitetlər Birliyinin toplantısında sizə müraciət etmək mənim üçün böyük qürur mənbəyidir.

Uzun müddətdir bir-birindən ayrı düşmüş Türklərin bir araya gəlməsi, güclərini birləşdirməsi, həm özlərinin, həm də dünyanın inkişafına töhfə vermək imkanı əldə etməsi bizim hər zaman gənclik arzumuz olmuşdur. Ona görə də mən çox şadam ki, siz “Türk Dünyasının Sivilizasiya Paytaxtı” Səmərqənddə bir araya gəlib millətimizin elm və təhsil problemlərini, bu problemlərin ortaq həll yollarını müzakirə edirsiniz.

Mən Nobel mükafatını alanda hiss etdim ki, təkcə özümü deyil, təkcə Türkiyə Respublikasını deyil, bütün Türk Dünyasını təmsil edirəm, bunu bilirdim və bundan çox qürur duyurdum. Amma eyni zamanda, içimdə bir əzginlik var idi. Biz böyük sivilizasiyalar yaradan böyük Türk millətiyik. Axı mən niyə Nobel qazanan ilk Türk olmalıyam?

Biz öz tariximizlə fəxr edirik. Tarix kitablarında bizə öyrədirdilər ki, biz türklər böyük sivilizasiyalar yaratmışıq. Düzünü deyim, mən ibtidai sinifdə, orta məktəbdə buna inanırdım. Amma liseyə və universitetə gedəndən sonra buna şübhə etdim. Çünki universitet dərslərimdə Newton, Curie, Einstein, Pasteur, Koch və.s vardı, ancaq Uluğ Bey, İbni Sina, El Biruni, Mehmet, Alparslan, Özbək qızı Nigora və.s yox idi. Bu fakt məndə bir həsrət olaraq qaldı. İllər sonra Qərb müəlliflərinin əsərlərini oxudum və anladım ki, 750-1250-ci illər arasında Türk Dünyası elm dünyasının mərkəzi olub. Həqiqətən də biz böyük sivilizasiyalar yaratmışıq. Amma bir çox səbəblərə görə bundan sonra elmlə məşğul olmağı dayandırdıq və Avropa, Amerika Birləşmiş Ştatları bizi qabaqladı. Bunu həll etməliyik.

Həqiqətən də göz qabağındadır ki, biz Türklər son 500 ildə elmə layiqincə töhfə verə bilməmişik. Bəs niyə verə bilməmişik? Bəzi insanlar bu suala "ağıllı olmadığınız üçün" cavabını verirlər. Amma elmlə məşğul olmaq genetika və ya zəka ilə bağlı deyil, ənənə məsələsidir. Yəhudi qardaşlarımız dünya əhalisinin 0,2 faizini təşkil edir və elm üzrə Nobel mükafatlarının 20 faizini alıblar. Onlar digər insanlardan daha ağıllıdırlarmı? Xeyir. Sadəcə onların mədəniyyətində elmə, təhsilə önəm verilir. Ona görə də biz bunu ənənəyə çevirməli və bunu uşaqlarımıza erkən yaşda aşılamalıyıq. Xüsusilə sosial elmlərlə məşğul olan elm adamlarımız bu məsələ üzərində işləməlidirlər.

Mən getdiyim Türk ölkələrində texnologiyaya əhəmiyyət

verməyə başlandığını gördüm. Texnologiya vacibdir, lakin fundamental elm olmadan texnologiya yoxdur. Avropadan, Amerikadan maşın alıb texnologiya yaradıram, patent aldım, bilmirəm nə aldımla nə Türkiyə, nə də Türk Dünyası yüksələcəkdir. Mən buna inanıram. Dünyada ad çıxarmaq istəyiriksə, bir güc kimi tanınmaq istəyiriksə, yadellilər tərəfindən idarə olunmaq istəmiriksə, elmlə məşğul olmalıyıq, elmdə güclü olmalıyıq ki, dünya bizi elmimizlə tanısın. Unutmaq lazım deyil ki, biz çalışdıqca, istehsal etdikcə üstün olacağıq. Əks halda, üstünlük genetik deyil. Bütün insanlar bir-birinə bərabərdir.

Şübhəsiz ki, Türk Dünyasında elmi geriliyin bir çox institusional və sosial səbəbləri var. Təəssüf ki, mən onların həllini yaxşı bilmirəm. Amma mənim başa düşdüyüm odur ki, maddi sərmayə qoymaqdan daha çox elm mühiti yaratmaq lazımdır. Uluğ Bəy, İbn-i Sina, Əl-Biruni birdən-birə ortaya çıxmadı. O dövrdə Türk Dünyasında elm mühiti var idi, yüzlərlə uğurlu alim var idi və elmə maraq çox idi, elmə əhəmiyyət verilirdi. Eyni zamanda, Uluğ Bəy və Uluğ Bəy kimi Orta Asiya Qızıl Dövrünün digər alimləri də Türk Dünyasında alimlərlə birgə çalışaraq elmlə məşğul olurdular. Bu gün bunlara əhəmiyyət versək, Türk Dünyasında elm və cəmiyyət inkişaf edər və irəliyə doğru gedər.

Türk Dünyasındakı elmi geriliyin səbəblərini və onların çarələrini tapmaq üçün sosial elm adamlarımızın birgə və ətraflı araşdırmalarına ehtiyac olduğu şübhəsizdir. Amma mən öz təvazökar müşahidələrimə əsaslanaraq Türk Dünyasında elmin inkişafı və dünya ilə rəqabət aparmaq üçün nə etməli olduğumuzu burada ümumiləşdirmək istərdim.

1. Birincisi, elm ədalətin, azad düşüncənin və sorğu-sualın mövcud olduğu mühitlərdə inkişaf edir. Biz bunu unutmamalı və uşaqlarımızı bu ruhla, vərdişlə böyütməli, onlara bu mühiti təmin etməliyik. Elmdə azad düşüncə çox vacibdir. Türk Respublikalarına gedəndə məni mərasimlə qarşılayır, böyük hörmət göstərirsiniz. Əlbəttə ki, bir insan kimi bu xoşuma gəlir. Amma elmdə bunlara yer yoxdur. Mənimlə işləyən ən uğurlu alimlər və yetişdirdiyim ən uğurlu tələbələr mənimlə mübahisə edən tələbələr olub. Bu baxımdan biz, xüsusən də azyaşlı uşaqlarımıza sərbəst düşünməyi, yaşlıların, mənim kimi insanların dediklərini sorğulamağı öyrətməliyik.

2. İkincisi, biz fundamental elmlərə üstünlük verməliyik. Sosial elm adamlarımız bunu qüsur kimi görməsinlər, onlara böyük hörmətim var, amma sizə deyim ki, biz fundamental elmlərə sərmayə qoymalıyıq, uşaqlarımızın fundamental elmlərlə məşğul olmasına dəstək olmalıyıq, onlarda özlərinə inam yaratmalıyıq.

3. Üçüncüsü, biz qızlarımıza və oğlanlarımıza eyni təhsil imkanını verməliyik. Başda Türkiyə Respublikası olmaqla, bütün Türk cəmiyyətlərində bunun problem olduğunun fərqindəyəm. Bunu həll edə bilməsək, cəmiyyətimizin yarısını təşkil edən qadınlarımızın potensialından inkişaf yolunda yararlana bilmərik, bu potensialı reallaşdıran cəmiyyətlərlə rəqabət apara bilmərik.

4. Dördüncüsü, uşaqlarımıza çox erkən yaşlarından eksperiment etməyi öyrətməliyik. Elm eksperiment etməklə öyrənilir, bunu unutmaq olmaz. Amerikaya gələndə Türkiyə məni təhsil və nəzəri elm baxımından çox yaxşı yetişdirmişdi. Amma eksperimentlər etmək sahəsində çatışmazlıqlarım var idi. Bunu uşaqlarımıza erkən yaşda öyrətməliyik. Bu vərdiş halına gəlməli, edərək öyrənməlidirlər. Bunu sadəcə oxumaqla əldə edə bilməzsiniz.

5. Beşincisi, siyasət və din elmlə qarışdırılır, onları qəti şəkildə ayrı tutmaq lazımdır. Siyasət və din ilə elm qurumları məqsəd və metod baxımından bir-birindən əhəmiyyətli dərəcədə fərqlənir. Bunları qarışdırsanız, nəticədə həm dini etiqadı olan elm adamları gözdən düşəcək, həm də elm zədələnəcək, etibarını itirəcək, irəliləyə və inkişaf edə bilməyəcəkdir. Eləcə də, alimləri dindən və siyasətdən kənarda tutmaq lazımdır. Əgər din və siyasət elm adamlarının işinə müdaxilə edərsə, nəticədə elm ortadan qalxar. Əslində, buna ibrətamiz ən yaxşı nümunə kimi Uluğ Bəyin Səmərqənddə qurduğu Rəsədxananın taleyini göstərə bilərik. Dini və siyasi ekstremizm o zaman dünya miqyaslı elmi mərkəzə çevrilmiş bu rəsədxananın dağıdılması və alimlərinin dünyanın müxtəlif bölgələrinə qaçması ilə nəticələndi. Alimlər də din və inanc işlərinə qarışmamalıdırlar. Çünki cəmiyyətin böyük bir hissəsini özlərindən uzaqlaşdırar və onları qəbul etmədikləri hissini vermiş olarlar.

6. Altıncısı, alimlərə ləyaqətə əsaslanan imkanlar təmin edilməlidir. Onları vəzifəyə təyin etmək, vəzifədə yüksəlmək üçün yeganə meyar ləyaqət olmalıdır. Məsələn, mənim işlədiyim Amerikada sizin keçmişdə etdiyiniz işlərə baxmırlar. Nobel mükafatını aldıqdan sonra dərc olunmaq üçün göndərdiyim ilk məqaləm rədd edildi. Amerikada işləyəcəksən, dayanmadan işləyəcəksən və nəsə tapıb ortaya çıxaracaqsan. Bunun ölçüsü budur. Nə alimlər bundan başqasına qulaq asır, nə də ABŞ Səhiyyə Departamenti kimi elmi fəaliyyətləri maliyyələşdirən qurumlar. Ona görə də işini davam etdirməlisən. Davam etməsək, dəstəkləməyəcəklər, Nobelə, filana baxmayacaqlar. Elmlə bağlı vəzifələrə təyinatlarda da bu nəzərə alınır və bu vəzifələrə dünyadan və Amerikadan ən yaxşı kadrların gətirilməsi üçün səy göstərilir.

7. Yeddincisi, insanlar elmlə məşğul olandan sonra onlara azadlıq verəcəksən, bunu et, belə et deməyəcəksən. Alim azadlıq istəyir. Onların bir şeyə həvəsi olur, onun arxasınca düşər və siz də ona bu barədə sərbəstlik verməlisiniz. Ömrünü buna həsr etdiyinə görə, şübhəsiz ki, insanlığa faydalı bir iş görəcəkdir. Bir sözlə, alimə sərbəst şəkildə öz elmi məqsədlərini qoyub, onlara nail olmaq imkanı verilməlidir.

8. Səkkizincisi, bütün bunlardan başqa, məncə, Türk Dünyasına sədaqəti, sevgisi olmayan Türk yaxşı alim ola bilməz. Mən elmə müəyyən dərəcədə öz suallarıma cavab tapmaq üçün gəldim. Bilmədiyimi öyrənmək üçün gəldim. Fəqət, mən elmlə məşğul olarkən, xüsusən də yad ölkədə elmlə məşğul olarkən bir şeyi həmişə ağlımda tutdum və heç vaxt unutmadım; düşündüm ki, burada təkcə özümü deyil, Türk Millətini təmsil edirəm. Bu isə mənə həm güc, həm də məsuliyyət verdi. Hər dəfə bir şey edəndə düşünürdüm ki, bundan mən nə qazanacam, Türk Milləti nə qazanacaqdır. Nəticədə, bu mənim üçün bir güc mənbəyi oldu.

Nəhayət, bildiyimə görə, Türk Universitetləri Birliyi Türk Respublikalarının universitetləri arasında tələbə və professor-müəllim heyətinin mübadiləsini təmin etmək və Türk Dünyasında ortaq ali təhsil məkanı yaratmaq üçün işlər aparır. Bunları yaxşı proseslər kimi görürəm, Türk Dünyasında ortaq elmi araşdırmaları da əhatə edəcək şəkildə daha da genişləndirilməsini diləyirəm və Türk Respublikalarını idarə edənlərdən bu fəaliyyətlərə təcili olaraq daha çox büdcə ayırmalarını hörmətlə xahiş edirəm.

***Hamınıza təşəkkür edirəm və uğurlar diləyirəm.***

***Tanrı Türkü Qorusun!***

**i.f.d., dos. Elşən Bağırzadə**
UNEC, Baş redaktorun müavini



# TÜRK DÜNYASINDA İQTİSADİ ƏMƏKDAŞLIQ VƏ İNKİŞAF GÜNDƏLİYİ: "TÜRK DÜNYASI 2040 VİZYONU"

**Bu gün elmi ədəbiyyatlarda Türk Dünyası dedikdə, geniş və dar anlamda olmaqla, iki açıqlamanı fərqləndirmək mümkündür. Geniş anlamda Türk Dünyası dedikdə, yer kürəsində yaşayan bütün türklər və onların vətənləri nəzərdə tutulur. Dar anlamda Türk Dünyası dedikdə isə, Çindən Avropaya qədər geniş bir coğrafiyada ardıcıl olaraq yerləşən bütün müstəqil türk dövlətləri başa düşülür. Hazırda müstəqil türk dövlətləri Türk Dövlətləri Təşkilatında birləşmiş və bu təşkilat çərçivəsində gələcək inkişaf yollarını birgə müəyyən etməyə çalışırlar.**

*Geniş anlamda Türk Dünyası dedikdə, yer kürəsində yaşayan bütün türklər və onların vətənləri nəzərdə tutulur.*

Türk Dövlətləri Təşkilatına üzv ölkələr, XVI əsrə qədər min ildən çox bir zaman kəsiyində Avroafrasiyanın, yəni Asiya, Avropa və Afrikanın əsas iqtisadi əməkdaşlıq və inkişaf yolu olan Qədim İpək Yolunun üzərində yerləşir. Bu yol XVI əsrdən etibarən dünya iqtisadiyyatı üçün önəmini müəyyən qədər itirmiş olsa da, onun üzərində yerləşən ölkələr uğrunda dünya güclərinin çəkişməsi davam etmişdir. Xüsusilə də, XIX əsrdən etibarən İpək Yolu üzərində yerləşən türk dövlətləri uğrunda Rusiya və İngiltərənin mübarizəsi tarixdən hər kəsə məlumdur. Sovet İttifaqı dövründə bu bölgə uğrunda mübarizə və çəkişmələr bir qədər səngimiş olsa da, həmin ittifaq dağıldıqdan sonra Qədim İpək Yolu üzərində meydana çıxan müstəqil dövlətlər, o cümlədən də türk dövlətləri yenidən dünya güclərinin əsas çəkişmə məkanlarından birinə çevrilmişdir.

Yeni türk dövlətləri dünya siyasi səhnəsinə çıxdıqdan sonra ilk dövrlərdə onların Türkiyə ilə birlikdə bir regional iqtisadi inteqrasiya təşkil edə biləcəkləri yönündə başda ABŞ və Avropa olmaqla, dünyanın müxtəlif siyasi, elmi və media dairələrində müzakirələr aparılmışdır. 1990-cı illərin əvvəllərindən başlayaraq, Türk Dünyasını əhatə edən müxtəlif




ixtisaslaşmış təşkilatlar yaranmış, Türkiyənin də aktiv iştirakı ilə müxtəlif sosial, mədəni və iqtisadi layihələr reallaşdırılmış və hər il türk dövlətləri başçılarının zirvə görüşləri keçirilmişdir. Buna baxmayaraq, 3 oktyabr 2009-cu ildə Naxçıvanda keçirilən IX Zirvəyə qədər Türk Dünyasında inteqrasiya istiqamətində ciddi bir nəticə əldə edilmədiyini görürük. Lakin həmin zirvə görüşündə qəbul edilən Naxçıvan Müqaviləsi ilə Türk Şurasının yaradılması artıq türk dövlətlərinin inteqrasiyası istiqamətində atılmış ciddi bir addım olmuşdur. 12 noyabr 2021-ci ildə keçirilən VIII Türk Şurası İstanbul Zirvəsində təşkilat adını dəyişdirərək Türk Dövlətləri Təşkilatı olmuş və "Türk Dünyası 2040 Vizyonu[1]" adlı kifayət qədər əhatəli olan strateji sənədini qəbul etmişdir. 12 noyabr 2022-ci ildə IX Türk Dövlətləri Təşkilatı Zirvəsində "Səmərqənd Bəyannaməsi[2]" nin qəbul edilməsi isə təşkilatın 2040 vizyonunun reallaşdırılması istiqamətində atılacaq addımların aydınlaşması baxımından mühüm rol oynamışdır.

Dünyanın yeni düzən arayışında olduğu indiki dönəmdə türk dövlətlərinin birgə hərəkət etməsi üçün həm yaxşı şans yaranmış, həm də onların hər birinin milli maraqları baxımından böyük zərurətə çevrilmişdir. Hazırda zəngin təbii resurslara, məhsuldar torpaqlara və nisbətən yüksək insan kapitalına sahib olmaları, mühüm beynəlxalq və regional nəqliyyat və kommunikasiya şəbəkələrinin mərkəzində yerləşmələri, əsasən Türkiyə, Qazaxıstan və Özbəkistanda olmaqla nisbətən inkişaf etmiş sənaye sahələrinin formalaşması, ortaq tarix, dil,

[1] TDT (2021). "Türk Dünyası 2040 Vizyonu", https://turkicstates.org/assets/pdf/haberler/turk-dunyasi-2040-vizyonu-2396-98.pdf (Erişim: 24.04.2023)

[2] TDT (2022). "Türk Devletleri Teşkilatı Dokuzuncu Zirvesi Semerkant Bildirisi", https://turkicstates.org/assets/pdf/haberler/semerkant-bildirisi-2679-164.pdf (Erişim: 24.04.2023).

**DÜNYANIN YENİ DÜZƏN ARAYIŞINDA OLDUĞU İNDİKİ DÖNƏMDƏ TÜRK DÖVLƏTLƏRİNİN BİRGƏ HƏRƏKƏT ETMƏSİ ÜÇÜN HƏM YAXŞI ŞANS YARANMIŞ, HƏM DƏ ONLARIN HƏR BİRİNİN MİLLİ MARAQLARI BAXIMINDAN BÖYÜK ZƏRURƏTƏ ÇEVRİLMİŞDİR**

**12 NOYABR 2021-Cİ İLDƏ "TÜRK DÜNYASI 2040 VİZYONU" ADLI STRATEJI SƏNƏD QƏBUL EDİLMİŞDİR**

mədəniyyət və coğrafiyanı bölüşmələri türk dövlətlərinin sürətli inteqrasiyası üçün əlverişli zəmin yaradır. Bu gün müstəqil türk dövlətlərinin toplam göstəricilərinə baxdıqda, ərazilərinə görə dünya ölkələri arasında 7-ci, əhali sayına görə 9-cu, Ümumi Daxili Məhsullarına görə 16-cı, təbii qaz rezervlərinə görə Rusiya, İran və Qətərdən sonra 4-cü, neft istehsallarına görə 9-cu, qızıl və bor rezervlərinə görə 1-ci, uran rezervlərinə görə 2-ci, xrom ixracına görə isə 2-ci sırada[3] olduqları görünür. Son illər Şimali Kipr sahillərində tapılan karbohidrogen resurslarının gələcəkdə Türk Dünyasının enerji resurslarını əhəmiyyətli dərəcədə artıracağı da gözlənilir. Həmçinin, "Yeni İpək Yolu[4]" adlandırılan, "Qərbi Avropa, Çin, Orta Şərq və Hind alt qitəsi arasındakı bir quru nöqtəsindən digərinə, eyni zamanda avtomobil yolu, dəmir yolu və qaz, hidroelektrik və neft daşıma texnologiyaları ilə çatdırılmanı təmin edən bağlantıların məcmusu[5]" da əsasən türk dövlətlərinin nəzarəti altındadır. Lakin bütün bunlara baxmayaraq, Türk Dünyasının mövcud inteqrasiya potensialı demək olar ki, potensial olaraq qalmışdır.

Belə ki, bu gün türk dövlətləri arasında ticarət, kapital, iş qüvvəsi və texnologiya dövriyyəsinin onların ümumi dövriyyələrindəki payı çox aşağı səviyyələrdədir. Şübhəsiz ki, bunun obyektiv səbəbləri də vardır. Ancaq mövcud vəziyyətin dəyişdirilməsi və bu dövlətlər arasındakı iqtisadi

[3] Feyzullah Budak (2021). "Türk Birliği Nasıl Kurulur? Bir Model Önerisi", Ankara: Atayurt Yayınevi, 1. Baskı, Eylül, s. 111.

[4] Son dövrlər Yeni İpək Yolundan danışarkən, fiber-optik sistemlərlə bir-birinə bağlanan Rəqəmsal İpək Yolndan da bəhs edilir.

[5] Mustafa Yıldıran (2013). "İpekyolu Ekonomileri ve Türkiye için Alternatif Vizyon", İstanbul: Hiperlink Yayınları, 1. Baskı, Eylül, s. 32.




integrasiyanın dərinləşdirilməsi baxımından Türk Dövlətləri Təşkilatının "Türk Dünyası 2040 Vizyonu" və "Səmərqənd Bəyannaməsi"ndə müəyyən etdiyi iqtisadi əməkdaşlıq və inkişaf gündəmi də olduqca böyük əhəmiyyət daşıyır. Qeyd edilən gündəmin əsas istiqamətlərini aşağıdakı kimi ifadə etmək mümkündür:

- Ölkələrdə dayanıqlı, yaşıl, yenilikçi, ağıllı və inklüziv iqtisadi artım siyasətlərinin inkişaf etdirilməsi;
- İqtisadiyyatların mürəkkəblik səviyyəsinin artırılması, onların rəqəmsallaşma, bilik iqtisadiyyatı yönündə inkişafının təmin edilməsi;
- Birbaşa xarici investisiyalar üçün əlverişli, şəffaf və proqnozlaşdırıla bilən investisiya mühitinin yaradılması;
- İqtisadiyyatlarda maliyyə və investisiya alətlərinin inkişaf etdirilməsi;
- Yenilikçi, kiçik və orta, gənc, qadın və diaspora bizneslərinin dəstəklənməsi;
- İqtisadiyyatlar arasında mal, kapital, xidmət, texnologiya və insanların sərbəst hərəkətinin təmin edilməsi;
- Regiondaxili investisiyaları təşviq etmək məqsədilə müxtəlif iqtisadi regionlar arasında əməkdaşlığın gücləndirilməsi və Türk Dünyası İnvestisiya Fondunun yaradılması;
- Regiondaxili insan kapitalının, əmək bazarlarının inkişaf etdirilməsi və peşəkarların mobilliyinin artırılması;
- İqtisadiyyatlar arasında sənaye strukturlarının uyğunlaşdırılması, dəyər zəncirlərinin formalaşdırılması və məhsul bazarlarının inteqrasiyasının təmin edilməsi;
- İqtisadiyyatlar arasında inteqrasiya edilmiş Türk Enerji Bazarının formalaşdırılması;
- Xəzər geçidli Beynəlxalq Şərq-Qərb Orta Koridorunun və Rəqəmsal İpək Yolunun inkişaf etdirilməsi, Zəngəzur Koridorunun reallaşdırılmasının təmin edilməsi, əlaqəliliyin gücləndirilməsi məqsədilə digər nəqliyyat və logistika sistemlərinin təkmilləşdirilməsi və ölkələr arasında gömrük və tranzit prosedurlarının asanlaşdırılması;
- Üzv ölkələr arasında Türk Ali Təhsil Məkanının formalaşdırılması, ortaq təhsil və elm layihələrinin reallaşdırılması, texnologiya transfertinin gücləndirilməsi və kosmik texnologiyalarının inkişaf etdirilməsi;
- Beynəlxalq fondlardan və şəbəkələrdən böyük miqyaslı ortaq infrastruktur layihələrinin maliyyələşdirilməsində birgə istifadənin təmin edilməsi;
- Üzv ölkələr arasındakı ticarətdə milli pul vahidləri ilə ticarətin payının artırılması;
- Biznes dairələri arasında səmərəli qarşılıqlı əlaqənin təşviq edilməsi, strateji tərəfdaşlıqların qurulması, dövlət-özəl tərəfdaşlığı sahəsində birgə əməkdaşlığın edilməsi və biznes inkubator şəbəkəsinin genişləndirilməsi;
- Yeni ortaq turizm layihələri yolu ilə qədim İpək Yolu boyunca turizm marşrutlarının çeşidləndirilməsi;
- Turizm, kənd təsərrüfatı və qida təhlükəsizliyi, səhiyyə və müdafiə sənayesi kimi sahələrdə birgə əməkdaşlığın gücləndirilməsi;
- Azərbaycanın işğaldan azad edilmiş ərzilərində yenidənqurma və yenidən inteqrasiya fəaliyyətlərinə dəstək verilməsi;
- Qazaxıstanda Türk Dövlətləri Təşkilatı üzvləri üçün "TURANSEZ" xüsusi iqtisadi zonasının inkişaf etdirilməsi;
- Təbii fəlakətlər, o cümlədən də quraqlıqla birgə mübarizənin təmin edilməsi;
- Qlobal inkişaf hədəflərinə töhfələrin artırılması, dünyanın inkişafdan geri qalmış bölgələrinə dəstək məqsədilə birgə fəaliyyət göstərilməsi.

*Göründüyü kimi, Türk Dövlətləri Təşkilatının iqtisadi əməkdaşlıq və inkişaf gündəliyi kifayət qədər zəngin və əhatəlidir. Bütün bu fəaliyyətlərin reallaşdırılmasının əsas hədəflərindən biri isə "Türk Dünyası 2040 Vizyonu"nda da qeyd edildiyi kimi "üzv dövlətlərin, regional və qlobal iqtisadi stabilliyə töhfə verən Şərq və Qərb – Şimal və Cənub ticarət koridorlarını bir-birinə bağlayan güclü bir regional iqtisadi qrupa çevrilməsi"dir. Ancaq dünya təcrübəsi göstərir ki, ciddi bir regional iqtisadi qrupa çevrilmək üçün ən azından qrup üzvləri arasında azad ticarət bölgəsinin formalaşdırılması tələb olunur. Bu gün isə keçmiş SSRİ-nin tərkibində olan türk dövlətləri arasında azad ticarət sazişləri imzalanmış olsa da, bu dövlətlərin Türkiyə ilə bu tipli sazişləri mövcud deyildir. Son illər onların Türkiyə ilə preferensial ticarət sazişləri imzalamağa başladığı müşahidə olunur, ancaq bu sazişlər də kifayət qədər məhdud sayda məhsulları əhatə edir. Bu baxımdan, yekun olaraq, bu gün Türk Dövlətləri Təşkilatının güclü bir regional iqtisadi qrupa çevrilmək üçün gündəmini əsasən düzgün müəyyən etdiyi, ancaq bu istiqamətdə gediləsi uzun bir yolu olduğunu söyləmək mümkündür.*



**TÜRK DÖVLƏTLƏRİ TƏŞKİLATININ İQTİSADİ ƏMƏKDAŞLIQ VƏ İNKİŞAF GÜNDƏLİYİ KİFAYƏT QƏDƏR ZƏNGİN VƏ ƏHATƏLİDİR**

# TÜRK DÖVLƏTLƏRİ TƏŞKİLATININ
# **BAŞLICA İQTİSADİ GÖSTƏRİCİLƏRİ**




**ƏRAZİ**
(min km$^2$)
**4 823.5**

**ÜDM (2021)**
(milyard ABŞ dolları)
**1 383**

**ƏHALİ (2022)**
(milyon nəfər)
**173.8**

**TİCARƏT DÖVRİYYƏSİ (2021)**
(milyard ABŞ dolları)
**855.7**

**Mənbə**: Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi. https://ereforms.gov.az

**c.ü.f.d., dos. Qadir Bayram**
UNEC



# TÜRK DÜNYASININ TƏBİİ RESURS POTENSİALI

**Zəngin təbii ehtiyatlara malik olan müstəqil Türk dövlətləri (Türkiyə, Azərbaycan, Qazaxıstan, Özbəkistan, Türkmənistan və Qırğızıstan) böyük bir coğrafiyanı əhatə etməkdədir. Türk Dünyası zəngin yeraltı ehtiyatları ilə yanaşı, həm də əlverişli iqlimə, məhsuldar torpaqlara və böyük su ehtiyatlarına malikdir. Türk Dünyasının əhəmiyyətli hissəsini təşkil edən bu dövlətlər, eyni zamanda zəngin turizm-rekreasiya potensialı ilə seçilməkdədir.**

2023-cü ilin sonuna Türk dövlətləri əhalisinin 165 milyona çatması gözlənilir. 1,1 trilyon milli gəliri və 560 milyard dollarlıq xarici ticarət dövriyyəsi ilə Türk dövlətləri böyük iqtisadi potensiala malikdirlər.

*1,1 trilyon milli gəliri və 560 milyard dollarlıq xarici ticarət dövriyyəsi ilə Türk dövlətləri böyük iqtisadi potensiala malikdirlər*

Metal və qeyri-metal ehtiyatları **Türkiyənin** iqtisadi inkişafında ən mühüm yer tutan təbii sərvətlərdir. Dəmir, mis, xrom, qurğuşun, sink, bor mineralları və mərmər yataqları baxımından son dərəcə zəngin olan Türkiyədə bu ehtiyatların bir hissəsi ölkədə xammal kimi, qalan hissəsi isə ixrac sahəsində istifadə olunur. Dünya sənaye xammal ehtiyatlarının 2,5%-i, kömür ehtiyatlarının 1%-i; geotermal potensialın 0,8%-i və metal mineral ehtiyatlarının 0,4%-i Türkiyədədir. Qiymətli xammallar sırasına aid edilən bor ehtiyatlarının 72%-i Türkiyənin payına düşür. Planetdə hasil edilən və ticarət edilən 90 növ mədən və faydalı qazıntıdan 13-ü ölkədə iqtisadi miqyasda mövcud deyil, 22 növ faydalı qazıntı ehtiyatı isə kifayət qədərdir və ixrac edilə bilər.

Türkiyə zəngin torpaq ehtiyatlarına malikdir. Ölkənin 76,7 milyon hektar olan torpaq fondunun 20,5 milyon hektarı becərilən ərazilərdir. 34 milyon hektarı otlaqlar və biçənəklər, 10,5 milyon hektarı meşə altı torpaqlardır. Kənd təsərrüfatında istifadə edilməyən torpaqların 90%-i dik və meyilli ərazilərdir. Ən çox becərilən ərazi Konya vilayətində, ən az isə Rizedədir.

Ölkə ərazisinin 5,6 milyon hektarında (%7) zəif, 15,6 milyon hektarında (%20) orta, 28,3 milyon hektarında (%36) şiddətli və 17,4 milyon hektarında (%22) çox şiddətli eroziya müşahidə edilməkdədir. 4,2 milyon torpaq sahəsi duzlanma səbəbindən məhsuldarlıq problemi ilə qarşılaşmışdır. Bəzi bölgələrdə daşlıq ərazilərin çox olması torpaqdan istifadəni çətinləşdirir.

Quraqlıqla əlaqdar olaraq Türkiyə torpaqlarının 80% ərazisində dəmyə əkinçilik tətbiq edilir. Türkiyə zəngin turizm rekreasiya ehtiyatlarına sahibdir. Demək olar ki, 9 ay müddətində ölkədə günəşli havanın olması günəş enerjisi əldə etmək üçün böyük üstünlük təmin etməkdədir.

**Azərbaycan** zəngin karbohidrogen ehtiyatlarına sahibdir. Neft yataqları 1870-ci illərdən sənaye miqyasında istismar edilməkdədir. Ölkə 5 milyard tondan çox neft və 1,5 trilyon $m^3$-dən çox təbii qaz ehtiyatlarına malikdir. İndiki dövrdə neft və qazın 90%-dən çoxu Xəzər şelfindəki yataqlardan çıxarılmaqdadır. Xəzərin Azərbaycan sektorunda yeni böyük neft və qaz yataqlarının tapılması ehtimalı böyükdür.

Azərbaycan metal və qeyri-metallar baxımından da zəngindir. Naxçıvan, Qarabağ və Zaqatala-Balakən bölgələrində böyük polimetal filizi yataqları vardır. Filizçay yatağı qiymətli meşə massivlərinin altında yerləşdiyindən xüsusi istismar metodlarının tətbiqi zəruridir.

Azərbaycanda önəmli qızıl yataqları Gədəbəy, Laçın, Kəlbəcər, Zəngilan və Daşkəsən rayonları ərazisində yerləşir. Daşkəsəndəki dəmir və alüminium filizi yataqları böyük sənaye əhəmiyyətinə malikdir. Qazax rayonunda bentonit gil, Qarabağ və ətrafındakı bölgələrdə əhəngdaşı, gips, mərmər və qranit yataqları vardır. Neftçala və Salyan ərazisində bromlu sular əczaçılıq baxımından böyük əhəmiyyət kəsb edir. Naxçıvan və Kəlbəcərdəki mineral sular (Badamlı, Sirab, İstisu) zəngin tərkibə malikdir və dünyanın ən keyfiyyətli mineral su mənbələri ilə rəqabət qabiliyyətinə malikdir.

Azərbaycan iqlim ehtiyatları ilə zəngindir. Dünyadakı 13 iqlim tipindən 9-u ölkələrin sərhədlərində müşahidə olunur. Yağıntıların paylanması bərabər deyil və bölgələr arasında ciddi fərqlər var. Yağıntıların təxminən 80%-i sulamaya ehtiyac olmayan dövrdə müşahidə edilir. Ölkənin torpaq fondu 8641,5 min hektardır. Kənd təsərrüfatına yararlı torpaqlar 52,36% təşkil edir. Ölkənin təxminən 43%-i eroziyaya məruz qalıb.

Azərbaycan su ehtiyatları ilə zəngin ölkə deyil. Ölkə ərazisində cəmi 8359 çay və çay var ki, onlardan yalnız 171-nin uzunluğu 25 km-dən çoxdur. Mingəçevir, Şəmkir, Araz və Sərsəng ölkənin ən böyük su anbarlarıdır.

Azərbaycan günəş və külək enerjisindən istifadə edərək yeni alternativ enerji mənbələrini inkişaf etdirə və "yaşıl enerji" ölkələrindən birinə çevrilə bilər.

1980-ci illərin sonlarından başlayaraq, Ermənistanın Azərbaycan torpaqlarının 20%-ni işğal etməsindən sonra işğal altında qalan ərzilərdə ermənilər Azərbaycanın təbii sərvətlərini talamağa başlamış, qiymətli mədənləri istismar etmiş, meşələri qırmış və Zəngilandakı Bəsitçay çinar qoruğunu dağıtmışlar. Yalnız 2020-ci ildə Azərbaycan ordusu torpaqları işğaldan azad etdikdən sonra Azərbaycan öz təbii sərvətlərinə yenidən qovuşmuş, bölgədə yeni quruculuq işlərinə başlanmışdır.



**TÜRK DÜNYASI ZƏNGİN YERALTI EHTİYATLARI İLƏ YANAŞI, HƏM DƏ ƏLVERİŞLİ İQLİMƏ, MƏHSULDAR TORPAQLARA VƏ BÖYÜK SU EHTİYATLARINA MALİKDİR**

Azərbaycan Azıx mağarası və Qobustan kimi ən qədim insan məskənlərinə sahib ölkədir və bu unikal abidələr turizmi inkişaf etdirmək baxımından böyük əhəmiyyətə malikdir.

Azərbaycan zəngin turizm rekreasiya ehtiyatlarına malikdir və bu ehtiyatlardan səmərəli istifadə ölkəni dünyanın inkişaf etmiş turizm mərkəzlərindən birinə çevirə bilər.

**Qazaxıstanın** əsas iqtisadi sahələrindən biri neft hasilatıdır. Ən mühüm neft yataqları Kaşaqan, Tengiz, Qaraçaqanak, Uzendir. Bu yataqların bir çoxu yeni işlənir, lakin onların hamısı böyük potensiala malikdir və ölkə büdcəsinə böyük gəlir gətirir. Ölkənin əsas ehtiyatlarından sayılan mis filizləri Şərqi Qazaxıstan və Qaraqanda vilayətlərində yerləşir. Respublika mis hasilatı üzrə dünyada 7-ci yerdədir.

Ölkədə ümumilikdə on daş və qonur kömür yatağı istismar edilir. Əsas ehtiyatlar Qaraqanda və Ekibastuz hövzələrində yerləşir. Həmçinin



Pavlodar və Kostanay vilayətlərində də böyük yataqlar aşkar edilib. Qazaxıstanda hər il təxminən 100 milyon ton kömür hasil edilir. Dəmir filizi ehtiyatlarına görə dünyada ilk sıralarda olan Qazaxıstanın təxminən 16,6 milyard ton ehtiyatı vardır. Şimali Qazaxıstanın təbii ehtiyatları Kostanay vilayətində yerləşir. Qızıl filizinə Qazaxıstanın əksər bölgələrində rastlanmaqdadır. Əsas yataqlar Kalbinsk, Zhetygarinsky rayonlarında yerləşir. Ölkənin zəngin faydalı qazıntıları respublikaya xarici investorları cəlb edir və iqtisadiyyatın inkişafında mühüm rol oynayır. Ölkə həm də zəngin uran yataqlarına sahibdir.

Qazaxıstanda bir neçə böyük çay vardır. Bunlar İrtış, İşim, Ural, Sır-Dərya, Toboldur. Cənubi və Şərqi Qazaxıstanın əsas çayı İlidir. Göllər Respublika ərazisində qeyri-bərabər paylandığı üçün şimaldan cənuba doğru onların sayı azalır. Qazaxıstan Respublikası ərazisində göllərin sayı 48 minə çatır. Balxaş və Tengiz ölkənin mərkəzi hissəsində böyük göllər hesab olunur. Şərqdə Zaysan gölü, cənub-şərqdə isə Alakol yerləşir.

Təbii ehtiyatlara görə Qazaxıstan demək olar ki, dünyanın bütün ölkələri ilə rəqabət apara bilər. Kimyəvi elementlər cədvəlində olan 110 elementdən 99-na burada rastlanır. Son ekspert hesablamalarına görə, neft və qaz kondensat ehtiyatları 23 milyard tondan artıqdır və bunlardan təxminən 13-14 milyard tonu Xəzər dənizi və Manqistau yarımadasında cəmləşmişdir.

Qazaxıstan Respublikasının ümumi ərazisi 272,5 milyon hektardır. Torpaq fondunun 8,7 faizi (22,9 milyon hektar) meşə fondu torpaqlarıdır. Kənd təsərrüfatına yararlı torpaqlar 214,8 milyon hektar təşkil etməkdədir.

**Özbəkistanda** 2700-dən çox perspektivli filiz yataqları, müxtəlif faydalı qazıntılar, o cümlədən 100-ə yaxın mineral xammal aşkar edilmişdir ki, onların 60-dan çoxu artıq hasilatdadır. Təsdiq edilmiş ehtiyatları 970 milyard dollara bərabər olan 900-dən çox yataq kəşf edilib. Ümumi mineral ehtiyat potensialı 3,3 trilyon ABŞ dolları həcmində qiymətləndirilir.

Respublikanın dərinliyində nəhəng qaz və neft yataqları var. Ölkə ərazisinin təxminən 60%-i onların istehsalı üçün perspektivli hesab olunur. Təbii qazın böyük əraziləri Kaşkədərya və Buxara bölgələridir. Özbəkistanda hasil edilən təbii qazın demək olar ki, 3/4-ü Kaşkadərya vilayətinin payına düşür. Özbəkistan böyük kömür ehtiyatlarına malikdir və geoloji ehtiyatlarına görə Orta Asiyada ikinci yerdədir. Respublikada üç kömür yatağı aşkar edilmişdir - Daşkənd vilayətində Anqrev, Surxandərya rayonunda Şərqun və Baysun. Bu yataqlar arasında ən əhəmiyyətlisi qəhvəyi kömürün Anqren yatağıdır. Əsasən ucuz, açıq mədən üsulu ilə çıxarılır. Qızıl, uran, mis, kaolin, fosfor kimi faydalı qazıntıların ehtiyatları da çoxdur. Belə ki, qızıl ehtiyatlarına görə respublika dünyada dördüncü, hasilatına görə isə yeddinci yeri tutur. Qızıl hasilatı baxımından

Özbəkistan MDB ölkələri arasında ikinci (Rusiyadan sonra) və adambaşına düşən kəmiyyətə görə birinci yerdədir.

Özbəkistan ərazisində torpaq örtüyü olduqca müxtəlifdir. Səhralar və qumlu torpaqlar ölkə ərazisinin əksər hissəsini əhatə etməkdədir.

Özbəkistanın iqlimi kəskin kontinentaldır. Gündüz və gecə, yay və qış temperaturlarının kəskin amplitudaları ilə ifadə edilir. Təbiəti quraqdır, yağıntı azdır, havanın nisbi rütubəti aşağıdır. Yazda günün uzunluğu təxminən 15 saat, qışda isə ən azı doqquzdur.

Ölkənin əsas çayları Sırdərya və Amudəryadır. Ölkənin böyük hissəsi bu iki nəhəng çayın hövzələrində yerləşir. Hər iki çay Özbəkistanın hüdudlarından çox-çox uzaqlarda başlayır. Amudərya öz mənbəyini Tacikistanın yüksək dağlıq ərazilərində Vaxş və Pyanc çaylarının qovuşduğu yerdən götürür və sularını 1415 km məsafəyə aparır. Sırdərya Narın çayının Qaradəryaya qovuşmasından əmələ gəlir və uzunluğu 2137 km-dir.

Özbəkistan və Qazaxıstan ərazilərində yerləşən Aral gölünün quruması və sahəsinin yarısından çoxunu itirməsi bu iki ölkənin resurs potensialını azaltmaqdadır.

**Türkmənistanın** ən vacib təbii ehtiyatları neft və təbii qazdır. Əsas neft yataqları – Qoturtəpə, Barsa-Gəlməzdir. Ən mühüm qaz yataqları Şatlıq, Açak və Naipdir.

Kəşf edilmiş qaz ehtiyatlarına görə Türkmənistan MDB-də ikinci (Rusiyadan sonra) və dünyada dördüncü yerdədir. Türkmənistan alimlərinin hesablamalarına görə ölkədə proqnozlaşdırılan qaz ehtiyatları təqribən 23 trilyon m³-dir. Türkmən ekspertlər neft ehtiyatlarının 5 milyard tona yaxın olduğunu qeyd edirlər.

Türkmənistan iqlimi quraq olduğu üçün çay şəbəkəsi zəifdir. Yağıntıların çox az olması səbəbi ilə çaylar dayaz olur və tez-tez yazın sonuna qədər quruyur. Yeganə istisna Tacikistan və Əfqanıstan dağlarından başlayan və Türkmənistanın şimalından axan Amudərya çayıdır. Türkmənistan günəş enerjisinin istehsalı üçün də geniş imkanlara malikdir.

**Qırğızıstan** Respublikasının təbii resurs potensialı böyükdür. Əsas faydalı qazıntıları qızıl, civə, sürmə, qalay, volfram və kömürdür. Dəmir, titan, vanadium, alüminium, mis, molibden, berillium yataqları perspektivli hesab edilir. Tantal, kobalt, litium və rəngli daşların da sənaye əhəmiyyətli olduğunu istisna etmək olmaz.

**2023-CÜ İLİN SONUNA TÜRK DÖVLƏTLƏRİ ƏHALİSİNİN 165 MİLYONA ÇATMASI GÖZLƏNİLİR. 1,1 TRİLYON MİLLİ GƏLİRİ VƏ 560 MİLYARD DOLLARLIQ XARİCİ TİCARƏT DÖVRİYYƏSİ İLƏ TÜRK DÖVLƏTLƏRİ BÖYÜK İQTİSADİ POTENSİALA MALİKDİRLƏR**



Bu günə qədər Qırğızıstan ərazisində 2500-ə yaxın ilkin qızıl yatağı aşkar edilib. Onların böyük əksəriyyəti çox kiçikdir, sənaye baxımından maraq kəsb etmir. Ən böyük və məhsuldar qızıl yatağı Kumtordur. Jeroy və Makmal kimi yataqlar da perspektivli sayılır. Ölkədə sürmə, civə volfram və qalay kimi təbii ehtiyatlar da vardır.

Qırğızıstan dağlar ölkəsidir. Ölkənin sərhədlərinin 90%-nin 1500 m-dən, üçdə birinin isə 3000 m-dən yuxarı olduğu təxmin edilir. Qırğızıstan Mərkəzi Asiyada yeganə ölkədir ki, onun su ehtiyatları demək olar ki, tamamilə öz ərazisində formalaşır və bu, onun hidroloji xüsusiyyəti və üstünlükləridir. Respublika əhəmiyyətli su və hidroenergetika ehtiyatlarına malikdir və bu onun əsas sərvətlərindən biridir.

Çayların su enerji potensialı təqribən 174 milyard kilovatsaata, gücü isə 19,8 milyon kilovata yaxındır. Böyük həcmdə su ehtiyatları sayı 6000-dən çox olan buzlaqlarda cəmləşmişdir. Qırğızıstan zəngin turizm rekreasiya ehtiyatlarına malikdir. Dağ çayları və gölləri, buzlaqlar, şəlalələr və yaylaqlar turizmin inkişafı üçün şərait yaradır. Bu ölkədə Avropanın ən yüksək dağı olan Monblandan yüksək 14 dağ zirvəsi vardır.

Yuxarıda qeyd edildiyi kimi, Türk dövlətləri zəngin təbii resurs potensialına sahibdir və bu ehtiyatların səmərəli istifadəsində əməkdaşlıq, qarşılıqlı investisiyalar, yeni texnologiyaların tətbiqi əhəmiyyətli rol oynaya bilər.



**i.f.d. Cəbrayıl Vəliyev**
UNEC, Redaktor



# TÜRK DÖVLƏTLƏRİNİN İNNOVASİYA POTENSİALI

İnnovasiya anlayışı geniş anlayış olub mikro və makro səviyyədə yanaşma tələb edir. Bu gün sürətlə dəyişən rəqabət mühitində sağ qalmaq üçün şirkətlər məhsullarını, xidmətlərini və istehsal üsullarını daim dəyişməli və yeniləməlidir. Bu dəyişiklik və yeniləşmə prosesi "innovasiya" adlanır. Biznes səviyyəsində baş verən innovasiya prosesinin davamlılığının təmin edilməsi və effektivliliyinin artırılması üçün təkmil innovasiya ekosisteminin formalaşması tələb olunur və bu artıq makro səviyyədə yanaşma tələb etməkdədir. Effektiv və davamlı təkmilləşdirilən innovasiya ekosisteminin formalaşdırılmasında ölkələrin innovasiya siyasətləri əhəmiyyətli rol oynayır. Ölkələrin innovasiya siyasətlərinin müəyyənləşdirilməsi üçün ölkənin bu sahədə mövcud vəziyyətinin qiymətləndirilməsi vacibdir. Bu sahədə müəyyən elmi və institusional tədqiqatların, hesabatların tədqiq edilməsi, düzgün mövcud vəziyyət qiymətləndirilmənin həyata keçirilməsi və ortaya çıxan əskiklərin təkmilləşdirilməsi məsələləri innovasiya siyasətlərində nəzərə alınması vacib olan əsas məsələlər olmalıdır. Bu istiqamətdə bir sıra qurumlar müxtəlif hesabatlar hazırlayır və göstəricilər üzrə hesablanmış indekslər irəli sürürlər. Bu istiqamətdə ən mötəbər hesabat və indekslərdən biri Ümumdünya Əqli Mülkiyyət Təşkilatı (ÜƏMT) tərəfindən dərc olunan Qlobal İnnovasiya İndeksidir. Bu indeksdə ölkələrin innovasiya performansı "İnstitutlar", "İnsan Kapitalı və Tədqiqatlar", "İnfrastruktur", "Bazarların Çoxşaxəliliyi", "Biznesin Çoxyönlülüyü", "Bilik və Texnologiya Nəticələri" və "Kreativ nəticələr"dən ibarət 7 əsas komponent üzrə 81 müxtəlif göstərici ilə hesablanır. "Qlobal İnnovasiya İndeksi-2022" hesabatına dünya əhalisinin 93,5%-ni və dünya ÜDM-nin 97,4%-ni təmsil edən 132 ölkə daxildir. Qlobal İnnovasiya İndeksi hər biri əsas komponentlər ətrafında qurulmuş iki alt indeksə (İnnovasiya Girişi Alt İndeksi və İnnovasiya Çıxışı Alt İndeksi) əsaslanır.

*Azərbaycanda 2030-cu il üçün Strateji Yol Xəritəsində Rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanının yaradılması əsas inkişaf istiqamətlərindən biri olaraq qəbul edilmişdir*

**1. İnnovasiya Girişi Alt İndeksi:** İnstitutlar, İnsan Kapitalı və Tədqiqat, İnfrastruktur, Bazarların Çoxşaxəliliyi, Biznesin Çoxyönlülüyü komponentlərindən ibarətdir. Bu beş giriş komponenti milli iqtisadiyyatların innovasiya fəaliyyətini təmin edən amilləri əhatə edir.

**2. İnnovasiya Nəticələri Alt İndeksi:** Bilik və Texnologiya Nəticələri və Kreativ Nəticələr komponentlərindən ibarətdir. İnnovasiya nəticələri iqtisadiyyatda innovativ fəaliyyətin nəticələrinə müraciət edir. Qlobal İnnovasiya İndeksi balı giriş və çıxış alt indekslərinin orta hesablanması ilə hesablanır.

Cədvəl 1-də Türk Dövlətlərinin son yayımlanan hesabat olan 2022-ci il üzrə "Qlobal İnnovasiya İndeksi" haqqında nəticələr verilmişdir. Nəticələr müvafiq göstəricilər üzrə reytinq sırası ilə göstərilmişdir. Cədvələ TDT-dəki müşahidəçi ölkə statusunda olan Macarıstan da daxil edilmişdir.

Cədvəldən gördüyümüz kimi "Qlobal İnnovasiya İndeksi-2022" göstəricisi ən yaxşı ölkə kimi Türk Dövlətləri Təşkilatında müşahidəçi ölkə statusunda olan Macarıstana aiddir. Belə ki, 132 ölkə arasında ümumi reytinq sırası 34-cü olmuşdur. Qeyd etmək istəyirik ki, digər müşahidəçi statusunda olan Türkmənistan bu indeksdə yer almamaqdadır.

İndeksdə yer alan İnnovasiya Girişi amillərindəki inkişaf göstəriciləri daha yüksək İnnovasiya Çıxışına səbəb olmaqdadır. Yəni İnstitutlar, İnsan kapitalı və Tədqiqatlar, İnfrastruktur, Bazarın Çoxşaxəliliyi və Biznesin Çoxyönlülüyü əsas göstəricilərin subgöstəriciləri üzərində çalışmaq və bunları təkmilləşdirərək inkişaf etdirmək, əsas göstəriciləri yüsəltməklə birgə daha yüksək Bilik və Texnologiya nəticələrinə, eləcə də Kreativ nəticələrə dolayı olaraq stimul yaradır.

Ölkələr üzrə bu sahədə inkişaf dəyişikliyi həyata keçirən ölkə kimi isə Türkiyəni göstərmək mümkündür. Türkiyə son iki ildə Qlobal İnnovasiya İndeksi hesabatında 14 pillə irəliləyiş göstərmişdir. Belə ki, 2020-ci ildə 51-ci sırada olan Türkiyə 2021-ci il indeksinə görə 41, 2022-ci ildə isə 37-ci sıraya yüksəlmişdir. Xüsusilə Türkiyə İnnovasiya Girişi amilləri üzrə 49-cu yerdə mövqelənsə də, İnnovasiya Çıxışı amillərinin ümumi nəticəsi üzrə 34-cü sırada yerləşmişdir və bu mövqenin əldə olunmasına səbəb Kreativ nəticələr üzrə yüksək irəliləyişə sahib olmasıdır. Belə ki, bu subgöstərici üzrə Türkiyə 14-cü sırada olmaqla bu sahədə nümunə

**CƏDVƏL 1. TÜRK DÖVLƏTLƏRİNİN "QLOBAL İNNOVASİYA İNDEKSİ-2022" ÜZRƏ ƏSAS GÖSTƏRİCİLƏRİ:**

| | Azərbaycan | Qazaxıstan | Qırğızıstan | Özbəkistan | Türkiyə | Macarıstan |
|---|---|---|---|---|---|---|
| Ümumi reytinq sırası | 93 | 83 | 94 | 82 | 37 | 34 |
| *Giriş amilləri üzrə sırası* | 79 | 65 | 85 | 68 | 49 | 36 |
| *Çıxan nəticələr üzrə sırası* | 110 | 97 | 108 | 91 | 33 | 34 |
| İnstitutlar | 46 | 52 | 113 | 63 | 101 | 48 |
| İnsan kapıtalı və Tədqiqat | 87 | 60 | 63 | 65 | 41 | 37 |
| İnfrastruktur | 90 | 58 | 86 | 74 | 48 | 35 |
| Bazarın çoxşaxəliliyi | 80 | 90 | 51 | 60 | 37 | 67 |
| Biznesin çoxyönlülüyü | 77 | 68 | 107 | 74 | 47 | 30 |
| Bilik və Texnologiya nəticələri | 117 | 81 | 92 | 80 | 47 | 23 |
| Kreativ nəticələr | 105 | 118 | 121 | 102 | 15 | 46 |

***Mənbə:*** *"Qlobal İnnovasiya İndeksi-2022" göstəriciləri istifadə edilərək müəllif tərəfindən hazırlanmışdır.*

**İNSTİTUTLAR, İNSAN KAPİTALI VƏ TƏDQİQATLAR, İNFRASTRUKTUR, BAZARIN ÇOXŞAXƏLİLİYİ VƏ BİZNESİN ÇOXYÖNLÜLÜYÜ ƏSAS GÖSTƏRİCİLƏRİN SUBGÖSTƏRİCİLƏRİ ÜZƏRİNDƏ ÇALIŞMAQ VƏ BUNLARI TƏKMİLLƏŞDİRƏRƏK İNKİŞAF ETDİRMƏK, ƏSAS GÖSTƏRİCİLƏRİ YÜSƏLTMƏKLƏ BİRGƏ DAHA YÜKSƏK BİLİK VƏ TEXNOLOGİYA NƏTİCƏLƏRİNƏ VƏ KREATİV NƏTİCƏLƏRƏ DOLAYI OLARAQ STİMUL YARADIR**

götürüləcək ölkədir. Digər ölkələrdə isə durğunluq mövcuddur. Macarıstan isə digər İnnovasiya Çıxışı subgöstəricisi olan Bilik və Texnologiya nəticələri üzrə 24-cü sıradadır. Bu istiqamətdə isə digər Türk dövlətlərinin Macarıstanın təcrübəsini öyrənmələrində fayda vardır.

İnnovasiya potensialının düzgün qiymətləndirilməsi və istifadəsi üçün innovasiya ekosisteminin bütün amillərini əhatə edən bu dörd istiqamətdə davamlı inkişaf göstəricilərinə nail olmaq vacibdir. Xüsusilə aşağı göstəricilərə malik istiqamətlərdə real fəaliyyət proqramlarının hazırlanması və həyata keçirilməsi lazımdır.

**Türk Dövlətlərinin innovasiya potensialının inkişaf etdirilməsi istiqamətindəki mövcud siyasət və fəaliyyətləri haqqında aşağıdakı məlumatları qeyd edə bilərik:**
Azərbaycanda innovasiya siyasəti dövlətin davamlı inkişaf siyasətinin tərkib hissəsi kimi qəbul edilir, Strateji Yol Xəritələrində və İnkişaf proqramında əsas inkişaf sahələrindən biri kimi yer alır. Belə ki, 2030-cu il üçün Strateji Yol Xəritəsində Rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanının yaradılması əsas inkişaf istiqamətlərindən biri olaraq qəbul edilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 11 oktyabr 2021-ci il tarixli Fərmanına əsasən Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində İnnovasiya və Rəqəmsal İnkişaf

Agentliyi yaradılmışdır. İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi ölkədə rəqəmsal transformasiya sahəsində fəaliyyətin təşkili, yerli innovasiya mühitinin formalaşdırılması, ekosistemin gücləndirilməsinə xidmət edir. Nüvə elmi və texnologiyalarının sınaq təcrübələrini aparmaq, fiziki və hüquqi şəxslərə innovasiya yönümlü elmi-tədqiqatlarına və innovativ layihələrinə (Startaplar) dəstək vermək, müasir texnologiyaların və texnoloji həllərin əldə olunmasında yardım göstərərək ölkədə İKT sahəsində əlçatan təhsil və karyera imkanlarını təmin etmək, rəqəmsal hökumət və rəqəmsal cəmiyyətin qurulması və təşkilini həyata keçirmək agentliyin prioritet istiqamətləri kimi qəbul edilmişdir.

Qazaxıstanda 2015-2024-cü illəri əhatə edən Dünya Bankının “Qazaxıstan: Məhsuldar İnnovasiyaların Təşviqi” layihəsi həyata keçirilir. Layihənin ümumi maliyyəti 81 milyon ABŞ dollarıdır. Qazaxıstan üçün Məhsuldar İnnovasiyaların Təşviqi Layihəsi yüksək keyfiyyətli, milli əhəmiyyətli tədqiqatları və texnologiyaların kommersiyalaşdırılmasını təşviq etməkdir.

Özbəkistan son illərdə özəl sektorun inkişafına təkan vermək, rəqabət qabiliyyətini artırmaq, ticarət və sərmayələrə, o cümlədən Ümumdünya Ticarət Təşkilatına daxil olmaq üçün danışıqlara açılmağa yönəlmiş bir sıra islahatlara başlayıb. Bu kontekstdə Hökumət, həmçinin Birləşmiş Millətlər Təşkilatının 2030 Gündəliyi və Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM) mərkəzində duran innovasiyaları siyasi gündəliyə daşımış, İnnovativ İnkişaf Nazirliyini yaratmış və yeni qanunvericilik aktları qəbul etmişdir. 19 aprel 2022-ci il tarixində isə Özbəkistan hökuməti YUNESKO və İslam İnkişaf Bankının (İİB) dəstəklədiyi Özbəkistanın yeni Milli Elm, Texnologiya və İnnovasiya Siyasətini (2022-2030) təqdim etmişdir. Eyni zamanda, 2021-2026-cı illəri əhatə edən Dünya Bankının dəstəyi ilə Özbəkistanın Milli İnnovasiya Sisteminin Modernləşdirilməsi Layihəsi həyata keçirilməyə başlanılmışdır. Layihənin ümumi maliyyəti 50 milyon ABŞ dollarıdır. Özbəkistan üçün Özbəkistan Milli İnnovasiya Sisteminin (MUNIS) Modernləşdirilməsi Layihəsinin məqsədi bazar yönümlü Milli İnnovasiya Sisteminin inkişafına imkan yaratmaqdır. Həyata keçiriləcək bu layihələrlə Özbəkistan iqtisadi inkişafın aparıcı qüvvəsi kimi innovasiyaları inkişaf etdirməyi və 2030-cu ilə qədər Qlobal İnnovasiya İndeksində ilk 50 ölkəyə qoşulmağı hədəfləyir.

Türkmənistanda Birləşmiş Millətlər Təşkilatının Avropa İqtisadi Komissiyası (UNECE) 2022-ci ilin dekabr ayında “Türkmənistanın Davamlı İnkişafı üçün Ticarət və İnnovasiya” layihəsini təqdim etmişdir. Təqdim olunan layihə hökumətə və beynəlxalq maraqlı tərəflərə innovasiya idarəçiliyini təkmilləşdirmək üçün ölkəyə dəstək olmaq məqsədi daşıyır.

İnnovasiyanın inkişafı istiqamətində son iki ildə böyük irəliləyiş göstərən Türkiyədə bu istiqamətdə real fəaliyyətlər planı hazırlanmaqda və həyata keçirilməkdədir. Türkiyənin Sənaye və Ticarət Nazirliyinin koordinasiyasında və Türkiyə İxracatçılar Məclisi əsas olmaqla bir sıra qurum və quruluşların birlikdə hazırladığı “Türkiyə Qlobal İnnovasiya İndeksi, Fəaliyyət Planı və Strategiyası” mövcuddur və bu fəaliyyət planında real hədəf və məqsədlər qoyulmaqdadır.

Qırğızıstanda Dünya Bankı tərəfindən 2023-cü ildə başladılması nəzərdə tutulan “Ali Təhsilin Keyfiyyəti və İnnovasiya Layihəsi”nin həyata keçirilməsi planlaşdırılmaqdadır. Layihənin ümumi məbləği isə 25 milyon ABŞ dollarıdır. Layihənin məqsədi tədqiqatların keyfiyyətini artırmaq və ali təhsil proqramlarının keyfiyyətini və əmək bazarına uyğunlaşdırılmasını gücləndirməkdir.

***Nəticə olaraq Türk dövlətlərinin innovasiyanın inkişafı istiqamətində strategiya və fəaliyyət planlarını bu istiqamətdə əhəmiyyətli göstəricilərə malik Macarıstan və Türkiyə ilə bençmarkinq etməli, Dünya Bankının və digər qurumların bu istiqamətdə dəstək layihələrinin uğurla həyata keçirilməsinə çalışmalıdır. Eyni zamanda, Türkiyə nümunəsində olduğu kimi hər il real fəaliyyət planları və strategiyalar hazırlanmalı, Qlobal İnnovasiya İndeksindəki göstəricilərinin yaxşılaşdırılması istiqamətində real hədəf və məqsədlər təyin olunmalı və bu istiqamətdə effektiv fəaliyyətlər həyata keçirilməlidir.***

# TÜRK DÖVLƏTLƏRİ TƏŞKİLATININ
# QLOBAL İQTİSADİYYATDA YERİ

## ƏRAZİ




## ÜDM (2021)




## ƏHALİ (2022)




## TİCARƏT DÖVRİYYƏSİ (2021)




**Mənbə**: Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi. https://ereforms.gov.az

**i.e.d., professor Saleh Məmmədov**
UNEC



# TÜRK DÜNYASI PUL COĞRAFİYASI DİSBALANSI

**Bu gün dünyada hadisə və proseslər çox sürətlə inkişaf edir, cəmiyyətdə dövlətlərimizin mövqeyini möhkəmlətmək üçün analoji tədbirlərin görülməsi zərurəti yaranır. Qloballaşma və liberallaşma dünya ölkələrinin qruplaşması, bəzi hallarda birləşməsi, digər hallarda isə ittifaqlarda mərkəzləşdirilməsi zərurətini yaradır. Belə olan hallarda yalnız və neytral qalmaq heç bir ölkəyə sərbəst fəaliyyət göstərmək üçün şans vermir. ABŞ yaranarkən C.Vaşinqton bütün ştatları bir federal dövlət ətrafında birləşdirmək ideyasını əsaslandıraraq qeyd etmişdir ki, biz bu gün bu ştatları birləşdirərək gələcəyə bir ümid yaradırıq, əmin ola bilərsiniz ki, zaman gələcək insan cəmiyyəti Avropa ştatları birliyinin qurulmasının şahidi olacaq. Doğrudan da, tarix bunun şahidi oldu, Avropa ittifaqı quruldu və hal-hazırda uğurla fəaliyyətini davam etdirir. İttifaqlaşma digər ölkələr üzrə davam edir. Təkləndikcə problemlər və risklər də artır. Hər bir cəmiyyətin gələcəyini sakinlərin psixologiyası müəyyənləşdirir. Çünki cəmiyyətdə baş verən bütün hadisə və proseslər insanlar tərəfindən tənzimlənir. İnsanlar da bunların istiqamətləndirilməsini öz psixologiyasına uyğunlaşdırır. XXI əsr insan psixologiyası daha çox yaxınlaşmaya və birləşməyə meyllidir. İnsanlar artıq sərhəd-gömrük və viza rejimlərindən bezmiş, hər kəs dünyanı özünə vətən görmək və sərbəst dolaşmaq hüququnu qazanmaq istəyir. Digər tərəfdən, 4-cü sənaye inqilabı, virtuallaşma və kütləvi rəqəmsallaşma fiziki sərhədləri aradan qaldırmışdır.**

> *Türk dövlətlərinin ittifaqlaşması və birliyə doğru meyllənməsini pul sisteminin tənzimlənməsi və beynəlxalq pul coğrafiyasında disbalansın aradan qaldırılması ilə başlamaq daha məqsədəuyğun olardı*

Ölkələrimizin yüksək sürətlə inkişafını təmin etmək üçün ciddi tədbirlər almaq lazımdır. Yüksək inkişaf isə birinci növbədə böyük investisiyalar və uyğun olaraq maliyyə resursları tələb edir. Dünya düzənində paradoksal vəziyyət alınıb: Sovet sistemi dağıldıqdan sonra mal bazarında qiymət və resursların bölgüsündə tarazlıq yaransa da, maliyyə və pul bazarlarında çox böyük qeyri-tarazlıq davam etməkdədir. Əmtəə bazarlarında qiymətlər 20-30% amplitutunda fərqlənirsə, maliyyə və pul bazarlarında - (faizlər) 5-10 dəfə fərqlənir.

Əsas maliyyə və pul resursları inkişaf etmiş Qərb dünyasında cəmləşmişdir, inkişaf etməkdə olan ölkələrimiz isə maliyyə qıtlığında boğulur. Ümumiyyətlə, dünya miqyasinda pul cografiyasında ciddi haqsız natarazlıq var. Öz dövlətlərimizin, özümüzün pulu maliyyə



sisteminin düzgün qurulmaması səbəbindən Avropada, Amerikada saxlanılır. Məsələn, bütün sistem menecmenti Qərb ölkələrinə verilir, bütün rezervlər, valyuta rezervləri, bütün pullar isə ya dollar, ya da avro olaraq (və ya digər möhkəm valyutalarda) saxlanılır.

Cədvəl 1-də göstərilən məlumatları təsdiq edir ki, bütün inkişaf etmiş ölkələr böyük miqdarda borc hesabına bu səviyyəyə gəlib çatmışdır. Bu ölkələrin hamısında borcların, xüsusilə xarici borcların ÜDM-də payı olduqca yüksəkdir.

Əksinə, Türk dövlətləri kimi zəif inkişaf edən və ya üçüncü qrup ölkələrdə xarici borcların payı olduqca aşağıdır. Bu ölkələr öz zəngin ehtiyatlarını ölkələrində inkişaf mənbəyinə çevirə bilmir, bütün əlavə vəsaitlərini isə başqa ölkələrdə saxlayırlar. Pul kimin əlindədirsə, ixtiyar sahibi odur, pul hansı ölkənin ərazisində yerləşirsə, o ölkənin də inkişafına fayda verir. Nə qədər ki, pulun coğrafiyası sistemi dəyişməyib, belə haqsızlıqlar davam edəcək. İnkişaf etmiş Qərb ölkələrində hazırda 40 trilyon dollara yaxın sərbəst pul vəsaitləri var və bu vəsaitlərin formalaşmasında ölkələrimizin ciddi rolu var. Valyuta ehtiyatlarının əsas həcmi Qərb ölkələrində saxlanılır. Halbuki, ölkə içində maliyyə vəsaitlərinə böyük ehtiyac var. Pul qıtlığı bazarda aktivliyin söndürülməsi, işsizliyin yüksəldilməsi, istehsalın azalması deməkdir. Bunlar əsrlərlə isbata ehtiyacı olmayan aksioma, qanunauyğunluqdur. Bu hadisə və proseslər inkişaf etməkdə olan ölkələrin hamısına, eləcə də altı müstəqil Türk dövlətlərinə aiddir.

Dünya iqtisadiyyatında pul amilinin birtərəfli bir səmtdə toplanması prosesi davam edir və daha da güclənməyə doğru gedir. Dünyanın bank aktivlərinin 90%-i inkişaf etmiş ölkələrdə və buna doğru gedən

**ÖLKƏLƏRİMİZİN YÜKSƏK SÜRƏTLƏ İNKİŞAFINI TƏMİN ETMƏK ÜÇÜN BİRİNCİ NÖVBƏDƏ BÖYÜK İNVESTİSİYALAR VƏ UYĞUN OLARAQ MALİYYƏ RESURSLARI TƏLƏB OLUNUR**



Çində mərkəzləşdirilmişdir.

Top 100 bank siyahısına bir dənə də olsa, Türk dövlətləri bankı düşməmişdir. Sərbəst vəsaitlərin də 90%-i inkişaf etmiş ölkələrin payına düşür. Avropada və Şimali Amerikada toplam 40 trilyon dollar sərbəst pul vəsaiti toplanmışdır. Azərbaycanın isə toplam kredit resurslarının məbləği 110 milyard dollara yaxındır, amma istifadə səviyyəsi 10%-ə çatmır. 2022-ci ildə kreditlərin həcmi 20 milyard manatı keçməmişdir. Ölkənin öz şəxsi resurslarının 92%-i isə başqa ölkələrdə yerləşdirilmişdir.

Bütün Türk Dövlətləri isə xaricdən borc cəlb etmək, pul bolluğu yaratmaqda, ümumiyyətlə, finansallaşma sisteminin qurulmasında çox geri qalır və uyğun olaraq, heç biri əsas ümumiləşdirici inkişaf göstəricisi olan adambaşına düşən ÜDM həcminə görə orta dünya göstəricisinə çata bilməmişdir. Əgər adambaşına düşən ÜDM dünya üzrə orta hesabla 12284 dollar olmuşdursa, Qazaxıstan üzrə 10041 dollar, Türkiyə üzrə 9586 dollar, Azərbaycan üzrə 7700 dollar təşkil etmişdir.

Bunu nəzərə alaraq, Türk dövlətlərinin ittifaqlaşması və birliyə doğru meyllənməsini pul sisteminin tənzimlənməsi və beynəlxalq pul coğrafiyasında disbalansın aradan qaldırılması ilə başlamaq daha məqsədəuyğun olardı. Türk dövlətlərinin valyuta ehtiyatları ittifaqının qurulması - zənn edirəm ki, 8 il bundan əvvəl belə bir ittifaq qurulsaydı, investisiyaların artımında, faizlərin düşürülməsində, real pul bolluğunun yaradılmasında və inflyasiyanın qarşısının alınmasında ciddi nailiyyətlər əldə etmək olardı. Belə bir ittifaqın yaradılması aşağıdakı qaydada mümkün olardı:

- İlkin olaraq 4 ölkənin (Azərbaycan, Qazaxıstan, Türkiyə, Türkmənistan) iştirakı ilə Valyuta ehtiyatları İttifaqının yaranması haqqında beynəlxalq konvensiyanı hazırlamaq və onu imzalamaq. Konvensiya bütün ölkələrə açıq ola bilər və tələbləri qəbul edən hər hansı başqa ölkə üzv ola bilər;

- Üzv ölkələr valyuta rezervlərinin bir qismini qarşılıqlı olaraq digər üzv ölkələrin mərkəzi banklarında saxlaya bilər (eyni məbləği həmin ölkədən öz mərkəzi bankında saxlamaq şərtilə);

- Həmin vəsaitlərin istifadəsi yalnız investisiyaların kreditləşməsinə və ciddi xəzinə nəzarətində həyata keçirilə bilər. İstifadə təlimatları da yalnız konvensiyanın tələblərinə uyğun hazırlanmalıdır.

CƏDVƏL 1. BEYNƏLXALQ PUL COĞRAFİYASININ XARAKTERİSTİKASI

| N | Ölkələr | Xarici borclar, milyard USD | Xarici borcların ÜDM-də payı % | Valyuta ehtiyatları, milyard USD | Mərkəz banklarının uçot dərəcəsi |
|---|---|---|---|---|---|
| **İnkişaf etmiş ölkələr və ya inkişaf etməkdə olan ölkələr** | | | | | |
| 1. | ABŞ | 24351 | 104 | 243 | 4,75 |
| 2 | Avropa Birliyi | 16583 | 93 | 741 | 3,5 |
| 3 | Böyük Britaniya | 7620 | 243 | 183 | 4 |
| 5 | Almaniya | 6327 | 150 | 278 | 3,5 |
| 6 | Niderland | 3635 | 359 | 54 | 2,68 |
| 7 | Yaponiya | 5665 | 111 | 1226 | -0,1 |
| 8 | Lüksemburq | 3730 | 4337 | 1191 | 2,89 |
| 9 | İsveçrə | 2171 | 268 | 851 | 1 |
| 10 | Sinqapur | 2514 | 663 | 396 | 3,79 |
| 11 | Gürcüstan | 22 | 116 | 4,8 | 11 |
| 12 | Litva | 45 | 68 | 03.avq | 2,88 |
| | Dünya (orta) | 76560 | 79 | 12358 | |
| 1 | Azərbaycan | 14,6 | 19 | 58,4 | 8,5 |
| 2. | Türkiyə | 443 | 54 | 108 | 8,5 |
| 3 | Özbəkistan | 17 | 25 | 36 | 15 |
| 4 | Qazaxıstan | 161 | 82 | 36 | 16,75 |
| 5 | Türkmənistan | 4,8 | 11 | 21 | na |
| 6 | Qırğızıstan | 9,2 | 102 | 3 | 13 |
| **İkinci və üçüncü qrup ölkələr** | | | | | |
| 1 | Haiti | 2,8 | 13 | 2,3 | 17 |
| 2 | İran | 08.avq | 2 | 86 | 18 |
| 3 | Fidji | 1 | 20 | 01.yan | 0,25 |
| 4 | Əlcəzair | 2,9 | 2 | 98 | 3 |
| 5 | Rusiya Federasiyası | 381 | 21 | 574 | 7,5 |
| 6 | Uqanda | 11 | 27 | 03.iyl | 10 |
| 7 | Braziliya | 690 | 42 | 331 | 13,75 |

**Mənbə:** tradingeconomics.com, data.worldbank.org, wikipedia.org, statisticstimes.com, cbrates.com, theglobaleconomy.com

- Valyuta ehtiyatları ittifaqının yaradılması ilə yanaşı, üzv ölkələrin mərkəz banklarının uçot dərəcəsinin, emissiya həcminin, inflyasiya səviyyəsinin bütün üzv ölkələr üçün məhdudlaşdırıcı parametrlərinin hər il razılaşdırılması proseduru da razılaşdırılmalıdır.

***Belə bir tədbir nə verə bilər?***

- Dünya maliyyə bazarlarında vəziyyət tam dəyişə və "maliyyə məhsullarının" qiymətlərini bərabərləşdirə bilər. Azərbaycanın (eləcə də digər üzv ölkələrin) kredit ehtiyatlarının həcminin, artmasına gətirib çıxaracaq ki, bu da kredit faizlərinin bir neçə dəfə azalması deməkdir;

- Ölkələrimizin hər hansı ciddi bir böhranı risksiz aradan qaldırmasına və sürətli inkişafa nail olmasına gətirib çıxara bilər. Məsələn, Azərbaycan bazarına vəsait daxil olması ciddi genişlənməyə və artıma səbəb olacaq.

- Bu, həm də valyuta və qızıl rezervlərinin saxlanılması zamanı meydana çıxan risklərin şaxələnmə yolu ilə, minimuma endirilməsinə səbəb olacaq, məhdudiyyətsiz inflyasiya, nəzarətsiz emisssiya və süni devalvasiya riskləri aradan qaldırılacaq;

- Üzv ölkələrdə maliyyə bazarlarının ciddi inkişafına, bank aktivlərinin artmasına, finansallaşma indeksinin yüksəlməsinə, ÜDM-də onların payının tədricən Qərb ölkələri səviyyəsinə çatmasına və bütövlükdə maliyyə resurslarının Qərb ölkələrindən inkişaf etməkdə olan ölkələrə axışına səbəb olacaq.

Belə olan halda, valyuta ehtiyatları həm ciddi rezerv rolunu, həm də üzv ölkələrdə sürətli inkişaf üçün investisiya mənbəyi rolunu oynaya bilər.

# UNEC
## UĞURLU YOLUN BAŞLANĞICI

www.unec.edu.az



UNEC

AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ

**4 DİLDƏ TƏHSİL VERƏN UNİVERSİTET**

Müasir təhsil standartları əsasında dünyanın aparıcı universitetlərinin təcrübəsindən yararlanaraq, innovativ və rəqabətqabiliyyətli mütəxəssislər hazırlayırıq. İqtisadiyyat və idarəetmə ixtisasları üzrə Azərbaycanın ən böyük universitetində təhsil almağın üstünlüklərindən faydalana bilər, ölkənin əksər nüfuzlu iqtisadçı alim və mütəxəssisləri ilə birgə karyera yönümlü müasir tədris və tədqiqat imkanı əldə edə bilərsiniz.

## Elektron Universitet Modeli

Tam elektronlaşmış tədris prosesi ilə müasir və innovativ təhsil mühitindən yararlana bilərsiniz!

## Xüsusi təqaüd imkanı

600 və yuxarı bal toplayaraq UNEC-ə qəbul olan tələbələrdən ol, xüsusi təqaüd qazan!

## İkinci əlaçı təqaüdü

UNEC-in hər kurs üzrə ən çox bal toplayan 15 tələbəsindən biri olaraq, əlavə təqaüd qazana bilərsiniz!

## Universitet Daxili İki Diplom (UDİD)

4 illik təhsil müddətində 2 ixtisas üzrə 2 diplom ala bilərsiniz.

## Bakalavriat ixtisaslarımız

Maliyyə
Mühasibat
İqtisadiyyat
Statistika
Ekologiya
Sosial iş
Qida mühəndisliyi
Menecment
Marketinq
Biznesin idarə edilməsi
Kompüter elmləri
İnformasiya texnologiyaları
İnformasiya təhlükəsizliyi
Kommunikasiya sistemləri mühəndisliyi
Dizayn
Dövlət və bələdiyyə idarəetməsi
Beynəlxalq ticarət və logistika
Ekologiya mühəndisliyi
Elektrik və elektronika mühəndisliyi
Maşın mühəndisliyi
Materiallar mühəndisliyi
Sənaye mühəndisliyi

## Zaqatala filialı üzrə ixtisaslarımız

Maliyyə
Mühasibat
İqtisadiyyat
Dövlət və bələdiyyə idarəetməsi
Biznesin idarə edilməsi
Turizm işinin təşkili
Marketinq
Menecment
İnformasiya texnologiyaları

# UNEC tələbəsi ol!

**Dünyanın nüfüzlu universitetləri ilə ikili diplom proqramlarına qoşul!**

**Mübadilə proqramlarının iştirakçısı ol!**

**i.f.d., dos. Elsevər Quliyev**
UNEC



# ORTA DƏHLİZ - REGİONUN SÜRƏTLİ İNKİŞAFINA TƏKAN VERƏCƏK YENİ İQTİSADİ LAYİHƏ

**Orta Asiya və Qafqaz regionları tarixən qədim İpək Yolunun keçdiyi əraziləri olub. Əsrlər boyu tacirlər Asiyadan Avropaya ticarət karvanları aparıb, iqtisadi əlaqələr qurub və davamlı ticarətə, əlaqələrin inkişaf etdirilməsinə nail olublar. Lakin bununla yanaşı, inkişaf edən dəniz yük daşıma xidmətləri və İpək yolu coğrafiyasında (Şərqi Asiya-Mərkəzi Asiya-Qafqaz-Şərqi Avropa) baş verən siyasi proseslər beynəlxalq yük daşıma axınlarını Cənubi Çin dənizi, Hind okeanı və Aralıq dənizi üzərindən Avropaya yönəltdi. İpək Yolu marşrutunun bərpa olunmasına maraq yenidən 1993-cü ildə Avropa İttifaqının TRACECA Avropa-Qafqaz-Asiya Nəqliyyat Dəhlizi proqramının icrasına başlamaqla yarandı. TRACECA proqramı çərçivəsində Qədim İpək Yolu marşrutunda yerləşən ölkələrin mövcud quru, dəmir yolu və dəniz nəqliyyatı xidmətlərinin inkişaf etdirilməsi, o cümlədən də, logistika və liman infrastrukturlarının təkmilləşdirilməsində müsbət dəyişikliklər baş verdi. Asiyadan Avropaya yük daşımaların inkişafında baş verən digər böyük təkanlardan biri Çin Xalq Respublikasının 2000-ci illərdən başlayaraq sürətli sənaye inkişafı və Avrasiya qitəsi üzərindən Avropaya konteyner ekspress qatarlarının işləməsi səbəb oldu. Bu marşrut Çinin Qərbində yerləşən və sürətlə inkişaf edən sənaye rayonlarını (Dell, Hewlett Packard və başqa kompüter və məişət elektronikası istehsal edən şirkətlərin Çində tikildiyi zavodları bu ərazilərdə yerləşir) Mərkəzi və Qərbi Avropa ilə iqtisadi cəhətdən əlaqələndirdi.**

*Ekspress yük qatarları Çinin Chongqing şəhərindən Almaniyanın Duysburq şəhərinə 12 günə çatır və 12000 km yol qət edir.*

TRACECA proqramı Çinin bu təşəbbüsünə dəstək olaraq, ekspress qatarlarının keçdiyi tranzit ölkələr arasında, yəni Qazaxıstan, Rusiya, Belarusiya və Polşa dövlətləri arasında xüsusi trans sərhəd sazişlərinin imzalanmasına müvəffəq oldu. Həmin sazişlərə əsasən mallar, Çinin sənaye bölgələrindən Avropaya sürətlənmiş trans-sərhəd qaydaları əsasında nəql edilir. Ekspress yük qatarları Çinin Chongqing şəhərindən Almaniyanın Duysburq şəhərinə 12 günə çatır və 12000 km yol qət edir.

Çin – Mərkəzi Asiya – Azərbaycan - Gürcüstan - Avropa tranzit marşrutu Çin - Mərkəzi Asiya – Rusiya - Avropa marşrutuna alternativ hesab edilsə də, bu istiqamət üzrə yük tranziti multimodal (bir neçə nəqliyyat növündən istifadə olunur) daşımalar əsasında həyata keçirilir. Multimodal daşımalarda isə Mərkəzi Asiya və Qafqaz ölkələrinin tranzit qaydaları və texniki imkanlarında çoxlu sayda fərqlilik mövcuddur və bu problemlər öz həllini gözləyir. Baxmayaraq ki, TRACECA təşkilatının 1993-cü ildən bəri həyata keçirdiyi fəaliyyət nəticəsində bölgə ölkələri arasında tranzit daşıma prosedurları sadələşdirilmiş və yük tranziti asanlaşdırılmışdır, Çin - Mərkəzi Asiya – Rusiya - Avropa marşrutu əsas yük marşrutu mövqeyini qoruyub saxlaya bilirdi. Buna səbəb tranzitin daşımalarda yalnız bir növ nəqliyyat xidmətindən istifadə edilməsi, başqa sözlə bütün daşımaların yalnız dəmir yolu vasitəsi ilə həyata keçirilməsi idi.

Mərkəzi Asiya və Qafqaz üzərindən tranzit daşımaların səmərəliliyinin artırılması və bölgə ölkələrinin qanunvericilikləri arasında mövcud olan fərqin aradan qaldırılması məqsədilə 07.11.2013-cü il tarixində Astana şəhərində "Yeni İpək Yolu" adı ilə keçirilən II Beynəlxalq Nəqliyyat və Logistika Biznes Forumunda Qazaxıstan, Azərbaycan və Gürcüstan Dəmir Yolları arasında Trans Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun inkşaf etdirilməsi üçün Koordinasiya Şurasının yaradılmasına dair saziş imzalanır. 2014-cü ilin fevral ayında Çin – Mərkəzi Asiya – Azərbaycan - Gürcüstan - Avropa marşrutu üzrə yük daşımaların intensivliyinin artırılması məqsədi ilə Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu Koordinasiya Şurası təsis edilir və Şuranın milli nəqliyyat qurumlarından ibarət təsisçiləri olur.

Sözügedən Şuranın geniş fəaliyyətini təmin etmək məqsədilə təsisçilər tərəfindən 2014-




**ÇİN - MƏRKƏZİ ASİYA – RUSİYA - AVROPA MARŞRUTU İLƏ ORTA HESABLAMALARA GÖRƏ**

**BİR İL ƏRZİNDƏ 700.000 ƏDƏD VƏ 20 TEU**

**(12 TON EKVİVALENTİ) TUTUMU OLAN KONTEYNERLƏR ÇİNDƏN AVROPAYA DAŞINIR**

2017-ci il dövrü üçün müxtəlif işlər görülmüşdür. O cümlədən də, Beynəlxalq Transxəzər Nəqliyyat Konsorsiumu yaradılmış və Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu qısa olaraq Orta Dəhliz adlandırılmağa başlanmışdır.

2016-cı ilin dekabr ayında Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun Koordinasiya Şurası, Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu Assosiasiyasının təsis edilməsi haqqında qərar verilmiş və 2017-ci ilin fevral ayından həmin assosiasiya geniş fəaliyyətə başlamışdır.

Lakin bu cəhdlərə baxmayaraq, Çin - Mərkəzi Asiya - Rusiya - Avropa marşrutu 24.04.2022-ci il tarixinədək əsas yük tranzit yolu qalmaqda davam edirdi və orta hesablamalara görə bir il ərzində həmin marşrut üzərindən 700.000 ədəd və 20 TEU (12 ton ekvivalenti) tutumu olan konteynerlər Çindən Avropaya daşınırdı.

Rusiya Federasiyasının Ukraynada apardığı müharibəyə cavab olaraq 2022-ci ildə beynəlxalq ictimaiyyət bu ölkəyə geniş miqyaslı sanksiyalar tətbiq etdi və Çin - Mərkəzi Asiya – Rusiya - Avropa marşrutu üzrə yük daşımalarına qadağalar və ciddi məhdudiyyətlər qoyuldu. Bu da öz növbəsində həmin marşruta alternativ olan Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunu (Orta Dəhliz) daha da aktuallaşdırdı və yük daşımaların həmin marşrut üzrə inkişafına ciddi təkan verdi. Belə ki, Orta Dəhlizin iki marşrutu mövcuddur və aşağıdakı dövlətləri əhatə edir:

**I Marşrut:** Çin – Qazaxıstan – Azərbaycan – Gürcüstan – Türkiyə - Avropa

**II Marşrut:** Çin - Qırğızıstan – Özbəkistan – Türmənistan - Azərbaycan – Gürcüstan – Türkiyə - Avropa.

Lakin hər iki marşrut üzərində yerləşən altı beynəlxalq dəniz limanı, mövcud dəmir yolu və quru yol infrastrukturları bir ildə əlavə olaraq, 700.000 ədəd 20 TEU konteyner daşınmasına hesablanmayıb. Hal-hazırda Xəzər Dənizində mövcud olan Kurık, Aktau, Türkmənbaşı və Bakı Beynəlxalq Limanları vasitəsi ilə bir ildə yalnız 100.000 ədəd 20 TEU konteyner və 15 milyon ton yük daşınması mümkündür. Gürcüstanın Poti və Batum Beynəlxalq Dəniz Limanlarında da, eyni texniki problemlər müşahidə olunur. Bundan əlavə, Xəzər dənizində mövcud olan tankerlərin, gəmi bərələrinin, Universal Quru Yük Gəmiləri və Ro-Ro gəmilərinin də mövcud sayı yük daşıma həcmlərinin kəskin artımına hesablanmayıb. Başqa sözlə, Orta Dəhliz üzərində yerləşən sözügedən altı limanın inkişaf etdirilməsi hal-hazırda böyük investisiyalar tələb edir və aşağıdakı işlərin maliyyələşdirilməsi birinci dərəcəli əhəmiyyət kəsb edir:

- Liman yük kranlarının alınması;
- Taxıl terminalının tikilməsi/genişləndirilməsi;
- Gübrə terminalının tikilməsi/genişləndirilməsi;
- Tranzit yüklərin limanda saxlanılma ərazilərinin və yük anbarları sahələrinin genişləndirilməsi;
- Yeni yük körpüləri və bərə terminallarının inşası.

Təhlillər göstərir ki, ən böyük investisiyalar Bakı Beynəlxalq Ticarət Limanından tələb olunur. Belə ki, Orta Dəhlizə aid və Xəzər Dənizinin Azərbaycan hissəsində yalnız bir beynəlxalq dəniz limanı mövcuddur və həmin liman üç digər Xəzər Dənizi beynəlxalq limanlarından yük qəbul edir. Hal-hazırda Bakı Beynəlxalq Dəniz Limanının illik ümumi yük aşırma qabiliyyəti 15 milyon ton, konteyner aşırma qabiliyyəti isə 100.000 ədəd təşkil edir. Azərbaycan Respublikasının strateji maraqlarına cavab verən Bakı Beynəlxalq Dəniz limanının ikinci mərhələsinin tikintisi və genişləndirilməsi nəzərdə tutulmuşdur. Liman kompleksi tikintisinin ikinci mərhələsi başa çatdıqdan sonra Bakı Limanının ümumi yükaşırma imkanı artaraq 25 milyon ton, konteyner aşırma qabiliyyəti isə 500,000 ədəd 20 TEU konteyner olacaqdır.

**ORTA DƏHLİZ ÜZƏRİNDƏ YERLƏŞƏN ALTI LİMANIN İNKİŞAF ETDİRİLMƏSİ HAL-HAZIRDA BÖYÜK İNVESTİSİYALAR TƏLƏB EDİR VƏ AŞAĞIDAKI İŞLƏRİN MALİYYƏLƏŞDİRİLMƏSİ BİRİNCİ DƏRƏCƏLİ ƏHƏMİYYƏT KƏSB EDİR**

Qeyd etmək istərdik ki, Orta Dəhlizin inkişaf etdirilməsi tək limanların texniki cəhətdən inkişaf etdirilməsi ilə bitmir. Orta Dəhliz üzərindən yük daşımaların dinamik inkişaf etdirilməsi aşağıda qeyd olunan problemlərin də həllini tələb edir:

1. Rəqəmsal nəqliyyat qaimə sənədlərinin Limanlar, Dəmir Yolları və Gömrük orqanları arasında elektron mübadiləsinin təşkil edilməsi;
2. Orta Dəhliz üzərindən tranzit yük daşımalar üçün vahid gömrük rüsumu, eyniləşdirilmiş dəmir yolu və dəniz nəqliyyat tariflərinin tətbiq edilməsi;
3. Bakı - Axalkalaki - Qars marşrutu üzrə mövcud olan dəmir yolu xəttinin yük buraxma imkanının artırılması;
4. Orta Dəhlizə aid dövlətlərin Dəmir Yolları lokomativ parklarının genişləndirilməsi və dəmir yolu infrastrukturunun genişləndirilməsi;
5. Orta Dəhliz marşrutu üzrə Beynəlxalq Logistika Mərkəzlərinin inkişaf etdirilməsi;
6. Tranzit yük daşıma prosedurlarının sadələşdirilməsi;
7. Tranzit yüklərinin Orta Dəhlizlə Avropaya nəql edilməsi üçün 25-30 günə Çindən Batumi və Poti Beynəlxalq Dəniz Limanlarına çatdırılması.

Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu - Orta Dəhliz, Mərkəzi Asiya ölkələri, Azərbaycan, Gürcüstan və Türkiyə dövlətlərinin dinamik inkişafı üçün səmərəli iqtisadi layihə hesab edilir. Layihənin icrası Mərkəzi Asiya, Qafqaz və Qara Dəniz hövzəsi ölkələrinin tranzit əhəmiyyətini artıracaq, daşınma xidmətləri və infrastrukturun inkişafına müsbət təsir göstərəcək. Lakin layihənin uğurla inkişaf etdirilməsi, sözügedən ölkələrin tranzit daşımalarının sürətlə həyata keçirilməsinə mane olan inzibati və texniki maneələrin aradan qaldırılmasına söykənir. Qeyd etmək istərdik ki, 23.11.2022-ci il tarixində Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun inkişaf etdirilməsinə dair Mərkəzi Asiya ölkələri, Azərbaycan, Gürcüstan və Türkiyənin Xarici İşlər nazirləri tərəfindən yol xəritəsi təsdiqlənmişdir. Həmin xəritə üzrə dövlətlər Orta Dəhliz marşrutu üzrə tranzit yüklərinin daşınmasının inkişaf etdirilməsinə dair əhəmiyyətli investisiya tədbirlər planını təsdiqləmişlər.






UNEC

**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ ЭКОНОМИЧЕСКИЙ УНИВЕРСИТЕТ**

Наш университет готовит инновативных и конкурентоспособных специалистов на основе современных образовательных стандартов с использованием опыта ведущих университетов мира.

Вы сможете воспользоваться преимуществами получения образования в самом крупном университете Азербайджана в сфере экономических и управленческих специальностей и в целях повышения карьерного роста получите возможность проведения исследований под руководством авторитетных учёных-экономистов и высокопрофессиональных специалистов страны .

**Университет, где обучение проводится на 4 языках**

## Модель Электронного Университета

Вы сможете воспользоваться современной и инновативной образовательной средой с полной электронизацией учебного процесса!

## Возможность получения специальной стипендии

Будь в числе студентов, набравших 600 и выше баллов при поступлении в университет, и получай специальную стипендию!

## Вторая стипендия отличника

Вы сможете стать обладателем дополнительной стипендии, став одним из 15-ти студентов, набравших самые высокие баллы на каждом курсе обучения в UNEC!

## Внутриуниверситетский двойной диплом ( ВУДД)

В течение 4-х лет обучения сможете получить 2 диплома по 2-м специальностям.

## Специальности уровня бакалавриат

Финансы
Бухгалтерия
Экономика
Статистика
Менеджмент
Маркетинг
Управление бизнесом
Международная торговля и логистика
Государственное и муниципальное управление
Информационные технологии
Инженерия коммуникационных систем
Информационная безопасность
Компьютерные науки
Пищевая инженерия
Экологическая инженерия
Электронная и электрическая инженерия
Машинная инженерия
Инженерия материалов
Промышленная инженерия
Дизайн
Экология
Социальная работа

## Специальности Закатальского филиала UNEC

Финансы
Бухгалтерия
Экономика
Маркетинг
Государственное и муниципальное управление
Управление бизнесом
Организация туристской деятельности
Менеджмент
Информационные технологии

**БУДЬ СТУДЕНТОМ UNEC!**

**Присоединяйся к программам двойного диплома с престижными университетами мира!**

**Стань участником программ по обмену студентами!**

**r.f.d., dos. Ülviyyə Rzayeva**
UNEC



# TÜRK RESPUBLİKALARINDA NƏQLİYYAT VƏ KOMMUNİKASİYA SEKTORUNUN İNKİŞAF PERSPEKTİVLƏRİ

**Dünyada yaşadığımız qloballaşma, qeyri-müəyyənlik və artan gərginlik şəraitində sıx və qarşılıqlı faydalı əməkdaşlıq dayanıqlı inkişaf və tərəqqinin əldə edilməsində, sülhün və təhlükəsizliyin təmin olunmasında həlledici rol oynayır.**

Müasir cəmiyyətdə iqtisadi proseslərin bir dövlət çərçivəsində tənzimlənməsi getdikcə çətinləşir. Fikrimizcə, qlobal istehlak cəmiyyətində sosial-iqtisadi münasibətlər daha prioritetlidir. Bunun üçün də dünya iqtisadiyyatının demək olar ki, bütün fəal regionları öz səylərini birləşdirməyə çalışırlar.

Türk Dövlətlərinin xalqları bütün bəşəriyyətin sərvəti olan unikal və əvəzsiz mədəni, tarixi-mənəvi irsə malikdir. Ölkələrimizdə türk və islam sivilizasiyasının tarixi abidələri, böyük alimlərin, şairlərin, mütəfəkkirlərin, sənətkarların irsi diqqətlə qorunur. Bu əvəzsiz sərvət bütün bəşəriyyətin varidatıdır. Bundan əlavə, ölkələrimizin inteqrasiyası üçün mədəni, dini və coğrafi yaxınlıq mövcuddur.

*Kommunikasiyalar və transregional nəqliyyat dəhlizlərinin inkişafı da qarşılıqlı yükdaşımaların həcmini artıracaq*

Tarixən coğrafi mövqe zəngin Çinlə inkişaf etmiş Avropa ölkələri arasında nəqliyyat kommunikasiyalarına (İpək Yoluna) nəzarət türk imperiyalarının, eləcə də bu ərazidə yerləşən şəhərlərin zənginləşməsinin və sosial-iqtisadi yüksəlişinin əsas səbəblərindən biri olmuşdur. Bu gün də ölkələrimiz arasında iqtisadi inteqrasiyanın əsas vəzifəsi münasib nəqliyyat-kommunikasiya əlaqələrinin yaradılmasıdır.

Öz növbəsində, qarşılıqlı ticarət və sənaye əməkdaşlığı nəqliyyat sektoru ilə bir-birinə bağlıdır ki, bu da nəqliyyat və logistika

sektorunda daha sıx kooperasiyanı zəruri edir. Beləliklə, biz bu sahələri birgə inkişaf etdirməklə onları istehsal və logistika mərkəzlərinə, dəyər zəncirinin mühüm halqalarına çevirməliyik. Bunun üçün əlbəttə ki, kommunikasiyalar və transregional nəqliyyat dəhlizlərinin inkişafı vacibdir ki, bu da qarşılıqlı yükdaşımaların həcmini artıracaq və təkcə Türk Dövlətləri Təşkilatına üzv olan ölkələrin deyil, həm də digər ölkələrin tranzit potensialını artıracaq.

Türk Dünyası ölkələri yaxın gələcəkdə Avrasiya qitəsinin əsas neft və qaz tədarükçülərindən biri olacaq, lakin bu ehtiyatların daşınması ilə bağlı çoxlu problemlər də mövcuddur. Bu problemlərin birlikdə həlli hazırda və gələcəkdə əldə edilən gəlirləri maksimum dərəcədə artırmağa kömək edəcək.

Türkiyə Türk Dövlətləri arasında okeana çıxışı olan yeganə ölkədir və Avropa ilə Asiyanın qovşağında yerləşərək iki qitə arasında körpü rolunu oynayır. Geo-iqtisadi baxımdan onun böyük üstünlükləri var, lakin obyektiv səbəblərdən son zamanlara qədər donanma istisna olmaqla, iki qitəni birləşdirəcək müvafiq nəqliyyat infrastrukturu yox idi. Lakin son illər istər Türkiyənin özündə, istərsə də qonşu dövlətlərlə birlikdə bu sahədə böyük uğurlar əldə olunub. Türkiyənin Avrasiyanın mərkəzində əlverişli geostrateji mövqeyi və Ankaranın Çinin "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində trans-Avrasiya nəqliyyat dəhlizlərinin inkişafında fəal iştirakı Türk Dövlətlərin də böyük marağına səbəb olur.

Hazırda Azərbaycan ərazisindən iki nəqliyyat dəhlizi keçir – TRACECA və Şimal-Cənub. Hər iki istiqamətdə dəmir yolu xətti mövcuddur. Şimal-Cənub nəqliyyat dəhlizi Fars körfəzi və Hind okeanı ölkələri ilə iqtisadi əlaqələr üçün böyük imkanlar yaradır. Bakı-Tbilisi-Qars multimodal nəqliyyat xidmətlərinin inkişafı və Ələtdə limanın tikintisi layihələri paralel olaraq həyata keçirilən TRACECA layihəsinin tərkib hissəsidir. Bu, Xəzər dənizində yükdaşımaların artmasına və ölkələrimiz arasında ticarət əlaqələrinin inkişafına təkan olacaq.

Həmçinin "Zəngəzur dəhlizi"nin bərpası Asiyadan Avropaya ən qısa quru yolu təmin edə biləcək bir marşrutdur. Burada Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən Horadiz-Ağbənd dəmir yolunun tikintisi layihəsi mühüm rol oynayacaq, Ordubaddan Ermənistanla sərhədə qədər çatışmayan hissə isə Naxçıvan dəmir yolunun bütün infrastrukturunun yaradılmasını müəyyən edəcək. Bu marşrutlar ölkələrimiz arasında vahid nəqliyyat şəbəkəsi yaradacaq, həm Çin, həm də Avropa İttifaqı ilə ticarət imkanlarını genişləndirəcək.

Hazırda türk dövlətləri arasında ərazi cəhətdən birinci yerdə olan Qazaxıstanın ərazisindən aşağıdakı dörd nəqliyyat dəhlizi keçir:




- Qazaxıstan vasitəsilə Çini, Koreyanı və Yaponiyanı Qərbi Avropa ilə birləşdirən Trans-Asiya Dəmiryolunun Şimal Dəhlizi (Dostıq-Aktoqay-Sayak-Mointi-Astana-Petropavlovsk);

- Avropadan başlayaraq, Türkiyə, İran, Orta Asiya və Qazaxıstan ərazilərindən Cənub-Şərqi Asiya ölkələrinə qədər keçən və onları birləşdirən cənub dəhlizi (Dostıq-Aktoqay-Almatı-Şu-Arıs-Sarıağaş);

- Qara dəniz, Qafqaz, Xəzər dənizi, Qazaxıstan vasitəsilə Şərqi Avropanı Mərkəzi Asiya ilə birləşdirən TRACECA şəbəkəsi (Dostıq-Almatı-Aktau);

- Rusiya (Ural bölgəsi) və Qazaxıstan (Aktau-Atirau) ərazilərindən keçən, Şimali Avropanı və Fars körfəzi ölkələrini birləşdirən Şimal-Cənub marşrutu.

Hal-hazırda "Rusiya-Qazaxıstan-Qırğızıstan-Tacikistan" dəmir yolunun çəkilməsi layihəsi mövcuddur. Baxmayaraq ki, Rusiya ilə Qazaxıstanı birləşdirən dəmir yolu xətti fəaliyyət göstərir, bu xəttin uzadılmasına ehtiyac var. Bu layihə Qırğızıstan və Tacikistan ərazisi vasitəsilə Fars körfəzi ölkələri ilə əlaqə yaratmağa imkan verəcək və Qırğızıstan iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyası üçün böyük imkanlar verəcək. Çin-Qırğızıstan-Özbəkistan dəmir yolu layihəsinin məqsədi Aral dənizini Fars körfəzi ilə birləşdirən Cənub Dəhlizinin inkişaf etdirilməsidir.

Bununla əlaqədar, bütün Türk Dünyası ölkələri beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafına, logistika zəncirlərinin rəqəmsallaşdırılmasına, o cümlədən malların və nəqliyyat vasitələrinin sərhəd məntəqələrindən keçirilməsi proseslərinə, ixrac məhsullarının maya dəyərində nəqliyyat və digər xərclərin optimallaşdırılmasına, habelə nəqliyyat xərclərinin azaldılmasına və malların çatdırılma sürətinin artırılmasına üstünlük verməkdə davam edir.

Bu fəaliyyətin səmərəliliyini artıracaq faktor düzgün birgə siyasətdir. Ölkələrimizin müasir

texnologiyaların tətbiqi ilə birgə səyləri qitələr arasında yükdaşıyanlar üçün həm çatdırılma müddətini, həm də nəqliyyat xərclərini azaldacaq. Birgə səylərlə malların və xidmətlərin ucuz sürətli daşınmasının mütəşəkkil qurulmuş sisteminin yaradılması qovşaqlarımızın bir-birinin tamamlanmasına impuls verəcək. Bu da öz növbəsində qardaş xalqlarımız arasında daha sıx inteqrasiyaya səbəb olacaq. Bu məsələdə nəqliyyat əlaqələrinin inkişafı ilə bağlı problemlərə nəzarət edəcək millətlərarası təşkilat yaradılması məqsədəuyğun ola bilər. Regionumuzun tarixi və dünya iqtisadiyyatının hazırki inkişafı nəqliyyat şəbəkəsinin inkişafının aşkar perspektivlərindən xəbər verir ki, bu da inteqrasiyanın əsas motividir. Təcrübə göstərir ki, inteqrasiya prosesləri üçün siyasi iradə kifayət etmir, bunun üçün güclü iqtisadi komponent lazımdır.

Türk Dövlətlərinin iqtisadi inteqrasiyasının inkişafı üçün aşağıdakı addımlar təklif olunur:

- ölkələr arasında nəqliyyat kommunikasiyalarının inkişafı;
- xüsusi əhəmiyyət kəsb edən nəqliyyat problemlərinin əlaqələndirilməsi üçün müvafiq təşkilatın yaradılması;
- xarici ticarət əlaqələrinin inkişafı üçün azad ticarət zonası haqqında sazişin imzalanması;
- elm və sənaye sferalarında inteqrasiya üçün elmin bütün sahələrində birgə tədqiqat işlərinin aparılması;
- Türk Dövlətlərinə investisiyaların cəlb edilməsi üçün əlverişli şəraitin yaradılması.

Birgə əməkdaşlığın prioritet istiqamətlərini nəzərə alaraq, ilk növbədə, ticarət əlaqələrinin genişləndirilməsi üçün potensialdan istifadə edilməsi vacib görünür. Bunun üçün ticarətdə maneələri aradan qaldırmaq, onun strukturunu və məhsul çeşidini genişləndirmək lazımdır. Ticarət əlaqələrinin unifikasiyası və liberallaşdırılması qarşılıqlı ticarətin həcmini və tranzit imkanlarını əhəmiyyətli dərəcədə artırmaqla yanaşı, müəssisələrimizə yüksək əlavə dəyərli malların istehsalını, o cümlədən onların üçüncü bazarlara çıxışının daha da sürətləndirilməsi üçün əlavə şərait yaradacaqdır.

Məqsədimiz ortaq məkanımızın davamlı inkişafı ilə Türk Dünyasının birgə rifahını təmin etməkdir. Bu baxımdan, Mərkəzi Asiya və Cənubi Qafqazı transregional qarşılıqlı əlaqələrin mühüm halqasına, makroregionumuzu Şimalla Cənub, Qərblə Şərq arasında istehsal və logistika mərkəzinə çevirmək mümkündür. Bütün bunlar yeni innovativ rəqəmsal platformada, sənayelərimizin geniş inteqrasiyasında, türk dövlətlərinin nəqliyyat və enerji imkanlarının birləşdirilməsində inkişaf etdirilməlidir. Bu səylər son nəticədə regionlarımızın rəqabət qabiliyyətli və özünü təmin edən istehsal və logistika mərkəzinə çevrilməsini təmin edəcəkdir ki, bu da nəticədə ölkələrimizin iqtisadi artımını və davamlı inkişafını təmin edəcək.



AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ

UNEC

# UNEC

# UĞURLU YOLUN BAŞLANĞICI



***"Təcrübəsi və peşəkarlığı ilə seçilən akademik heyət***

***Müasir tədris proqramları***

***4 dildə təhsil almaq imkanı"***

## İkili Diplom proqramları

## UNEC BİZNES MƏKTƏBİ (MBA)

- Maliyyə
- Ümumi təyinatlı
- Beynəlxalq biznes
- Menecment
- Marketinq
- Mühasibat uçotu
- Qiymətli kağızlar
- İnsan resurslarının idarə olunması
- Bank və sığortanın idarə edilməsi
- Səhiyyənin idarə edilməsi
- İdmanın idarə edilməsi
- Mühəndislik və idarəetmənin riskləri
- Turizm və otelçiliyin idarə edilməsi
- Layihələrin idarə edilməsi
- Biznes və data analitikası
- Risklərin idarə olunması
- Sosial media marketinqi
- Beynəlxalq logistika və təchizat zəncirinin idarə edilməsi
- Kiber təhlükəsizlik
- Vergi idarə etməsi və vergi planlaşdırması
- Rəqəmsal marketinq
- Rəqəmsal ekspertiza
- Enerji menecmenti
- Blokçeyn idarə edilməsi
- Rəqəmsal biznesin idarə edilməsi
- Proqram təminatı mühəndisliyi
- Süni intellekt
- Ərzaq məhsullarının keyfiyyətinin idarə edilməsi
- Ali təhsilin idarə edilməsi

## MAGİSTRATURA SƏVİYYƏSİ ÜZRƏ İXTİSASLARIMIZ

- Dünya İqtisadiyyatı
- Mühasibat uçotu və audit
- Maliyyə
- İqtisadiyyat
- Sənayenin təşkili və idarə edilməsi
- Statistika
- Menecment
- Marketinq
- Biznesin idarə edilməsi
- Dövlət və bələdiyyə idarəetməsi
- Kommersiya
- Kompüter elmləri
- Ekologiya
- Texnoloji maşın və avadanlıqlar mühəndisliyi
- İnformasiya texnologiyaları və sistemləri mühəndisliyi
- Qida məhsulları mühəndisliyi
- Çoxişlənən malların texnologiyası mühəndisliyi
- İstehlak mallarının ekspertizası və marketinqi
- Dizayn
- Metrologiya, standartlaşdırma və sertifikasiya mühəndisliyi



**Gülnar Mirzəyeva**
UNEC

# TÜRK DÖVLƏTLƏRİNDƏ ENERJİ SEKTORUNUN **İNKİŞAF PERSPEKTİVLƏRİ**

**Davamlı insan inkişafı və iqtisadi artım üçün enerji vazkeçilməzdir. Bütün dünyada yoxsulluğun aradan qaldırılması, insanların rifahının yaxşılaşdırılması və həyat standartlarının yüksəldilməsi üçün adekvat, əlverişli enerjinin təmin edilməsi vacibdir. Lakin enerji istehsalı, çevrilməsi və istifadəsi həmişə arzuolunmaz əlavə məhsullar və emissiyalar yaradır.**

Bərpa olunan enerji mənbələrində yavaş irəliləyişin olduğu görülür və hələ də qalıq yanacaqlar üstünlük təşkil edir. Bununla belə, qlobal  enerji sistemində struktur dəyişikliyi getdikcə aktuallaşır.

*Ölkəmizdə sosial-iqtisadi inkişaf prioritetlərindən biri olan yaşıl artıma nail olunma, eləcə də 2030-cu ilə qədər elektrik enerjisinin istehsal gücündə bərpa olunan enerji mənbələrinin payının 30%-ə çatdırılmasıdır*

Türk dövlətləri də alternativ və bərpa olunan enerji mənbələrinin önəmini diqqətə alaraq bu enerji növündən istifadəyə fokuslanmağa başlamışdır. Türkiyə miqyasında alternativ və bərpa olunan enerji mənbələri araşdırıldığı zaman günəş, külək, geotermal, biokütlə və hidravlik enerji kimi resurslardan geniş şəkildə istifadə edildiyi görülməkdədir. Türkiyə günəş potensialına görə nadir ölkələrdən biridir. Türkiyə 2021-ci ilin mart ayı etibarilə 7779 günəş enerjisi stansiyası və 6964 MVt quraşdırılmış gücə çatmışdır (Türkiye Elektrik İletim A.Ş., 2021). Külək enerjisi tutumunda qurulan güc baxımından Türkiyə dünyada ilk sıralarda olmasa da, külək enerji potensialına görə xeyli irəlidədir. Türkiyə bərpa olunan enerji mənbələrinin inkişafı və artırılması məsələsinə son zamanlarda böyük əhəmiyyət verir. 2017-ci ildə qəbul edilmiş Milli Enerji Siyasəti çərçivəsində bərpa olunan, yerli enerji mənbələrinin yayılması, eyni zamanda istifadəsinin artırılması əsas hədəflər sırasındadır.

Qazaxıstan kömür, neft, təbii qaz və uran kimi qalıq ehtiyatlarla zəngindir və külək, günəş, hidroenergetika və biokütlə kimi əhəmiyyətli bərpa olunan enerji potensialına malikdir. Lakin yüksək bərpa olunan enerji potensialına baxmayaraq, Qazaxıstan enerji



istehsalı üçün qalıq yanacaqlardan çox asılıdır. Ölkədəki ümumi enerji istehsalının 75%-ni kömürlə işləyən elektrik stansiyaları təşkil edir. Qazaxıstanda bərpa olunan enerji mənbələrinin inkişafına aşağı elektrik tarifləri, ötürülmə itkiləri, köhnəlmiş və səmərəsiz texnologiyalar, zəif normativ-hüquqi baza, eləcə də yüksək riskli biznes mühiti mane olan amillərdəndir. Eyni zamanda, Qazaxıstan istixana qazı emissiyaları miqdarına görə dünyada ön sıradadır. Qazaxıstanda ətraf mühitə vurulan ziyanı azaltmaq, enerji sisteminin səmərəliliyini artırmaq üçün enerji sektorunun qeyri-mərkəzləşdirilməsi və digər islahatlar aparılmalıdır. Bərpa olunan enerji sistemlərinin qəbulu üçün innovativ tədqiqat və inkişaf proqramları yaradılmalıdır. Mövcud informasiya maneələrini nəzərə alaraq, geniş auditoriyaya, o cümlədən fərdi istehlakçılara, bizneslərə və sənayelərə məlumat verən proqramlara ehtiyac var.

Özbəkistan da bərpa olunan enerji mənbələrinə keçid mərhələsində olan ölkələrdən biri olaraq 2030-cu ilə qədər 3000 MVt günəş və 5000 MVt külək gücü hədəfləyir. Bu hədəfə çatmaq üçün artıq ölkə bərpa olunan enerji bazarını formalaşdırmağa başlamışdır.

Ölkəmizdə sosial-iqtisadi inkişaf prioritetlərindən biri olan yaşıl artıma nail olunması, eləcə də 2030-cu ilə qədər elektrik enerjisinin istehsal gücündə bərpa olunan enerji mənbələrinin payının 30%-ə çatdırılmasının planlaşdırılması Azərbaycanın enerji transformasiyası ilə bağlı hədəflərini özündə əks etdirir. Masdar şirkəti ilə əməkdaşlıq çərçivəsində investisiya dəyəri 225 milyon ABŞ dollarından çox olan 230 MVt gücündə “Qaradağ” Günəş Elektrik Stansiyası layihəsinin həyata keçirilməsi, elektroenergetika sistemində bərpa olunan enerjinin payının artırılmasında texniki yardım layihələrinin nəzərdə tutulması, digər xarici şirkətlər tərəfindən bərpa olunan enerji mənbələrinə investisiyaların olunması qarşıdakı illərdə ölkəmizdə bərpa olunan enerji mənbələrindən istifadənin daha da artacağının sübutudur. Bu da 2030-cu ilə qədər nəzərdə tutulan 30% hədəfinin qarşılanacağını göstərməkdədir.

*Gələcək illərdə digər ölkələrdə olduğu kimi türk dövlətlərində də bərpa olunan enerji mənbələrindən istifadə daha da artırılacaq, bu da enerji qiymətlərinin dəyişməsinə məruz qalmağı azaltmağa kömək edəcək, eyni zamanda emissiyaları azaldacaq və digər iqtisadi faydalar verəcəkdir.*

**i.ü.f.d., dos. Aqil Eyvazov**
UNEC



# TÜRK DÖVLƏTLƏRİ ARASINDA TİCARƏT SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ: **MÖVCUD VƏZİYYƏT, PROBLEMLƏR, İMKANLAR VƏ PERSPEKTİVLƏR**

**Ötən əsrin sonlarında baş verən geosiyasi dəyişikliklər nəticəsində dünyanın siyasi xəritəsində yeni müstəqil Türk dövlətlərinin yaranması və qloballaşan dünyanın çağırışları ilə üzləşməsi türkdilli xalqların daha çox birlikdə hərəkət etməsi zərurətinin yaranmasına gətirib çıxarmışdır. Türk Dövlətlərin başçılarının zirvə görüşlərinin keçirilməsi, Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının (TÜRKSOY), Türk Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) yaradılması, Türk Dövlətləri Parlament Assambleyasının (TÜRKPA) təsis edilməsi, Türk Akademiyası, Türk Mədəniyyət və Miras Fondu və Türk Biznes Şurası kimi bənzər və ya bağlı təşkilatların qurulması məhz bu zərurətdən irəli gəlmişdir.**

*4,8 milyon kvadratkilometr əraziyə, 170 milyon nəfərdən çox əhaliyə, 1,4 trilyon ABŞ dolları ÜDM-ə və 855 milyard ABŞ dollarından çox ticarət dövriyyəsinə malik türk dövlətləri bu gün Avrasiyada geoiqtisadi cəhətdən lokomotiv roluna sahib ola biləcək potensialdadır*

Təbii ehtiyatlarla zəngin, əlverişli coğrafi mövqeləri və müxtəlif iqtisadiyyatlara malik bir bölgə olaraq Türk dövlətlərinin iqtisadi əməkdaşlıq baxımından bir-birinə və dünyayaya təklif edəcəyi çox şey var. Lakin bununla belə indiyədək Türk dövlətləri arasında yaxın qonşu olan bəzi ölkələr istisna olmaqla, ticarət əlaqələri və dövriyyəsi mövcud potensiala uyğun deyildir. Türk dövlətləri arasında ticarət əməkdaşlığının hazırki vəziyyəti tərəqqi və çağırışların qarışığı kimi səciyyələndirilə bilər. Bir tərəfdən, son illərdə bu ölkələr arasında daha sıx iqtisadi əlaqələrə marağın artdığını göstərən bir sıra müsbət irəliləyişlər var. Digər tərəfdən, həqiqi iqtisadi inteqrasiyaya nail olmağı çətinləşdirən bir sıra maneələr hələ də mövcuddur.

Bü gün Türk Dövlətləri Təşkilatı (əvvəl Şura) üzv dövlətlərin ortaq bazarını yaratmaq, ticarəti və investisiyaları təşviq etmək, infrastrukturun inkişafını

dəstəkləməklə daha sıx iqtisadi əlaqələr yaratmağa çalışır. Məsələn, Təşkilat nəqliyyat, enerji və turizm kimi sahələrə yönəlmiş işçi qrupları yaradıb, həmçinin B2B əlaqələrini asanlaşdırmaq və investisiya imkanlarını təşviq etmək üçün bir neçə iqtisadi forum və konfrans keçirmişdir. Bu Təşkilat ilə yanaşı, bəzi türk dövlətləri də bir-biri ilə ikitərəfli ticarət müqavilələri bağlayıblar. Bu müsbət irəliləyişlərə baxmayaraq, Türk dövlətləri arasında daha sıx iqtisadi inteqrasiyaya nail olmağı çətinləşdirən bir sıra problemlər hələ də mövcuddur. Əsas problemlərdən biri bu ölkələrin müxtəlif iqtisadi sistemlərə və inkişaf səviyyələrinə malik olmasıdır. Məsələn, Türkiyənin Mərkəzi Asiyadakı bəzi qonşularından daha çox inkişaf etmiş və şaxələndirilmiş iqtisadiyyatı var ki, bu da bəzən ümumi maraq dairələrinin tapılmasını və qarşılıqlı faydalı ticarət əlaqələrinin qurulmasını çətinləşdirə bilir. Digər bir problem, bu ölkələrin bəzilərinin coğrafi cəhətdən bir-birindən təcrid olunmasıdır ki, bu da mal və xidmətlərin sərhədlərdən daşınmasını çətinləşdirir və daşınma xərclərini artırır. Nəqliyyat infrastrukturunun da mükəmməl olmaması problemlər yaradır.

Bütövlükdə, son illərdə müəyyən müsbət irəliləyişlər olsa da, Türk dövlətləri arasında ticarət sahəsində əməkdaşlığın genişləndirilməsi üçün hələ çox iş görülməlidir. Hal-hazırda mövcud olan çağırışları və maneələri həll etməklə bu ölkələrin bütün vətəndaşları üçün daha güclü, daha inteqrasiya olunmuş və daha firavan region yaratmaq imkanları genişdir.

Hazırda 4,8 milyon kvadratkilometr əraziyə, 170 milyon nəfərdən çox əhaliyə, 1,4 trilyon ABŞ dolları ÜDM-ə və 855 milyard ABŞ dollarından çox ticarət dövriyyəsinə malik türk dövlətləri bu gün Avrasiyada geoiqtisadi cəhətdən lokomotiv roluna sahib ola biləcək potensialdadır.

**TÜRK DÖVLƏTLƏRİ TƏŞKİLATI HÖKUMƏTLƏRİ ARASINDA DAŞINAN MALLAR VƏ NƏQLİYYAT VASİTƏLƏRİ HAQQINDA MƏLUMATLAR ELEKTRON ŞƏKİLDƏ MÜBADİLƏ EDİLƏCƏK**

Bu ilin aprel ayında Türk Dövlətləri Təşkilatı hökumətlərinin gömrük orqanları arasında malların və nəqliyyat vasitələrinin hərəkəti haqqında məlumat mübadiləsini asanlaşdırmaq məqsədilə “Türk Dövlətləri Təşkilatı hökumətləri arasında sadələşdirilmiş gömrük dəhlizinin yaradılması haqqında” və “Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin hökumətləri arasında beynəlxalq kombinə edilmiş yük daşımaları haqqında” sazişlər təsdiq olunub. Bu, türk dövlətləri arasında ticarət əlaqələrinin inkişafı istiqamətində daha bir önəmli addım hesab olunur və bu addım sayəsində Türk Dövlətləri Təşkilatı hökumətləri arasında daşınan mallar və nəqliyyat vasitələri haqqında məlumatlar elektron şəkildə mübadilə ediləcək.

Gömrük dəhlizinin reallaşdırılması Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu olan Orta Dəhlizin də praktiki əhəmiyyətini artırır. Regionda baş verən yeni geosiyasi və geoiqtisadi reallıqlar çərçivəsində 2020/2021-ci illərdə Orta Dəhliz üzrə yük daşımalar 350 min tondan 530 min tona qədər artıb. Gömrük dəhlizinin yaradılması isə Türk Dövlətləri Təşkilatı ölkələri arasında sürətli yük daşımalarına, o cümlədən yük daşımalarının həcmində nəzərəçarpacaq dərəcədə artıma gətirib çıxaracaq. TDT ölkələri arasında yük daşımaları prosedurlarının asanlaşdırılması ilə yanaşı, Orta Dəhliz boyunca əməkdaşlığın inkişafına, nəqliyyat, sərhəd və gömrük prosedurlarının rəqəmsallaşdırılmasına səbəb olacaq. Bu da öz növbəsində TDT ölkələri arasında, həmçinin marşrut boyunca tranzit potensialının artmasına və bu prosesdə iştirak edəcək ölkələrin regional və beynəlxalq nəqliyyat sistemlərinə inteqrasiya etməsinə töhfə verəcək.

*Azərbaycanın bu proseslərdə aktiv şəkildə iştirak etməsini yalnız qəbul edilən qanun layihələri ilə deyil, Zəngəzur Dəhlizi boyunca sürətlə aparılan işlərlə də müşahidə etmək mümkündür. Çünki Zəngəzur Dəhlizi də Orta Dəhliz üzrə Cənubi Qafqazdan keçən marşrutun diversifikasiyasına və türk dövlətlərinin coğrafi baxımdan bağlantısına xidmət edir.*

**ƏHLİMAN ABBASOV**
UNEC



# TÜRK DÖVLƏTLƏRİ ARASINDA **İNVESTİSİYA ƏMƏKDAŞLIĞI**

**Ölkələr arasında investisiya axınlarının təşviq edilməsində investisiya sazişlərinin əhəmiyyəti böyükdür. İkitərəfli investisiya sazişləri (İİS) bir ölkənin vətəndaşlarının və şirkətlərinin digər ölkədə həyata keçirdikləri özəl investisiyaların şərtlərini və qaydalarını müəyyənləşdirən beynəlxalq razılaşmalardır. Hazırda dünyada 2500-dən çox aktiv İİS-lər vardır. Bu kimi razılaşmalar xarici investorlara qarşı ədalətli və bərabər yanaşmanı, müsadirədən müdafiəni, investisiya vasitələrinin azad transferini nəzərdə tutur. Eləcə də, bu kimi sazişlər xarici investorlara tam müdafiə və təhlükəsizlik vəd edir. Bir çox ikitərəfli investisiya sazişlərində isə alternativ mübahisə həlli mexanizmləri də mövcud olur. Bu isə ikitərəfli investisiya sazişlərinə əsasən hüquqları pozulmuş investora bu mübahisəni beynəlxalq arbitraj çərçivəsində (çox zaman İnvestisiya Mübahisələrinin Həlli üzrə Beynəlxalq Mərkəz çərçivəsində) həll etməyə imkan verir.**

*Türk Dövlətləri Təşkilatı üzv ölkələrdən Azərbaycan iqtisadiyyatına 13,8 milyard ABŞ dolları, Azərbaycandan isə üzv dövlətlərə 21,3 milyard ABŞ dolları investisiya qoyulub.*

Qeyd edək ki, ölkəmizin Türkiyə Cümhuriyyəti, Qazaxıstan, Özbəkistan və Qırğızıstan ilə belə bir ikitərəfli investisiya sazişi vardır. Eləcə də, Türkiyə Cümhuriyyətinin də Qazaxıstan, Türkmənistan, Özbəkistan, Qırğızıstan ilə belə bir ikitərəfli investisiya sazişləri mövcuddur. Qırğızıstan Respublikasının Azərbaycan, Qazaxıstan, Özbəkistan və Türkiyə ilə belə sazişləri, Türkmənistanın isə sadəcə Türkiyə Cümhuriyyəti ilə belə bir sazişi vardır. Qeyd edək ki, bu sazişlərdən bəziləri investisiya mübahisələrinin İnvestisiya Mübahisələrinin Həlli üzrə Beynəlxalq Mərkəz çərçivəsində həllini nəzərdə tutsa da, bəzilərində belə bir şərt mövcud deyildir.

Ölkələr investisiya sazişlərini oxşar şərtlər əsasında çoxtərəfli qaydada bağlaya bilərlər. Belə sazişlər Çoxtərəfli İnvestisiya Sazişləri adlanır. Türk Dövlətləri arasında da investisiya hərəkətini stimullaşdırmaq baxımından belə bir saziş razılaşdırıla bilər.

*Qeyd edək ki, 2022-ci ilin sonlarında Türk Dövlətləri Təşkilatının (TDT) investisiya fondu yaradılması qərarı verilmişdir. Bu fondun nizamnamə kapitalı TDT-nin üzvü olan Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan və Özbəkistanın bərabər payları əsasında*



*formalaşacaq. Türk Dövlətləri Təşkilatının (TDT) investisiya fondunun ilkin nizamnamə kapitalı $350.000.000 təşkil edəcək. İnvestisiya fondunun yaradılmasında məqsəd regiondaxili ticarətin genişləndirilməsi və iqtisadi əməkdaşlığın dəstəklənməsi yolu ilə TDT-yə üzv ölkələrin iqtisadi inkişafına yardım etməkdir.*

2022-ci ilin sentyabr ayında açıqlanan rəsmi məlumata əsasən Azərbaycanın Türk Dövlətləri Təşkilatı (TDT) üzv ölkələrdən Azərbaycan iqtisadiyyatına 13,8 milyard ABŞ dolları, Azərbaycandan isə üzv dövlətlərə 21,3 milyard ABŞ dolları investisiya qoyulub. Həmin ildə açıqlanan digər bir rəqəmə əsasən isə indiyə qədər Azərbaycan Türkiyə iqtisadiyyatına 19,5 milyard ABŞ dolları, Türkiyə isə Azərbaycan iqtisadiyyatına 12 milyard ABŞ dolları investisiya qoyub. Göründüyü kimi, ölkəmizdən edilən investisiyaların 87 faizi Türkiyə Respublikasına edilmişdir. Eləcə də, türk dövlətlərindən ölkəmizə edilən investisiyanın 91 faizi Türkiyə Respublikasından edilmişdir.

2022-ci ildə açıqlanan rəqəmə əsasən Türkiyədən Özbəkistana edilən investisiya həcmi 1,5 milyard dollara çatmışdır. Eləcə də, son 16 ildə Türkiyənin Qazaxıstana etdiyi investisiya həcmi 4,2 milyarddan çox olmuşdur. Bu dövr ərzində ən yüksək Birbaşa Xarici İnvestisiya (BXİ) səviyyəsi 2021-ci ildə baş vermişdir. Həmin ildə Türkiyədən Qazaxıstana edilən BXİ 680 milyon dollar dəyərində olmuşdur.

Dünya Bankı qeyd edir ki, Mərkəzi Asiyanın türk dövlətləri bir sıra iqtisadi çətinliklərdən əziyyət çəkirlər. İlk növbədə bu ölkələrin hər birində institutların zəifliyi, iqtisadiyyatın resurslardan asılılığı, bazarların zəif inkişafı və dövlət sektorunun iqtisadiyyatda böyük rolu hökmrandır.
Yəni, başqa sözlə desək, bu ölkələr iqtisadi artımlarını sürətləndirmək üçün iqtisadiyyatın müxtəlif sektorlarında önəmli səviyyədə xarici investisiya qoyuluşlarına ehtiyac duyurlar. Bu ölkələrə yönələn xarici investisiyalar əsasən təbii sərvətlərin istismarı sahəsinə qoyulmuşdur. Bu da iqtisadiyyatın önəmli ölçüdə təbii sərvətlərdən asılı olmasının kökündə dayanan səbəblərdəndir. Yəni, bu iqtisadiyyatlar regional əməkdaşlıq kontekstində xarici ölkələrə investisiya edəsi deyil, daha çox investisiyaya ehtiyac duyan ölkələr qismindədirlər.

*Təbii ki, Türk dövlətləri arasındakı iqtisadi əməkdaşlığın dərinləşməsi, eləcə də Türk dövlətləri arasında kapital hərəkətinin asanlaşdırılması bu ölkələr arasında investisiya hərəkətini stimullaşdıra bilər. Lakin investisiya axınlarının yüksək səviyyəyə çatdırılması üçün institutsional şərtlərin yaxşılaşdırılması, iqtisadiyyatların liberallaşdırılması, biznes mühitinin inkişaf etdirilməsi və özəl sektorun genişləndirilməsi zəruridir.*

**i.f.d., dos. Xətai Alıyev**
UNEC



# AZƏRBAYCAN İQTİSADİYYATI: **ÖTƏN 30 İLƏ SƏYAHƏT**

**Cənubi Qafqaz reginonunda, Xəzər dənizinin sahilində yerləşən Azərbaycan Respublikası tarixi inkişaf yolu baxımından özünəməxsus xüsusiyyətləri ilə diqqəti cəlb edir. Keçmiş Sovet İttifaqının dağılması nəticəsində 1991-ci ildə öz müstəqilliyini bərpa edən Azərbaycan beynəlxalq aləmə inteqrasiya və bazar iqtisadiyyatına keçidi özü üçün əsas prioritet kimi müəyyənləşdirdi. 70 ildən çox müddət ərzində Sovet İttifaqının tərkibində mərkəzi planlama iqtisadiyyatı sistemində və xaricə qapalı bir şəraitdə yaşayan ölkə müstəqilliyin bərpasından sonra 1992-ci il martın 2-də Birləşmiş Millətlər Təşkilatına üzv oldu və digər ölkələrlə bərabərhüquqlu əməkdaşlıq yolunu seçdi.**

*Vətən Müharibəsində qazanılan zəfər Azərbaycan iqtisadiyyatında işğaldan azad olunan ərazilərin bərpasını yaxın onilliyin əsas çağırışı halına gətirmişdir.*

Müstəqilliyin bərpasından sonrakı ilk illər Azərbaycan üçün ciddi sosial-iqtisadi-siyasi qeyri-sabitliklə tarixdə öz yerini almışdır. Sovet İttifaqının dağılması ilə istehsal-təchizat proseslərində qırılmalar və bazar iqtisadiyyatına keçid prosesində qəbul edilən yanlış qərarlar (pul emissiyasının kəskin artması və s.) ciddi iqtisadi böhran və hiperinflyasiya ilə nəticələndi. İqtisadi böhranla bərabər Ermənistan-Azərbaycan müharibəsi və ölkə ərazisinin əhəmiyyətli hissəsinin itirilməsi, qaçqın və məcburi köçkün problemləri sosial vəziyyəti daha da ağırlaşdırmışdır. Buna görə də 1991-1994-cü illər ölkənin iqtisadi inkişaf yolunda “Böhran” dövrü kimi yadda qaldı.

Ölkədə sosial-iqtisadi-siyasi sabitliyə 1994-1995-ci illərdən başlayaraq tədricən nail olundu. Bu prosesdə 1994-cü il sentyabrın 20-də Xəzər Dənizinin Azərbaycan sektorunda yerləşən neft yataqlarının işlənilməsi üzrə pay bölgüsünü nəzərdə tutan və “Əsrin Müqaviləsi” adı ilə tarixə düşən sazişin imzalanması əhəmiyyətli rol oynadı və ölkə iqtisadiyyatı “Restrukturizasiya” dövrünə qədəm qoydu.

Neft sektoruna qoyulan investisiyalar və ixracından əldə olunan gəlir tədricən ölkə iqtisadiyyatında təbii resurs asılılığını artırdı. 2005-ci ildə Bakı-Tbilisi-Ceyhan boru kəmərinin açılışına paralel olaraq ölkədə neft istehsalı və ixracı kəskin şəkildə artdı və bu artıq Azərbaycan iqtisadiyyatında yeni iqtisadi dövrün – “Neft Bumu” dövrünün başlanması demək idi.

Ölkə iqtisadiyyatında neft hasilatı və ixracından asılılığın yüksək olması mənfi neft qiyməti şoklarına makroiqtisadi həssaslığı gücləndirdi. Bu kontekstdə 2005-ci ildən

sonra Azərbaycanın iqtisadi inkişaf yolunda növbəti ciddi hadisə kimi 2014-cü ilin sonundan başlayaraq neft qiymətlərində kəskin (təxminən 3 dəfə) azalmanı qeyd etmək olar. 2015-ci ilin əvvəlində ölkə valyutasının dəyər itirməsi gözləntiləri fonunda iqtisadiyyatda kəskin dollarlaşma Mərkəzi Bankı 1 il ərzində 2 dəfə (21 fevral və 21 dekabr 2015-ci il) ölkə valyutasını digər valyutalar qarşısında kəskin ucuzlaşdırmağa (manatın devalvasiyası) məcbur etdi. Birinci devalvasiyada 1 dollar almaq üçün tələb olunan ölkə valyutasının miqdarı (manatın dollar qarşısında məzənnəsi) 0,78-dən 1,05-ə, ikinci devalvasiyada isə 1,55-ə artırıldı. Bu və bərabərində müşahidə olunan digər siyasi-iqtisadi məzmunlu qərarlar (məs. Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin hazırlanılması) ölkə iqtisadiyyatında "Neft Bumu" dövrünün bitdiyi və "Post-neft Bumu" dövrünün başladığı qənaətini formalaşdırdı. Bununla belə, sonrakı dövrlərdə neft qiymətlərində təkrar yüksəlmə Azərbaycanda makroiqtisadi sabitliyin qorunmasında əhəmiyyətli rol oynadı və "Post-neft Bumu" dövrünə keçidlə bağlı dəyərləndirmələri arxa plana saldı.

Azərbaycanın ÜDM miqdarının dinamikasına baxdıqda, 2005-ci ildən başlayaraq neft qiymətlərinin aşağı olduğu 2009, 2015 və 2020-ci illər xaricində əsasən müsbət iqtisadi artım nəzərə çarpır.

Neft sektorunun ÜDM-də çəkisi xüsusilə neft bumu dövrünün ilk illərində daha yüksək (50-55%) olmuşdur. Sonrakı illərdə neft sektorunun xüsusi çəkisinin azalması fonunda nominal ÜDM miqdarında artan trendin qorunması müsbət hal kimi qeyd oluna bilər. Bununla belə, qeyri-neft sektoru üzrə iqtisadi artımın əldə olunmasında büdcə xərclərindən qaynaqlanan tələb artışını da diqqətə almaq vacibdir. Çünki, büdcə xərclərinin maliyyələşdirilməsində neft gəlirlərindən istifadə (xüsusilə Azərbaycan Respublikası Dövlət Neft Fondundan birbaşa transferlər) əhəmiyyətli rola malikdir.

Azərbaycan iqtisadiyyatının keçdiyi inkişaf yoluna nəzər saldıqda iqtisadiyyat quruculuğunda, xüsusilə neft sektorunda əhəmiyyətli uğur qeydə alınsa da, ÜDM-nin formalaşmasında təbii resursların çəkisinin yüksək olması iqtisadiyyatın diversifikasiyası istiqamətində daha ciddi addımların atılmasını zəruri edir. Azərbaycan iqtisadiyyatı ilə bağlı digər mühüm məsələ isə istehsalın paytaxt Bakı şəhərində təmərküzləşməsidir. Rəsmi statistikaya görə 2022-ci ildə iqtisadiyyatda məhsul buraxılışının 74%-i Bakı şəhərinin payına düşmüşdür. Bundan başqa, Vətən Müharibəsində qazanılan zəfər Azərbaycan iqtisadiyyatında işğaldan azad olunan ərazilərin bərpasını yaxın onilliyin əsas çağırışı halına gətirmişdir.

Azərbaycan iqtisadiyyatı ilə bağlı qeyd olunan əsas məsələlər dövlətin yaxın gələcək üçün iqtisadi strategiyasında xüsusi yer tutur. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" ölkə iqtisadiyyatını dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyata çevirməyi, ölkəni rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanına və "yaşıl artım" ölkəsinə çevirməyi hədəfləyir. Eyni zamanda, Milli Prioritetlər içində işğaldan azad olunmuş ərazilərə böyük qayıdış və Azərbaycanda dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət quruculuğu öz yerini almaqdadır.



**AR PREZİDENTİNİN 2021-Cİ İL 2 FEVRAL TARİXLİ SƏRƏNCAMI İLƏ TƏSDİQ EDİLMİŞ**

**"AZƏRBAYCAN 2030:**

**SOSİAL-İQTİSADİ İNKİŞAFA DAİR MİLLİ PRİORİTETLƏR" ÖLKƏ İQTİSADİYYATINI DAYANIQLI ARTAN RƏQABƏTQABİLİYYƏTLİ İQTİSADİYYATA ÇEVİRMƏYİ, ÖLKƏNİ RƏQABƏTLİ İNSAN KAPİTALI VƏ MÜASİR İNNOVASİYALAR MƏKANINA VƏ "YAŞIL ARTIM" ÖLKƏSİNƏ ÇEVİRMƏYİ HƏDƏFLƏYİR**

**QRAFİK 1: ÜMUMİ DAXILI MƏHSUL (ÜDM), CARİ QİYMƏTLƏRLƏ**



**Aslan Əzimzadə**
UNEC



# QAZAXISTAN İQTİSADİYYATININ **MÜASİR VƏZİYYƏTİ VƏ İNKİŞAF TRENDLƏRİ**

**Bu gün Qazaxıstan Mərkəzi Asiya ölkələri arasında ən yüksək makroiqtisadi göstəricilərə sahib ölkədir. Belə ki, 2021-ci ilin göstəricilərinə nəzər salsaq görərik ki, Qazaxıstanın Ümumi Daxili Məhsulu 197,11 milyard ABŞ dolları təşkil etmişdir ki, bu da Özbəkistanın, Tacikistanın və Qırğızıstanın eyni il üzrə ÜDM-dən müvafiq olaraq, 2,8, 22,5 və 23,1 dəfə, Türkmənistanın isə 2021-ci il üzrə təxmin edilən ÜDM-dən 3,2 dəfə daha böyükdür.**

*Qazaxıstan üçün ən böyük prioritet innovasiya və yüksək texnologiyalar sahəsidir*

Lakin qeyd etmək lazımdır ki, bu gün digər Türk Dünyası ölkələri kimi Qazaxıstan da öz iqtisadi potensialından tam istifadə etməməkdədir. Uzun illər ərzində Qazaxıstanda mütərəqqi və qabaqlayıcı iqtisadi inkişafı təmin edən hər hansısa bir spesifik modelin formalaşmasını görə bilmirdik. Lakin 1 sentyabr 2022-ci ildən Qazaxıstanda formalaşmağa başlayan yeni iqtisadi strategiya bu ölkənin iqtisadi inkişafında önəmli bir dönüş nöqtəsi ola bilər.

İlk öncə qeyd etmək lazımdır ki, bu gün ölkələrin dayanıqlı inkişafını səciyyələndirən ən önəmli faktor investisiyalardır. Bu investisiyalar birbaşa olmalı, həm daxili investorlardan, həm də xarici investorlardan cəlb edilməlidir. Qəbul edilən yeni iqtisadi strategiyada ən maraqlı məqam "İnvestisiya müqabilində tarif" proqramıdır. Bu strategiya iqtisadiyyatda əlavə dəyərin formalaşması və real sektorun inkişafı istiqamətində həqiqətən mühüm strategiya ola bilər. İkinci istiqamət, şəffaflığın təmin edilməsi üçün dövlət monitorinq sistemində iştirakdır. Bu da inhisar bazarlarının şəffaflığının artırılmasına kömək edəcək.

Nəticədə sözügedən strategiyanın yüksək iqtisadi dividentlər gətirəcəyi gözlənilir. Belə ki, ilkin hesablamalara görə "İnvestisiya müqabilində tarif" adlı yeni proqram sənayeyə illik 400 milyard tengeyə qədər investisiya cəlb etmək üçün nəzərdə tutulub ki, bu da



təqribən 900 milyon dollara yaxın maliyyə vəsaitidir.

Digər tərəfdən formalaşan yeni iqtisadi strategiya çərçivəsində xarici investorlar üçün maraqlı məqam xüsusi iqtisadi zonalarda investisiyaların artırılması müqabilində investorlara əlavə güzəştlərin verilməsi üçün diferensiallaşdırma siyasətinin həyata keçirilməsidir. Təbii ki, investisiyalarla bağlı əsas iqtisadi güzəştlər prioritet sahələrdə daha yüksək olacaqdır. Prioritet sahələr hələ tam dəqiqləşməsə də düşünürəm ki, bu gün Qazaxıstan üçün ən böyük prioritet innovasiya və yüksək texnologiyalar sahəsi olmalıdır. Digər tərəfdən, prioritet sahədə fəaliyyəti olmayan investorlar üçün vergi güzəştləri tətbiq edilmədən torpaq sahələrinin veriləcəyi də gözlənilir ki, bu da digər sahələrdə çalışan investorlar üçün də stimul ola bilər.

***Düşünürəm ki, Qazaxıstanda müxtəlif sektorların rentabelliyinə müvafiq olaraq, kommersiya banklarının verdiyi kreditlərin diferensiallaşdırılmasına ehtiyac vardır. Hesab edirəm ki, bu siyasət iqtisadiyyatın müxtəlif sahələrinə ciddi təkan verə bilər. Faiz dərəcələrinin diferensiallaşdırılması siyasəti kredit resurslarının səmərəli bölüşdürülməsinə də səbəb ola bilər.***

Təbii ki, digər mühüm məsələ nəqliyyat və logistikadır. Qeyd edək ki, bu gün biz dünyada dəyişən geosiyasi və geoiqtisadi vəziyyətin tərkib hissəsi kimi nəqliyyat-logistika böhranı ilə üz-üzəyik. Belə olan halda, Avropa ilə Asiyanı birləşdirən mühüm Transxəzər nəqliyyat dəhlizinin, o cümlədən Çinin “Bir kəmər – Bir yol” layihəsinin üzvü olan Qazaxıstanın çox mühüm üstünlüyü var. Təbii ki, bu istiqamətdə nəqliyyat-logistika imkanlarının inkişafını xarakterizə etmək, potensialdan tam istifadə etmək lazımdır.

***Nəticədə deyə bilərəm ki, bu gün Qazaxıstan öz dayanıqlı iqtisadiyyatını inşa edir. Qazaxıstan yüksək iqtisadi potensiala malik ölkədir. Bu səbəbdən hesab edirəm ki, Qazaxıstanda formalaşan yeni mütərəqqi iqtisadi idarəetmə və yeni iqtisadi inkişaf modeli çox yüksək iqtisadi səmərə verəcəkdir.***



**Nurkhodzha Akbulayev**
UNEC

# QIRĞIZISTAN İQTİSADIYYATINA BİR BAXIŞ

**Sovet İttifaqının dağılmasından sonrakı son üç onillikdə Qırğızıstan çətin iqtisadi və sosial transformasiyadan keçib. Digər keçid iqtisadiyyatları kimi müstəqillik ilk onillikdə böyük iqtisadi və sosial problemlərlə üzləşdi. Bununla belə, 2000-ci illər nisbi bərpa dövrünün başlanğıcı oldu.**

Qırğızıstan regionun digər ölkələri ilə müqayisədə əhali və ümumi daxili məhsula (ÜDM) görə ən kiçik ölkə olsa da, digər ölkələrdən fərqli olaraq daha liberal və açıq yanaşma nümayiş etdirib. Orta Asiya türk dövlətləri arasında BVF-yə ilk üzv olan Qırğızıstan həm də 1998-ci ildə Dünya Ticarət Təşkilatına üzv olan yeganə türk dövləti olub.

*Qırğızıstan region ölkələri arasında ən yüksək açıqlıq göstəricisi olan ölkədir.*

Qırğızıstanın coğrafi mövqeyinə görə bəzi üstünlükləri və mənfi cəhətləri var. Ən mühüm çatışmazlıq Qərbdəki əsas iqtisadi mərkəzlərdən uzaqda yerləşən dağlıq coğrafiyaya malik olmasıdır. Qırğızıstan regionun digər ölkələri ilə müqayisədə əhəmiyyətli miqdarda yeraltı sərvətlərə malik deyil, yalnız qızıl mədəni ehtiyatları əhəmiyyətli sayıla bilər. Ona görə də təbii sərvətlərə görə Qazaxıstan, Özbəkistan, Türkmənistan və Azərbaycan kimi ölkələrlə müqayisə etdikdə sərvət baxımından yoxsul ölkə sayıla bilər. Lakin bu coğrafiyada təbiətin və mədəni turizmin inkişafı üçün əlverişli olan xüsusi ərazilər var.

Qırğızıstanın inkişaf prosesində daha bir üstünlüyü onun islahatçı və açıq fikirli olmasıdır. Regionun digər ölkələri ilə müqayisədə beynəlxalq sistemə inteqrasiya axtarışında və liberal bazar iqtisadiyyatı olmaqda daha iddialı yanaşma nümayiş etdirmişdir.

Qırğızıstanın xüsusilə qızıl mədənləri ölkədə böyük əhəmiyyət kəsb edir, ümumi sənaye istehsalına və ixracına mühüm töhfə verir. Eyni zamanda, ölkə adambaşına düşən g əlirə görə 1374 dollarla ən aşağı gəlirə malik ölkələrdəndir.

Qırğızıstan regionda Özbəkistandan sonra xarici ticarət kəsiri olan ikinci ölkədir. Qırğızıstanın xarici ticarət strukturu ümumiyyətlə regiona yönəlib. Ancaq qızıl və qiymətli metal məmulatları kimi məhsullarda Qırğızıstanın bölgə xaricindəki ölkələrlə də sıx xarici ticarət əlaqələri var. Xarici ticarətin həcmi ÜDM-ə yaxındır və ölkənin açıqlıq səviyyəsi 99% təşkil edir. Region ölkələri arasında ən yüksək açıqlıq göstəricisi olan ölkə Qırğızıstandır.



Qırğızıstanın xarici ticarətində qiymətli metallar başda olmaqla qızıl, tekstil məhsulları, tərəvəzlər, elektrik enerjisi, kerosin, süd və süd məhsulları, meyvələr, qeyri-üzvi kimyəvi maddələr və pambıq lifləri ixracatın əhəmiyyətli komponentlərini təşkil edir. Digər tərəfdən, neft məhsulları və təbii qaz, ikinci əl avtomobillər, geyim və aksessuarlar, dərmanlar, elektrik rabitə vasitələri və cihazları, şəkər, ət və ət məhsulları və buğda kimi məhsullar Qırğızıstanın mühüm idxal mallarıdır.

Qırğızıstanda birbaşa xarici investisiyalar ÜDM-in 3,1%-nə uyğun olaraq çox aşağı səviyyədədir. Qırğızıstanın beynəlxalq sərmayələrin cəlb edilməsində çatışmazlıqlarından biri də regionun digər ölkələri ilə müqayisədə əhalinin sıxlığının az olması və nəticədə bazarın kiçik olmasıdır.

Qırğızıstan urbanizasiya nisbəti 37%-lə digər bölgədəki türk respublikaları ilə müqayisədə ən aşağı urbanizasiyaya malik ölkədir. 6,4 milyon əhalinin demək olar ki, üçdə ikisi kənd yerlərində yaşayır. Bu əhali strukturu ÜDM-in tərkib hissələrinə görə kənd təsərrüfatına əsaslanan iqtisadiyyat kimi qəbul edilsə də, 2019-cu ildə kənd təsərrüfatı istehsalının payı tədricən azalaraq 14%-ə düşüb. Ona görə də urbanizasiya olmadan xüsusilə xidmət sektorunun, sonra isə sənaye sektorunun payı artmış, kənd təsərrüfatı istehsalının ÜDM-də payı azalmışdır. Ölkədə istehsal olunan əsas kənd təsərrüfatı məhsullarına taxıl, kartof, tərəvəz, şəkər çuğunduru və çiy süd daxildir.

Əhalinin 63%-i qeyri-şəhərlərdə yaşadığı halda, kənd təsərrüfatında məşğulluğun 20%-dən aşağı olması xidmət və sənaye sektorlarının da kənd yerlərində əhəmiyyətli məşğulluğu təmin etdiyini göstərir. Bununla belə, ölkədə yoxsulluq səviyyəsi 2019-cu ildə 20,1% təşkil edib ki, bunun da 74%-i kənd yerlərindədir.

2020-ci ildə Qırğızıstanın sənaye sektorunun ümumi strukturuna nəzər saldıqda, emal sənayesinə qoyulan investisiyaların 82% nisbətində ağırlıqlı olduğu görülür. Bundan əlavə, sənayenin ümumi istehsalında elektrik enerjisi, qaz, buxar və kondisionerləşdirmə sektorlarının payı 12%, mədənçıxarma sənayesinin payı 5%, su təchizatı, tullantıların təmizlənməsi və təkrar emalı sənayesinin payı isə 1 faizə yaxındır. İstehsal sənayesində ən mühüm sahə qida emalı sənayesidir. Bundan əlavə, hazır geyim sənayesi və mədən sənayesi kimi digər alt sektorlar hələ də ölkədə investisiya gözləyən mühüm sahələrdir. Sənaye istehsalında xarici investisiyalar mühüm rol oynayır.

Ölkədə xidmət sektorunun ÜDM-də payı 2000-ci illərdə artmışdır. Sektorun mühüm alt sektorları ticarətdir; avtomobillərin və şəxsi istifadə mallarının təmiridir. 2020-ci ildə bu alt sektor ümumi xidmət sektorunun 74%-ni təşkil edir. Səhiyyə, sosial iş və təhsilin payı kifayət qədər aşağıdır.

*Son on ildə müstəqillik əldə etdikdən sonra makroiqtisadi mənzərəsinə nəzər saldıqda, indiki rəqəmlərdə və artım tempində ciddi dəyişiklik olmadığı görünür.*



**Aygün Abdulova**
UNEC

# ÖZBƏKİSTAN İQTİSADİYYATI: DAVAMLI İNKİŞAFA DOĞRU

**Özbəkistan Respublikası öz tarixi inkişafında mühüm mərhələni yaşayır. 2017-ci ildən başlayaraq müstəqillik dövründə ilk dəfə olaraq xarici siyasət prioritetləri dəqiq müəyyən edilmiş, praqmatizmə və milli maraqlarından ən çevik istifadəyə əsaslanan mahiyyətcə yeni xarici iqtisadi əlaqələr qurulmağa başlanılmışdır. Bu gün Özbəkistan regionun açıq iqtisadiyyatlı aparıcı dövlətlərindən birinə çevrilərək möhtəşəm sosial-iqtisadi islahatlar həyata keçirir. Özbəkistanın yeni iqtisadi siyasəti dünya və regional güclər, maliyyə mərkəzləri, ölkələrin inteqrasiya birlikləri və təbii ki, qonşu Mərkəzi Asiya dövlətləri və Rusiya Federasiyası ilə tam hüquqlu əməkdaşlığın genişləndirilməsinə yönəldilmişdir.**

*Özbəkistanda dünya iqtisadiyyatına daha çox inteqrasiya etməklə və beynəlxalq əmək bölgüsündə iştirak etməklə əhalinin ümumi rifah səviyyəsinin yüksəldilməsi üçün ilkin şərtlər yaranmışdır.*

Özbəkistan dünya iqtisadiyyatına daha çox inteqrasiya etməklə və beynəlxalq əmək bölgüsündə iştirak etməklə əhalinin ümumi rifah səviyyəsinin yüksəldilməsinə çalışır. Ən diqqətəlayiq nailiyyətlər arasında valyuta bazarının liberallaşdırılması, valyuta məzənnələrinin çoxluğunun aradan qaldırılması, qiymətlərin və ticarətin tədricən liberallaşdırılması, malların və xidmətlərin sərbəst hərəkəti, xarici investisiyaların cəlb edilməsi, azad iqtisadi zonaların açıqlanması, Avrasiya İqtisadi İttifaqı ölkələri ilə qarşılıqlı ticarətdə idxal rüsumlarının olmaması, idxal tariflərinin və aksizlərin azaldılması, sosial təhlükəsizlik şəbəkəsinin əhatə dairəsinin genişləndirilməsi, Mərkəzi Banka daha çox müstəqillik verilməsi, milli statistikaya çıxışın yaxşılaşdırılması, müəssisələr və fiziki şəxslər üçün vergi dərəcələrinin aşağı salınması kimi yenilikləri göstərə bilərik.

İqtisadi inkişafı əks etdirən göstəricilərə baxsaq, Cədvəl 1-dən görsənir ki, əvvəlki illərə nisbətən vəziyyət yaxşılaşır.
Bu gün Özbəkistan Respublikasının dünyadakı maliyyə-iqtisadi mövqeyi



keçid iqtisadiyyatına malik, sürətlə inkişaf edən ölkənin göstəricilərinə uyğundur və beynəlxalq ictimaiyyətin layiqli qiymətini alır. Ölkə iqtisadiyyatı üçün əsas risklər dünya iqtisadiyyatının təlatümlü olması, dünya bazarlarında rəqabətin artması, texnoloji bazanın geriliyi, xammal yönümlü olması, ixracın şaxələndirilməsinin aşağı olması və kənd təsərrüfatının ölkədəki payının hələ də yüksək olmasıdır. Bundan başqa, siyahıya ÜDM-in strukturu, kölgə iqtisadiyyatı, uzunmüddətli maliyyə resurslarının olmaması və sosial məşğulluq risklərini də aid etmək olar.

Hazırda ölkədə struktur islahatlarının dərinləşdirilməsinə, iqtisadiyyatın əsas sahələrinin müasirləşdirilməsinə, şaxələndirilməsinə və regionların tarazlaşdırılmış sosial-iqtisadi inkişafına yönəlmiş kompleks tədbirlər həyata keçirilir. Ölkədə investisiya mühiti yaxşılaşıb. Bununla bərabər iqtisadiyyatın enerji səmərəliliyinin aşağı səviyyəsi, təbii ehtiyatların səmərəsiz istehlakı, texnologiyaların ləng yenilənməsi, "yaşıl" iqtisadiyyatın inkişafı üçün innovativ həllərin tətbiqində kiçik biznesin zəif iştirakı milli prioritetlərə nail olmağa mane olan faktorlardır.

**CƏDVƏL 1.**
**ÖZBƏKİSTAN RESPUBLİKASININ ƏSAS MAKROİQTİSADİ GÖSTƏRİCİLƏRİ**

| | 2020 | 2021 | 2022 |
|---|---|---|---|
| **Ümumi daxili məhsul** (milyard manat) | 580203 | 620117 | 888 341 |
| **Real ÜDM artımı** (%) | 1,6 | 4,9 | 5,7 |
| **ÜDM deflyatoru** (%) | 11,9 | 18,6 | 24 |
| **İstehlak qiymətləri indeksi** (əvvəlki ilin dekabrına %-lə) | 11,1 | 11 | 10 |
| **Əsas kapitala qoyulan investisiyaların həcmi** (milyard manat) | 202001 | 225922 | 240000 |
| **– əvvəlki illə müqayisədə real artım** (%) | –8,2 | 1,1 | 4,3 |
| **Mal və xidmətlərin ixracı** (mln. USD) | 15128 | 17469 | 50000 |
| – əvvəlki illə müqayisədə real artım (%) | –13,4 | 3,8 | 4,3 |
| **Mal və xidmətlərin idxalı (mln. USD)** | 21172 | 24280 | 30670 |
| – əvvəlki illə müqayisədə real artım (%) | –12,8 | 4 | 4,3 |
| **Xarici ticarət balansı (mln. USD)** | –6044 | 7811 | 24 491 |

**Mənbə:** *Özbəkistan Prezidenti yanında Statistika Agentliyi - stat.uz*

**Prof. Dr. Mehmet YÜCE**
UNEC



# TÜRKİYE'NİN MEVCUT İKTİSADİ DURUMUNA **BİR BAKIŞ**

**Türkiye, 1980 yılında ithal ikameci büyüme modelini terk ederek dışa açık büyüme modeline geçmiştir. Bu kapsamda literatüre 24 Ocak 1980 ekonomik istikrar kararları olarak geçen neo-liberal bir yaklaşımı benimseyen Türkiye hem ihracatta, hem de ithalatta birlikte serbestliğe giderek bu kapsamda dış ticaretteki kısıtlamalar en aza indirilmiş ve ihracat teşvik edilmiştir. İşte Türkiye'nin hali hazırdaki dışa açık ve ihracatta dayalı ekonomik yapısı bu politika ekseninde şekillenmiştir. Türkiye ekonomik gelişimi de izlenen bu politikalar sonucu olmuştur.**

Türkiye'nin 24 Ocak kararları ile birlikte izlemiş olduğu dışa açık büyüme stratejisi bazı sorunlara kaynak teşkil etmiş olmakla birlikte Türk ekonomisini dünya ekonomisiyle entegre etme başarısını göstermiştir. Bu başarı başta dış ticaret olmak üzere imalat ve savunma sanayinin gelişmesinde kendisini açık bir şekilde hissettirmiştir. Bu olumlu gelişme doğal olarak GSMH (GDP) ve ekonomik kalkınma düzeyinin yükselmesi sonucunu doğurmuştur. 2021 yılı verilerine göre Türkiye yaklaşık 720 milyar ABD Doları GSYH ile Dünya'nın en büyük 19. ekonomisi konumuna yükselmiştir. Ayrıca OECD ve G20 üyesi olan Türkiye, ekonomik gelişiminin sonucu yaratılan katma değeri az gelişmiş, ya da gelişmekte olan ülkelerle paylaşmaktan kaçınmayan bir ülke profilini sergilemiştir. Türkiye'nin uluslararası yardımlaşmada giderek önemi artmakta ve halihazırda Resmi Kalkınma Yardımı bağışçısı bir ülke konumuna gelmiş bulunmaktadır.

*Türkiye son beş yıl içinde savunma sanayi alanında ciddi gelişme sağlamıştır. Türk savunma sanayi dünyanın birçok ülkesine ihracat ağını genişletmenin yanı sıra birçok Türk şirketi, dünyanın en iyi 100 şirketi arasına girmiş bulunmaktadır.*

Türkiye, 2002 ve 2017 yılları arasında ülkeyi üst orta gelir grubundaki yüksek seviyelere taşıyan ve yoksulluğu azaltan iddialı reformlar yaparak önemli büyüme oranları elde etmiştir. Günde 5,50 ABD Doları elde eden yoksulluk sınırının altındaki vatandaşların payı, 2002 ve 2018 yılları arasında dörtte üç oranında azalarak 8,5%'e düşmüştür. Ancak, son on yılda reform ivmesi azaldıkça verimlilik artışı yavaşlamıştır. Bu dönemde büyümeyi yüksek kredi ve

talep teşvikleriyle destekleme çabaları Türk ekonomisinin iç ve dış kırılganlıklara maruz kalmasına neden olmuştur. Artan özel sektör borcu, kalıcı cari açıklar, yüksek enflasyon ve yüksek işsizlik ile birlikte Ağustos 2018'den bu yana makro-finansal istikrarsızlıkla birleşince ülke ekonomisi üzerinde ciddi olumsuz etkiler doğurmuştur. Ortaya çıkan küresel ekonomik krizler, bölgesel istikrarsızlıklar da ülkedeki reform süreci ve politikalarını sekteye uğratmıştır. 2019 yılı sonunda başlayan ve etkileri 2020 yılı başından başlamak üzere tüm dünyayı sarsan küresel salgın Covid-19'da ülkeyi olağan politikaların dışına iterek olağanüstü önlemler almaya sevk etmiştir. Bu süreçte hükümetin COVİD-19'dan kaynaklı ekonomik duruma tepkisi hızlı ve zamanında olması başarılı olarak kabul edilmekle birlikte uygulanan gevşek para politikası ve hızlı kredi genişlemesi ekonomi politikası açısından eleştirilmiştir. Her ne kadar yapılan bu düzenlemeler eleştirilse de, Türkiye ekonomisi 2020'de G20 ve OECD'de büyüme kaydeden birkaç ülkeden biri olmuştur. Fakat büyüme ile birlikte 2020'de yüzde 20 ve devam eden yıllarda ise büyüme ivmesi sergileyen agresif bir enflasyonun ortaya çıkmasına neden olmuş, aynı zamanda genç işsizlik oranlarını artırmıştır.

Dünya Bankası, "Uluslararası İmar ve Kalkınma Bankası Uluslararası Finans Kurumu ve Çok Taraflı Yatırım Garanti Ajansı'nın Türkiye Cumhuriyeti'ne Yönelik 2018 My – 2021 My Dönemini Kapsayan" raporuna göre; Türkiye 2000'li yılların başlarından bu yana önemli ekonomik ve sosyal kalkınma sonuçları elde etmiştir. Bu performansı ülkeyi dünyanın ilk 20 büyük ekonomisi haline getirerek küresel mevcudiyetini daha da sağlamlaştırmıştır. Makroekonomik istikrar, finansal sektör reformu, Avrupa Birliği (AB) ile yakınlaşan ekonomik bağlar ve ekonominin önemli bir bölümünün tarım ekonomisinden imalat ve hizmetler ekonomisine dönüşümü, Türkiye'nin büyüme performansına katkıda bulunan faktörler olmuştur. Yapılan geniş kapsamlı reformlar dinamik bir özel sektörü desteklemiş, ülkeyi dış ticarete açmış, önemli altyapı yatırımlarını teşvik etmiş ve bir yandan gelirleri yükseltirken aynı zamanda sosyal göstergelerin OECD normlarına daha fazla yakınlaşmasını sağlamıştır.



**DIŞA AÇIK BÜYÜME MODELİ UYGULAYAN**
**TÜRK EKONOMİSİNDE**
**EKONOMİK KALKINMADA DIŞ TİCARET BÜYÜK ÖNEM ARZ ETMEKTEDİR**

Türkiye'de cumhuriyet'in kuruluşuyla birlikte kamu destekli sanayileşme hareketi başlamıştır. Ancak 1980'lerde iktisadi serbestleşme, ihracata dayalı büyüme ve özel sektörün gelişmesiyle birlikte sanayileşme büyük bir ivme kazanmıştır. 2002'den sonra yakalanan ivme ile Türk sanayi sektörü küresel ekonomiyle bağlantılı bir şekilde uluslararası aktörlerin arasına yerleşmiştir. Üretim gücü, altyapısı ve rekabet etme yeteneği sağlanan istikrarla artan Türk sanayisi teknolojik kapasiteyi ileri seviyeye taşımayı başarmıştır. Dünya sanayisinden aldığı payı yüzde 0,57'den yüzde 0,85'e çıkaran Türkiye'nin gelecek beş yılda bu oranı yüzde 1,2'nin üzerine taşıması planlanmaktadır. Üretim değeri, istihdam ve ihracat açısından ciddi büyüme gösteren Türk sanayisi 2020'de pandemiye rağmen 201,65 milyar dolarlık üretim gerçekleştirmiştir. Son on sekiz yılda ihracatını üç kattan fazla artıran sektör, kişi başına düşen üretim değerini de 15 bin 945 dolardan 34 bin 470 dolara yükseltmiştir. 2002'de istihdam edilen kişi başına düşen üretim değerinde dünya ortalamasının gerisinde yer alan Türk sanayisi 2020'de dünya ortalamasından yaklaşık yüzde 13 daha fazla üretim değeri elde eder hale gelmiştir.

2019 yılı TÜİK Genel Ticaret Sistemi verilerine göre imalat sanayii ihracatı 171,22 milyar dolar, ithalatı ise 162,14 milyar dolar olmuştur. İmalat sanayiinde ihracatın ithalatı karşılama oranı 2018 yılında %90,6 iken, 2019 yılında %105,6'ya yükselmiştir. Üretim Endeksi ve istihdam 2002-2018 dönemindeki genel artış eğilimini devam ettirmektedir. 2020 yılı UNIDO "Rekabetçi Endüstriyel Performans Endeksi" verilerine göre, Türkiye 152 ülke içerisinde 29. sırada yer almıştır. İmalat sanayii katma değerinin GSYH içerisindeki payı dünya ortalamasının üzerindeki seyrini devam ettirerek 2018 yılında %17,1 olmuştur. Kişi başına imalat sanayii ihracatı, 2002-2018 döneminde dünya ortalamasına paralel seyrini devam ettirmiştir.

Türkiye son beş yıl içinde savunma sanayi alanında ciddi gelişme sağlamıştır. Türk savunma sanayi dünyanın birçok ülkesine ihracat ağını genişletmenin yanı sıra birçok Türk şirketi, dünyanın en iyi 100 şirketi arasına girmiş bulunmaktadır. Defense News sınıflandırmasına göre, 7 Türk şirketi, savunma sanayi alanında yüksek kaliteli küresel rekabet listesine girmiş bulunmaktadır. Türkiye'nin en büyük savunma şirketi olan ASELSAN, dünyanın en iyi şirketleri arasında 49. sıraya yükselmiştir. Aselsan'ın savunma işinden elde ettiği gelir 2,25 milyar dolara yükselmiştir. TAI, 1,3 milyar dolar gelirle 67. sırada yer alırken, Roketsan 814 milyon dolarla 86. sırada yer almıştır. Türk Havacılık ve Uzay Sanayii (TAI) olarak da bilinen TUSAŞ, 48. sırada yer alırken, BMC, Roketsan, STM, FNSS ve HAVELSAN aynı sıralamada ilk 100 şirket arasında yer almaktadır. Stokholm Uluslararası Barış Araştırma Enstitüsü'ne (SIPRI) göre Türkiye dünyanın en büyük 14. savunma silahları ihracatçısı konumundadır. Bu da toplam küresel ihracatın yüzde 1'ini oluşturmaktadır.

Dışa açık büyüme modeli uygulayan Türk ekonomisinde ekonomik kalkınmada dış ticaret büyük önem arz etmektedir. Bu nedenle Türkiye'nin dış ticaret hacmi yaşanan pandemiye rağmen artış göstermiştir. Bilindiği üzere dış ticaret gelişmelerini incelerken kullanılan başlıca göstergelerden biri olan ihracatın ithalatı karşılama oran ölçütüdür. Türkiye'de ithalatın ihracatı karşılama oranının 1980-2021 yıllarındaki gelişimi incelendiğinde; 1980'deki 36,8% oranındaki seyrinin 1988'de 81,4%'e yükselmiştir. 1980'lı yılların sonlarından itibaren düşüş eğilimine girmiş ancak alınan önlemler ve AB ile dış ticarete yaşanan olumlu gelişmeler ve Gümrük Birliğine giriş sonucu ihracat tekrar yükseliş eğilimine girmiş ve 1994'de ise %77,8 oranına yükselmiştir. Covid-19'un dış ticaret üzerindeki etkilerinin yoğun olarak hissedildiği 2020 yılında 2019 yılına oranla düşerek ithalatın ihracatı karşılama oranının %77,2 seviyesinde gerçekleşmiştir. 2021 yılında yaşanan toparlanma ile birlikte ithalat için ödenen dövizin %83'ü ihracattan elde edilen dövizle karşılanmıştır.



TÜRKİYE 2000'Lİ YILLARIN BAŞLARINDAN BU YANA ÖNEMLİ **EKONOMİK VE SOSYAL** KALKINMA SONUÇLARI ELDE ETMİŞTİR

**TABLO 1: TÜRKİYE'NİN TÜRK DEVLETLERİ İLE DIŞ TİCARET HACMİ (2021 YILI) (MİLYAR ABD DOLARI)**

| Ülkeler | İhracat | İthalat | Hacim |
|---|---|---|---|
| Azerbaycan | 2,34 | 0, 751 | 3.09 |
| Kazakistan | 1,28 | 1,59 | 2,88 |
| Kırgızistan | 0,749 | 0,86 | 0,836 |
| Özbekistan | 1,84 | 1,80 | 3,64 |
| Türkmenistan | 0,985 | 0,711 | 1,70 |
| Macaristan | 1,40 | 1,65 | 3.04 |

Kaynak: T.C. Ticaret Bakanlığı, 2022

TUİK verileri dikkat alındığında Türkiye'nin ihracatı yapısında en büyük payı imalat sektörü yer aldığı görülmektedir. 2021 yılının verilerine göre imalat sektöründeki ihracat yapan işyerlerinin oranı yüzde 19,1'dir. Türkiye genelinde 20 ve daha fazla istihdamlı işyerleri için ihracat yapma oranı ise yüzde 54,3'tür. Türkiye'nin ihracatında imalat sanayi lokomotif rol üstlenmiştir. Bunun bir diğer anlamı da Türkiye'nin imalat sanayiyi kalkınma aracı olarak kabul etmiş olmasıdır. Türkiye'nin 2010–2021 dönemi dış ticaretinde, tarım ve madencilik sektörünün toplam ihracat içindeki payında sınırlı bir dalgalanma, hatta kısmı bir düşüş gösterirken, imalat sanayi ürünleri ihracatında önemli bir yükseliş gözlenmiştir. Bu dönemde imalat sanayi ürünleri ihracatındaki artış, özellikle yatırım malı üreten sektörlerdeki hızlı ihracat büyümesinden kaynaklanmıştır. Türkiye'de imalat sanayinin göstermiş olduğu gelişme Türkiye'ye birçok fırsatlar sunmaktadır. Bu fırsatların başında Türkiye'nin nispeten sanayileri daha az gelişmiş Orta Doğu, Kafkasya, Orta Asya ve Doğu Avrupa için bir üretim merkezi haline gelmiş olmasıdır. Diğer taraftan Türkiye, Avrupa Birliği ülkeleri içinde birçok ara mal yönünde Çin'e alternatif ülke konumundadır.

Türkiye'de toplam ithalatın önemli kısmını ara malı ithalatı oluşturmaktadır. Aslında bu durum Türkiye'nin imalat sanayi ürünlerinin ihracatının önemli ölçüde ithalata bağımlı

olduğunun bir göstergesidir. Başka bir ifadeyle Türkiye'nin 24 Ocak 1980 sonrası izlediği dışa açık büyüme modelinde ihracat artışının ara malı ithaline olan bağımlılığını arttırdığı görülmektedir. Yani ihracatçı sanayi kesimi, ara malı ve hammadde ihtiyacını ithalatla karşılamaktadır. Bu durum beraberinde ilginç bir yapı ortaya çıkarmıştır. Bu yapı içinde ülkenin dış ticaretinde, ihracatçı bazı sektörler aynı zamanda büyük ölçüde ithalatçı sektör haline gelmişlerdir. Buradan da hareketle ara malların toplam ithalat içinde en büyük paya sahip olması ve bu payın katlanarak artması Türk dış ticaret yapısı açısında bazı riskleri taşımaktadır.

Dış ticaretin ülkelere göre dağılımına bakıldığında, Avrupa Birliği, (AB) Türkiye'nin ihracatında yıllar itibariyle en önemli paya sahip ülke grubudur. Türkiye ile Türk Devletleri arasında dış ticaret hacmi henüz istenen düzeyde olmazsa da Türkiye gerek yatırım gerekse dış ticaret açısından Orta Asya Türk Cumhuriyetlerinin ilk beş ortakları arasında yer almıştır. Bununla birlikte ikili ilişkilere bakıldığında enerji alanında gerçekleştirilen ortak yatırımlar sonucu Türkiye ile Azerbaycan arasındaki ikili ekonomik ilişkiler dikkate çekici bir hal almıştır. Türkiye ile Azerbaycan arasında ekonomik işbirliği düzeyi özellikle enerji alanındaki yatırımlar iki ülke arasında stratejik derinliğe sahip bir iş ortaklığın oluşmasına neden olmuştur. Türkiye ile Azerbaycan arasında enerji alanına dair BTC petrol boru hattı, BTE doğal gaz boru hattı, TANAP ve TAP projeleri gerçekleştirilmiştir. Bu devasa projeler mevcut enerji haritası değiştirmiştir. Bilhassa Rusya-Ukrayna savaşında sonra Batı'nın enerji krizi ile karşı karşıya kalması sonucu enerji temini konusunda girdiği alternatif arayışta Azerbaycan'ın öne çıkması hem bu projelerin stratejik önemini artırmış hem de Azerbaycan ile Türkiye'nin enerji konusundaki işbirliğini daha da güçlü hale getirmiştir. Türkiye ile Türk Devletleri arasındaki ekonomik alandaki işbirliği hacmi aşağıdaki tabloda verilmiştir.



**İbrahim Niftiyev**
UNEC



# TÜRKMƏNİSTAN İQTİSADİYYATININ MÖVCUD VƏZİYYƏTİ VƏ **İNKİŞAF PERSPEKTİVLƏRİ**

**Türkmənistan da digər postsovet ölkələri kimi Sovet Sosialist Respublikaları İttifaqının (SSRİ) 1991-ci ildə parçalanmasından sonra bir çox sosial-iqtisadi çətinliklərə düçar oldu, lakin tədricən yaranmış şok vəziyyətindən çıxa bildi. SSRİ dövründə Türkmənistan digər ittifaq ölkələrinə təbii qaz ixrac edirdi və pambıq istehsalı ilə məşhur idi. Müstəqillik dövrü başlayan kimi ticarət əlaqələrinin itirilməsi, enerji və suvarma sistemlərindəki problemləri xüsusilə vurğulamaq olar ki, Türkmənistanın ənənəvi iqtisadi əlaqələrini sarsıtdı və bir neçə il artan, sürətlə pisləşən işsizlik və yoxsulluq probleminin əsasını qoydu. Bütün bunlara rəğmən, həm SSRİ dövründə yaradılmış nəqliyyat, kommunikasiya və enerji infrastrukturları, həm də Mərkəzi Asiya ölkələri arasında əməkdaşlığın inkişaf etdirilməsi sayəsində bir çox çağırışların və problemlərin (məsələn, ekoloji, yoxsulluq) həlli üçün nəzərəçarpan addımlar atılmış oldu.**

*Türkmənistan əsasən təbii qaz və neft əsaslı iqtisadi inkişaf modelinə üstünlük verib*

Türkmənistan həm mövcud mürəkkəb geosiyasi şərtlərdən öncə (məs., 2022-ci ildə yeni mərhələyə qədəm qoyan Rusiya-Ukrayna müharibəsi, COVİD-19 pandemiyası), həm də təbii sərvətlər, başqa sözlə, əsasən təbii qaz və neft əsaslı iqtisadi inkişaf modelinə üstünlük verib. Daha dəqiq, ölkə rəhbərliyi 1993-cü ildə qəbul edilən "Sabitliyin 10 ili" adlı dövlət proqramı vasitəsi ilə dövlətin iqtisadiyyatda olduqca yüksək roluna əsaslanan tədrici keçid iqtisadiyyatı modelinə üstünlük verib. Hətta bəzi mütəxəssislərin fikrincə, Türkmənistan 90-cı illərin ortasınadək ümumiyyətlə ciddi islahatlar aparmayıb, çünki SSRİ-nin parçalanmasından sonra iqtisadi rifahın əsas mənbəyi olan hasilat sənayesi elə də ciddi zərbə almamışdı. Odur ki, son 30 ildə dövlətin iqtisadiyyatda rolu olduqca yüksəkdir və bir çox məhsul və xidmətlərin qiyməti tənzimlənir. Türkmənistanda əhalinin sosial təminatı və müdafiəsində də, dövlət böyük rola sahibdir. Lakin bütün bunların hamısı məhz təbii qaz və neft resurslarının satışından əldə edilən gəlirlər sayəsində maliyyələşdirilməkdədir. Müstəqillikdən sonra sənaye istehsalı şaxələndirilmədi, daha çox qapalı və kiçik

iqtisadi sistem bərqərar oldu. Bu da öz növbəsində Türkmənistan iqtisadiyyatını postsovet məkanında bir çox iqtisadi, sosial və institutsional göstəricilərdə geridə qalmasına gətirib çıxardı.

2014-2015-ci illərdə beynəlxalq mal bazarlarında baş vermiş kəskin qiymət enişləri səbəbi ilə Türkmənistanın ümumi daxili məhsulu (ÜDM) 2015-ci ildə 35,8 milyard dollara qədər endi ki, bu da ondan cəmisi bir il öncəki 43,5 milyard dollarlıq tarixi yüksək göstəricidən 17,7% daha aşağı idi. 2022-ci ilin ilk yarısında isə yüksək təbii qaz qiymətləri sayəsində Türkmənistanın ÜDM-i 6,2%, ixracı isə 50% artıb. Bu hər nə qədər ölkənin fiskal tutumunu inkişaf etdirsə də, milli istehsalın diversifikasiya problemləri, keçid dövrünün naqisliyi, təbii qazın qonşu ölkələrdən nəqli zamanı yaranan vaxtaşırı mübahisələr onun yaxın gələcək üçün yeni, daha dayanıqlı və müasir inkişaf modelinə üstünlük verməli olduğunun carçısıdır. Məsələn, "2011–2015-ci illər üçün Türkmənistanda kiçik və orta biznesin dəstəklənməsi üzrə Dövlət Proqramı" və "2011–2015-ci illər üçün Türkmənistanda kiçik və orta biznesin dəstəklənməsi üzrə müvafiq tədbirlər planı" bu istiqamətdə ciddi addım sayıla bilər. Daha yeni proqramlar arasında "2022–2052-ci illərdə Türkmənistanın Sosial-İqtisadi İnkişafı Milli Proqramı" və 2022–2028-ci illərdə ölkənin sosial-iqtisadi inkişafı Prezidentinin Proqramı"nı nümunə vermək olar.

Digər postsovet ölkələri ilə müqayisədə Türkmənistanda inzibati-amirlik və planlı iqtisadiyyat sistemindən bazar iqtisadi modelinə keçid aşağı sürətlə baş verib. Baxmayaraq ki, son otuz ildə xidmətlər sektorunda kiçik və orta ölçülü müəssisələr öz fəaliyyətlərini bərqərar ediblər, ölkənin istehsal sənayesi dövlət müəssisələrinin əlində cəmlənib, özəl sektor milli istehsaldan kənarda qalıb və kənd təsərrüfatı tamamilə dövlət tənzimlənməsi əsasında fəaliyyət göstərir. Məsələn, kənd təsərrüfatında istehsal buraxılışı və məhsulların qiyməti ifrat dərəcədə dövlət tərəfindən tənzimlənir ki, belə olan halda da fermerlər üçün kənd təsərrüfatının məhsuldarlığının artırılması istiqamətində heç bir stimul yaranmır. Əlavə olaraq, Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) 2023-cü il üçün məruzə etdiyi açar prioritetlər arasında nəqliyyata yönəlik məsləhətlər və qeydlər məxsusi vurğulanıb, çünki sənaye və kənd təsərrüfatı ilə müqayisədə məhz nəqliyyat sektoru ölkə üçün bir çox ticarət imkanlarını təqdim edə bilər və qısa müddət ərzində əhalinin rifahına dair problemlərin həllinə kömək edə bilər. Məsələn,

**TÜRKMƏNİSTANDA SON İLLƏR KİÇİK VƏ ORTA SAHİBKARLIQ SUBYEKTLƏRİ ARASINDA RƏQƏMSALLAŞMANIN STİMULLAŞDIRILMASINA DAİR DÖVLƏT DƏSTƏYİ MÜŞAHİDƏ EDİLMƏKDƏDİR**

Çin-Qırğızıstan-Özbəkistan dəmiryolu xətti Türkmənistan üçün ticarət dövriyyəsinin artımına töhfə verə bilər, lakin bunun üçün Türkmənistan ikitərəfli ticarət əlaqələrinin inkişaf etdirilməsinə, viza rejimlərinin sadələşdirilməsinə və daha açıq qonşuluq siyasətinə meyl etməlidir. Əhəmiyyətli yol ayrıcında yerləşməsini nəzərə alaraq, Türkmənistan öz ərazisindən keçən əlavə nəqliyyat və logistika dəhlizlərinə, o cümlədən, boru kəmərləri, dəmir yolları, avtomobil yolları, dəniz nəqliyyatı və logistika infrastrukturuna investisiya cəlb etmək üçün əla imkanlara malikdir. Bu istiqamətdə əminliklə qeyd etmək olar ki, nəqliyyat və logistika Türkmənistan üçün həm yaxın, həm də uzunmüddətli perspektivdə çox şey vəd edir.

Bir çox mütəxəssislərin qiymətləndirməsinə görə Türkmənistan sahib olduğu təbii sərvətlər və coğrafi mövqeyi vasitəsi ilə qonşu ölkələrlə sıx iqtisadi əməkdaşlıq etməkdə maraqlıdır, çünki bəzi region ölkələri üçün məhz Türkmənistan limanlarından Xəzər dənizi vasitəsi ilə Azərbaycan, İran, Rusiya və Qazaxıstanla iqtisadi əlaqələr qurmaq mümkün olur. Bunlardan biri və bəlkə də ən əhəmiyyətlisi "Bir Kəmər Bir Yol" layihəsi çərçivəsində ölkənin nəqliyyat qovşağına çevrilməsi planlarıdır. Bu istiqamətdə olduqca yüksək investisiya layihələri icra edilsə də, hələ də əhəmiyyətli iqtisadi məqsəd və hədəfləri reallaşdıracaq nəticələr əldə etmək mümkün deyil. Türkmənistan və Çin arasındakı artan iqtisadi əməkdaşlığın əsas stimulu Türkmənistanın İran və Rusiya ilə yaşadığı təbii qaz qiyməti mübahisələri olub. Baxmayaraq ki, uzaq məsafə və artan sıxışdırılmış qaz istehlakı Mərkəzi Asiyanın hidrokarbon resurslarını Çin üçün bahalı edir, yenə də Çin Türkmənistana müəyyən ticarət diversifikasiyası imkanları yaradıb. Buna baxmayaraq, müəyyən institusional və iqtisadi islahatların miqyası artırılmalı və əsas kapitala yönəldilən investisiyalar məhsuldarlığı artırmağa xidmət edən keyfiyyətli mühitlə dəstəklənməlidir ki, Türkmənistan qeyd olunan üstünlüklərini uzunmüddətli perspektivdə real iqtisadi artım və inkişafa çevirə bilsin. Başqa sözlə, faktiki olaraq Türkmənistanın beynəlxalq layihələrlə təmin etməyə çalışdığı iqtisadi artım ancaq ölkədaxili real islahatlar və bazar iqtisadiyyatına tam keçidlə mümkündür.

Türkmənistanın iqtisadi inkişaf perspektivləri sadəcə Çin ilə kifayətlənmir. Son illərdə Pakistan da Türkmənistanla sıx əməkdaşlıqda maraqlı

olan ölkədir, çünki o potensial "Türkmənistan-Əfqanıstan-Pakistan-Hindistan" təbii qaz boru xəttinin açar elementidir. Belə layihələr sayəsində Türkmənistan şərqə doğru ticarətinin diversifikasiya ehtiyacını ödəyə bilər və daha etibarlı ticarət tərəfdaşları qazana bilər. Belə olan halda, Türkmənistan daha səmərəli iqtisadi əməkdaşlıq təşkilatlarına üzv olmalı və xarici iqtisadi əlaqələrini yenidən qurmalıdır. Məsələn, İran və Türkiyənin də üzv olduğu, lakin bir o qədər də işlək olmayan İqtisadi Koordinasiya Təşkilatına çox yaxşı alternativ olan Türk Dövlətləri Təşkilatı (TDT) bu baxımdan çoxsaylı fürsətlər təklif edə bilər. Halbuki Türkmənistan TDT-də hələ ki müşahidəçi statusundadır. Ölkədə mövcud azad iqtisadi zonaların təkcə Çinin emaledici sənayesi və ixrac potensialı üçün deyil, həm də TDT ölkələri üçün də açılması bu baxımdan əlavə imkanlar tanıyır və tarixi İpək Yolunun bərpasında əlavə hərəkətverici amil ola bilər.

AYİB-in Türkmənistan üzrə diaqnostik qiymətləndirməsi onu göstərir ki, ölkədə özəl sektorun iqtisadiyyatda rolu zəifdir. Bundan əlavə, xarici valyutalar, əsasən də ABŞ dolları qarşısında olduqca dəyərli olan Türkmənistan manatı, ifrat tənzimlənən mübadilə valyuta prosesləri və etibarlı monetar məlumatların əldə edilməsindəki problemlər bizneslər üçün bu ölkəyə investisiya qoyuluşunu bəzən nəinki ləngidir, hətta mümkünsüz edir. Valyuta alış-verişində qara bazarlar geniş yayılsa da, 2022-ci ildə rəsmi məzənnə ilə faktiki bazar məzənnələri arasında fərq azalıb. Monetar və sənaye siyasəti baxımından ölkədə idxalı əvəzetmə siyasəti əsasən aktiv olduğuna görə bir çox kiçik və orta müəssisələr dövlət tərəfindən prioritet elan edilən qida və içki istehsalı sahələrində fəaliyyət göstərərək müəyyən ciddi güzəştlər əldə edə bilirlər.

Türkmənistan iqtisadiyyatının onun vətəndaşlarına yüksək rifah və dayanıqlı iqtisadi artım təmin edə bilməsi üçün bəzi digər məqamları da qeyd etmək mümkündür. Məsələn, mütəxəssislərin təhlillərinə əsasən Türkmənistanın mövcud iqlim şəraiti ona əlverişli və geniştutumlu günəş və külək enerjisindən yararlanmaq imkanlarını tanıyır. Məhz mərkəzləşdirilməmiş enerji istehsalı və istehlakı vasitəsi ilə kiçik və orta sahibkarlığın mövcud olduğu müasir kənd və qəsəbələrlə kənd təsərrüfatını canlandırmaq mümkündür. Türkmənistanın kənd təsərrüfatını inkişaf etdirmək baxımından imkanları və tarixi təcrübəsi zəngin olmasa da (əsasən bitkiçilik sahəsi üzrə kənd təsərrüfatı nəzərdə tutulur; SSRİ dövründə pambıq istisna olmaqla, ancaq aşağı keyfiyyətli yemlik taxıllar istehsal edilirdi), hər bir halda suvarılan münbit ərazilərdə kənd təsərrüfatını canlandırmaq olar. SSRİ dövrü ilə müqayisədə Türkmənistan son 30 ildə kənd təsərrüfatına yüksək diqqət ayırır ki, enerji təhlükəsizliyi ilə yanaşı, ölkə həm də qida təhlükəsizliyi baxımından real nəticələr əldə etsin. Əlavə olaraq, Türkmənistanda son illər kiçik və orta sahibkarlıq subyektləri arasında rəqəmsallaşmanın stimullaşdırılmasına dair dövlət dəstəyi də müşahidə edilməkdədir ki, bu da yaxın gələcək üçün bəzi iqtisadi canlılığa dair ümidverici məqamlardandır.

**TÜRKMƏNİSTAN POSTSOVET MƏKANINDA ƏN ÇOX KARBON SIXLIĞINA MALİK OLAN ÖLKƏLƏRDƏNDİR**

Lakin bütün bunlara baxmayaraq, Türkmənistan postsovet məkanında ən çox karbon sıxlığına malik olan ölkələrdəndir ki, bu da onun enerji sektorundakı yenilənəbilən mənbələrin olmadığından xəbər verir. Digər bir məsələ irriqasiya sistemlərinin təkmilləşdirilməsi, getdikcə artan ekoloji böhranlarla və iqlim dəyişikliyi ilə mübarizədə açıq-aydın strategiyanın olmaması ilə bağlıdır. Türkmənistan iqlim dəyişikliyinə qarşı olduqca həssas ölkələr siyahısındadır və kənd təsərrüfatı bu baxımdan böyük risk altındadır. Baxmayaraq ki, Türkmənistan əhalisi gəncdir (əhalinin 50%-i 25 yaşdan aşağıdır), təhsil və kommunikasiya problemləri şəhər və regionlar arasında kəskin hiss olunur (məsələn, internetə əlçatanlıq 12%-dir və orta qiymət yüksəkdir). Bütün bunlar keyfiyyətli dövlət xidməti və bürokratiya ilə mümkündür. Odur ki, bu istiqamətdə də işlər davam etdirilməli, islahatlar aparılmalı və müvafiq strateji inkişaf yol xəritələri tərtib edilməlidir. Halbuki Türkmənistan iqtisadiyyatında mövcud yüksək inhisarlaşma, qeyri-liberal investisiya mühiti və ədliyyə sistemində olan geriləmələr onun iqtisadiyyatında da bir çox fürsətlərin itirilməsinə gətirib çıxarır. Keçid dövrünün çox vaxt alması, hesabatlılıq və şəffaflıqda olan geriləmələr, eləcə də statistik göstəricilərin hesablanması və məruzəsindəki problemlər Türkmənistanın postsovet məkanında mövqeyini geriləden digər amillərdəndir. Bu baxımdan, hər nə qədər beynəlxalq əməkdaşlıqlar (məs., TDT ilə), əlverişli coğrafi mövqe və zəngin təbii sərvətlər iqtisadi inkişaf üçün ilkin zəmin yaradırsa da, dayanıqlı, rəqabətqabiliyyətli və funksional bazar iqtisadiyyatı modelinə tam keçid etmək üçün görüləcək işlər çoxdur.